AZƏRBAYCAN AŞIQLAR BİRLİYİ

OZAN DÜNYASI

№ 2(17)
2014

AZƏRBAYCAN AŞIQLAR BİRLİYİ

Ozan dünyası **№2(17), 2014**

Millətimi saz anladar, saz anlar,
Saza baxsın tariximi yazanlar.

Zəlimxan Yaqub
Xalq şairi

Baş redaktor: **Musa NƏBİOĞLU**

REDAKSİYA HEYƏTİ:

Zəlimxan Yaqub (məsləhətçi)
Məhərrəm Qasımlı (məsləhətçi)
Həsən Mirzə
Nizami Cəfərov
Muxtar İmanov
Qəzənfər Paşayev
Qənirə Paşayeva
İsmayıl Məmmədli
Elxan Məmmədli
İlyas Tapdıq
Məmməd Aslan
Seyfəddin Qəniyev
Ədalət Nəsibov
İsfəndiyar Rüstəmov
Seyfəddin Altaylı (Türkiyə)
Nizaməddin Onk (Almaniya)
Çingiz Mehdioğlu (İran)
Nazim İrfan Nəsrəddinoğlu (Türkiyə)
Osman Əhmədoğlu (Gürcüstan)

Rəssam: ***Ömər Qoçulu***
Əməkdar memar, memarlıq namizədi

Jurnal 26 noyabr 2008-ci ildə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində qeydə alınmışdır. Qeydiyyat nömrəsi: 2756

Ünvan: Bakı, Zərifə Əliyeva küç. 53
Əlaqə telefonları:
(+ 994 12) 493 86 61
(+994 50) 345 36 52
musa58@bk.ru

Camal MUSTAFAYEV
Professor,
Əməkdar elm xadimi

AŞIQ ƏLƏSGƏR İRSİNDƏ SUFİLİK

Aşıq Ələsgərin şeir sənətində sufiliyin təsiri açıq duyulur. Bunun sirrini ətraflı aydınlaşdırmaq dahi sənətkarın dünyagörüşü haqqında təsəvvürümüzü genişləndirər. Buna görə bu maraqlı mövzunu ciddi araşdırmaq niyyətindəyik.

Əvvəlcə bir məlumatı hörmətli oxucuya bildirmək lazım gəlir. Həmin mövzu keçən əsrin 70-ci illərindən başlayaraq müəllifin xəyalında dolaşırdı. Mötəbər alimlərlə söhbətlərdə biz Aşıq Ələsgəri mütəfəkkir kimi təqdim edirdik. Şərqin fəlsəfi poeziyasından, sufizmdən səmərəli istifadə etdiyindən danışırdıq. Sonralar bu mövzunu əsaslı açıqlamağın lüzumunu vurğuladıq. Ancaq maraqlananların bu xüsusda bizdən gözlədikləri tədqiqat hələ meydana çıxmırdı.

Aşıq Ələsgər irsində sufiliyi izləməkdən əvvəl onu şərtləndirən amillər haqqında məlumat verək. Bu amillər müxtəlifdir; yeri gəldikcə onlardan xüsusi danışılacaq. Fikrimizcə, ilk növbədə onun zəngin Şərq poeziyasına yaradıcı marağından doğurdu. O, Şərqin poetik dühalarının söz sənətinə bələd olduğunu ayrıca xatırladırdı:

Yox sazımın nə pərdəsi, nə simi,
Onu çalıb kim tərpədər nəsimi,
Füzuli, Firdovsi, Hafiz, Nəsimi
Onlar da yazdığı ayə məndədi.

Həmin sətirlərdə bəzi sözləri qısa tərzdə izah edək: “Yox sazımın nə pərdəsi, nə simi” – şeirə köklənmiş könül sazıdır. Şairin qəlb rübabının “nə pərdəsi, nə simi” olmur; onu gözəl şeir çalır, dilə gətirir. “Nəsimi”– ruhu canlandıran, xoş ovqat oyadan səba yelidir. “Ayə” – bilindiyi kimi, hikmətli şeirdir (Quran ayəsinə bənzər).

Aşıq Ələsgərin şeirlərində Nizamidən, Füzulidən, xüsusən Nəsimidən əxz edilən kəlamları mütəxəssis oxucu əyani görür. Bu mənada, hələlik heç olmasa bir neçə örnəyi misal göstərək:

Söz gövhərə döndü, şair - qəvvasa,
Çətin ələ gəlir sözlərin xası.
(Nizami)

Gövhər olar dəryalarda dərində,
Qəvvas çəkər onu ay üzə tək-tək.
(Aşıq Ələsgr)

Gər qara daşı qızıl qan ilə rəngin edəsən,
Təbə təğyir verib, ləli-Bədəxşan olmaz.
(Füzuli)

Sərraf yüz bəzəsə səngi siyahı (qara daşı)
Üzdən mütəllədir (parlaqdır) ləl ola bilməz.
(Aşıq Ələsgər)

Aşıq Ələsgərin bəzi şeirlərində Nəsimi irsindən nisbətən geniş faydalandığını müşahidə etmək olur. Xüsusilə, "Əliflam" şeirini Nəsiminin eyniadlı şeirindən ruhlanaraq yaradıb. Nümunəni təqlid etmədən, ərəb hərflərini "Əlifdən – yeyə" qədər İslam dini əsasında müstəqil olaraq mənalandırıb.

Yaxud Aşıq Ələsgərin Şərq poeziyasına marağını bir daha ifadə edən kəlamını xatırladaq:

Tutubdu dəstində gözəl nizamı
Füzuli, Firdovsi, gözəl Nizami,
Təqdiri-qüdrətin gözəl nizamı
Dərdi mənə verib, yara – dərmanı.

Bu şeirin birinci misrasında "nizam" – nəzmdir; onu "dəstində tutmaq" – söz mülkünə hakim olmaq deməkdir. "Təqdiri-qüdrətin gözəl nizamı" – ilahinin yaratdığı əzəli dünya nizamı.

Aşıq Ələsgər həmin kəlamında öz böyük ustadı Aşıq Alının fikrini davam etdirir. Aşıq Alı özünün həqiqətən hikmətli təcnislərinin birində bu fikri belə ifadə edirdi:

Birdi, bu aləmdə nizam ikimi,
Nizam olmaz dünya nizamı kimi.
Füzuli, Firdovsi, Nizami kimi,
Alıyam, kaş yazam bir ayə mən də.

Bu məlumatlardan sonra diqqətimizi Aşıq Ələsgərin açılmayan məşhur "Ay nədən oldu?" bağlamasını açmağa yönəldək. Bu bağlama əslində başdan-başa sufilik ruhu daşıyır. Onu əvvəlindən sonuna qədər sistemli şəkildə açmaq lazımdır:

Yerin, göyün, ərşin, kürsün, insanın
Künhü, bünövrəsi ay nədən oldu?
Yeri göydən, göyü yerdən kim seçdi?
Hikmətin dəryası ay nədən oldu?

Burda əvvəlcə varlığın ilk səbəbi haqqında söhbət gedir. Bu səbəb sufizmdə Allah anlamına gələn dünya ruhudur. Əslində, xüsusi termində buna "dəryayi-mühit" deyilir; dünyanın əsli sayılır. Aşıq Ələsgər "Hikmətin dəryası" sözünü eyni mənada işlədir. Onun başqa sualını düşünək: "Yeri göydən, göyü yerdən kim seçdi?"

Bu sualı Quran-i Kərimdən əxz etdiyi məlumata əsaslanır. "Füssilat", "Əl-Hac" surələrində bu məsələdən xüsusi danışılır. İlk yaranışda "qaz halında olan göyü" Allah, iradəsi ilə yerdən ayırdığı deyilir. Yəni bu, Kainatı bir nizama gətirməyin ilk başlanğıcına işarə edirdi. Buna görə Aşıq Ələsgər sonra Kainatın quruluşu haqqında sual verirdi:

Yeddi qat göy nə növünən quruldu?
Neçə qəndil, neçə sütun vuruldu?
Sən kimsən, mən kiməm, kimdən soruldu?
Ustadlar ustadı ay nədən oldu?

Sufilik sistemində bu "yeddi qat göy" – yeddi planet bir ənənə olaraq xatırlanır: Günəş, Ay, Mars, Venera, Saturn, Merkuri, Yupiter. Düşündürən əsas cəhət – bunların səmada bir-birini şərtləndirən nizamla yerləşməsidir. Bunu nəinki sufilik, neçə fəlsəfi sistemlər ilahi hikmətin gerçəkliyini təsdiqləyən dəlil sayır.

Aşıq Ələsgər bu ciddi sualı Qurana əsaslanaraq verirdi. Açıqlama üçün bəzi surələrdə bu xüsusda örnəklərdən xatırladaq: "Bir-birinin üzərində yeddi qat səmanı yaradan Odur (Allahdır). O rəhmanın bu yarat-

dığında heç bir düzənsizlik tapa bilməzsən. Gözünü bir çevir bax, onda (səmada) bir çatlaq belə görə bilərsənmi?..” (“Mülk” surəsi).

“Üstünüzə yeddi qat sağlam göy bina etdik. (Ortasına da) işığı bol olan günəş lampasını asdıq.” (“Nəbə” surəsi).

“Allahın 7 qat göyü bir-birinin üzərində yaratdığını görmürsünüzmü? Ayı içlərində bir nur, günəşi də qəndil yaratdı.” (“Cin” surəsi).

Aşıq Ələsgərin həmin sualının cavabı bu gətirilən kəlamlardan özözünə aydın olur: Yeddi qat göy bir-birinin üzərində qurulub; işığı bol günəş burada “qəndildir”. Bəs “neçə sütun vuruldu?” deyəndə nəyi nəzərdə tuturdu? Məşhur dörd təbii ünsürü: odu, suyu, torpağı, havanı. Bu ifadə Nəsiminin bir fikrinə çox uyğun səslənirdi:

Dörd dirəklə qaim olmuşdur bu şəhr
Kim, anın içindədir afaqü dəhr.

Nəhayət, keçək anılan sualın başqa hissəsinin qısa şərhinə:

Sən kimsən, mən kiməm, kimdən soruldu,
Ustadlar ustadı ay nədən oldu?

Bu, – sufilikdə Qurandan əxz edilən, ənənəvi anılan bir ayəyə işarədir: “Ələstu Birəbbikum Qalu-Bəla” – “Mən sizin Rəbbiniz deyiləmmi? Bəli, – dedilər.” Quranda deyilənə görə, Allah yaranışın əzəlində ruhlara həmin sualla müraciət edib, “bəli” cavabı almışdı. Təsəvvüf əhli əslində bunu Allahla qədimi vəhdət andı kimi qiymətləndirir:

Qalu bəlanın əhdini unutmazam, unutma kim.
İmani tövhid əhlinin şol əhdü, şol iqrar imiş.
(Nəsimi)

Aşıq Ələsgərin “Ay nədən oldu?” bağlamasını uğurla açmağı davam etdirək:

Nədən lövh yarandı, nədəndi qələm?
Neçə hüruf o məclisdə oldu cəm?
Aləmi-ərvahda qurulan aləm
Ayəsi, şəqqəsi ay nədən oldu?

Sufi anlamına görə, “lövh” – lövhə varlığın ruhu, “qələm” – Allahın əmridir. Bu lövhədə iki hüruf cəm oldu: “K”, “N” = “Kafu-nun”: “kon”-

“ol” sözünü yaratdı. Təsəvvüf əqidəsində, Qurana uyğun olaraq, Allahın varlığı “ol” əmri ilə yaratdığı düşünülür.

Sonra “Aləmi-ərvah”, yəni ruhlar aləmi xüsusunda soruşurdu. Aşıq Ələsgərin dövründə bütün göylər aləmi belə adlanırdı. Təmiz mövcudluğu baxımından dörd ünsürlü yerin qarışıq təbiətinə qarşı qoyulurdu.

“Ayəsi, şəqqəsi (yəni hissəsi) ay nədən oldu?” sualını isə belə cavablandıra bilərik: Parlayan ulduzlar – onun ayəsi, günəşlə ay – şəqqəsi sayılırdı.

Bağlamanın sonrakı bəndlərində əks edilən sualları (rəmzləri) açmağa diqqət yetirək:

Mansırın toxmağı, İsrafil suru,
Kəbənin Zəmzəmi, Musanın Turu,
Nitqimin quyəsi (gözəlliyi), didəmin nuru,
Sərimin sevdası ay nədən oldu?

Aşıq Ələsgər “Mansırın toxmağı” deyəndə Həllac Mənsuru anırdı. “Həllac – pambıq atan” deməkdir; “toxmaq” sözü buna işarədir. Həllac Mənsur ilahi eşq şəhidi kimi bütün təsəvvüfdə əslində bir simvola çevrilmişdi. Yunus Əmrənin sözüdür: “Bizdən nişan istəyənə ol Həllacı Mənsur nədir?” O, öz batini ruhunda Allaha qovuşduğunu çəkinmədən söyləyirdi. Bunu rəmzlə “Ənəl-həq” (“Mən Allaham”) ifadəsində yayırdı. Nəsimi Həllac Mənsura gerçəkdən coşqun ilhamla pərəstiş edirdi.

“İsrafil suru”na gəlincə, onu sufilik başqa çalarda anladır. Quranda bu surun məhşər günündə – ölülərin qəbirdən dirildiyi, ilahi məhkəmənin başladığı gündə çalınacağı bildirilir. Sufilikdə bu “dirilmə”, mahiyyət etibarilə, mənəvi oyanışa, özünüdərketməyə bir çağırış olaraq səslənirdi. Bu cəhətdən Nəsiminin çağırışını nümunə göstərmək yerinə düşər:

Məhşər suru çalındı, yatma dur,
Gör ki nə sovdadasan, halın nədur?
... Ey özündən bixəbər qafil, oyan!
Olma fani aləmə mail, oyan!
Mərifətdən nəsnə qıl hasil oyan!

Açıqladığımız bənddə ikinci sualı cavablandıraq: “Zəm-zəm” Məkkədə həcc ziyarətində olanların müqəddəs nemət kimi tapındıqları çeşmədir. Nəsimi bu xüsusda belə deyir:

Kəbə yolunda eşq ilə yoldaş ol, ey Həccə varan,
Susamaz ol ki, yoldaşı Zəmzəm ilə Fərat olur.

"Musanın Turu" isə sufilikdə daha çox tətbiq edilən bir rəmzdir. Burda Musa peyğəmbərin Tur dağında yanan ağacın parlaq nurunda təcəlli edən Allaha qovuşduğu söylənilir.

Bu suallar üzərində isə bir qədər dayanmaq lazımdır:

Nitqimin quyəsi (gözəlliyi), didəmin nuru,
Sərimin sevdası ay nədən oldu?

Aşıq Ələsgər əslində Quranda Allahın adından söylənən "Kon"-"ol" nitqinin gözəlliyini düşünür. Öz nitqinin gözəllik mayasının bu yaradan başlanğıcdan canlandığını ifadə edirdi. Bunu Nəsiminin bənzər bir fikri ilə müqayisə edək:

Cövhərləri zühurə gətirdi bu nitqi həq,
Gör kim nə feyzə gəldi, yenə bəhri kanımız.

"Didəmin nuru" sözünü adi mənada işlətmir; batini ilahi eşqin nurunu nəzərdə tutur. "Sərimin sevdası" ifadəsini bununla bağlı olaraq Allah eşqi mənasında işlədir.

"Ay nədən oldu?" bağlamasının son bəndini iqtibas edib, əhatəli açıqlayaq:

Yazıq Ələsgərəm, intizarım var,
Alimsənsə, məni eylə xəbərdar:
Elmi hardan tapdı cümlə aşıqlar?
Şeiri-müəmması ay nədən oldu?

"Elmi hardan tapdı cümlə aşıqlar?" – bu bəndin məna yükünü daşıyır. Şübhəsiz, söhbət dünyəvi aşıqlardan deyil, sufi görüşlü aşiqlər haqqında gedir. Bunlar isə ruhlarında daşıdıqları Allah eşqini bir elm olaraq düşünürlər. Bu yöndə Yunus Əmrənin bir kəlamını anmaq zəruridir:

Biz talibi elmləriz, eşq kitabın oquruz,
Cələb müdərris bizə eşq xud mədrəsəsidir.

Aşiqlərin "eşq mədrəsəsi" Allah özüdür, söyləyirdi Yunus Əmrə.

Nəsiminin bu xüsusda fikirlərindən birini oxucuya təqdim edək:

Nitq imiş aləmdə mövcud, eşq imiş qayim-məqam,
Bizə bildirdi əzəldən rəhbəri-mövlayi eşq.

Aşıq Ələsgər özü bu sualını başqa bir şeirində belə cavablandırırdı:

Ələstu Birəbbikum Qalu-Bəladan
Mərdin mövlasına nökər olmuşam.
Sürtmüşəm üzümü xaki-payına,
Elm tapıb sinə dəftər olmuşam.

Sufinin "üzünü torpağa sürtmək" qaydası Allah eşqi qarşısında mütiliyin rəmzidir. Yunus Əmrə bu qaydaya əməl etdiyini yeri gələndə xüsusilə bildirirdi:

"Yunus Miskin, kəndözün, torpaq eylədi yüzün,
Məşuqəyə yaraşan bir misginliyim vardır..."

"Könül səcdə qılur dost mehrabında,
Yüzün yerə urub qılur münacat."

Tamamlayıcı sualda aşiqlərin "şeiri-müəmması ay nədən oldu?" deyə soruşulur. Bunun cavabı belədir: sufi sözün mənasını rəmzlərlə ifadə etdiyi üçün, onun şeiri müəmmalı olur. Həmin sualı aşığın əxlaq mədəniyyəti xüsusunda özünün nəsihətində dediyi kəlamla cavablandırmaq olardı:

Danışanda sözün qiymətin bilə,
Kəlməsindən ləli-gövhər süzülə,
Məcazı danışa, məcazı gülə,
Tamam sözü müəmmalı gərəkdi...

Aşıq Ələsgərin uzun müddət açılmamış qalan "Ay nədən oldu?" bağlamasını layiqincə açdıq. Bunun tamamilə sufi motivləri üzərində qurulduğunu əyani izlədik. Qurandan gətirilən kəlamlarla, bundan başqa Nəsiminin, Yunus Əmrənin müvafiq fikirləri ilə müqayisəli şəkildə əsaslandırdıq.

Onun irsində sufilik bir neçə şeirində əks edilib. Bu yöndə oxucunu düşündürmək meyli açıq hiss edilir. Aşağıda belə nümunələri mahiyyətinə münasib surətdə şərh edəcəyik.

Ələstudən bəli dedim,
Nə xoş kəlamdı yüküm,
Bir gözəlin aşiqiyəm,
Vəsfi kamaldı yüküm...

Bu kəlamı hər dəfə tamamilə yanlış şəkildə yazırlar. Misal olaraq, Aşıq Ələsgərin 1972-ci ildə nəşr edilən kitabında belədir:

Ələsdudən bəli dedim,
Nə xoş kam aldı yüküm;
Beş gözəlin aşiqiyəm,
Vəsfi camaldı yüküm.

1988-ci il nəşrində isə bu variantdadır:

Ələsdudən bəli dedim,
Əcəb xoş haldı yüküm;
Beş gözəlin aşiqiyəm,
Vəsfi camaldı yüküm.

Yuxarıda açıqladıq: "Ələstudən bəli dedim" – sufilik əqidəsində Allah eşqinə əzəli sədaqət andı kimi düşünülür. Bunu o cümlədən Aşıq Ələsgərin öz sözləri ilə diqqətə yetirdik. Sufinin bütün ruhunu ehtiva edən bir Allah eşqidir. O, öz könül dünyasının kamilliyini bu eşqində görür. Aşıq Ələsgərin bayaq anılan kəlamı əslində həmin mənanı ifadə edir:

Ələstudən bəli dedim,
Nə xoş kəlamdı yüküm,
Bir gözəlin (Allahın) aşiqiyəm,
Vəsfi kamaldı yüküm.

Bununla əlaqəli Füzulinin bir fikrinə dərindən diqqət edək:

Ey Füzuli, qılmazam tərki-təriqi eşq kim,
Bu fəzilət daxili əhli kəmal eylər məni.

Kamal – kamillik istəyi ilahi eşq aşiqinin ali niyyətidir. Onun inamında batini ruhun kamilliyi vəhdət idealına – Allaha qovuşmağı şərtləndirir.

Bütün aşiqlər mübtəla olduqları eşqin təzadlarını yaşadıqlarını xatırladırlar. Nəsimi məhəbbətin çətinliyi haqqında oxucusunu açıq xəbərdar edirdi:

"Məhəbbət möhkəm işdir, qafil olma,
Bu karı sanma kim, hər karə bənzər..."

"Əgər nuş (bal) istər isən nişə (arının iynəsinə) qatlaş
Ki, nuşu nişəsiz verməz bu zənbur (bal arısı)."

Aşıq Ələsgər isə şeirinin davamında eşq haqqında xüsusən belə yazırdı:

...Həm dərindi, həm dayazdı,
Həm acıdı, həm şirin;
Zəhmətdə zəhri hələhil,
Ləzzətdə baldı yüküm.

Aşıq Ələsgərin şeirlərində sufiliyə açıq meylini dövrün rəsmi ruhaniliyi xoşlamırdı. Onun qəlbinə, şərəfli sənətkar nüfuzuna toxunan bədxah sözlər deməkdən çəkinmirdilər. O, bu cür haqsız rəftardan inciyir, bəzən şeirdə bundan şikayətlənirdi:

Ələsgər, üsyanın çıxıbdı sandan,
Öldürsən zənburu, əl çəkməz şandan.
Hərcayıdan, müxənnəsdən, nadandan
Nə söz qaldı sənətkara dəyməmiş.

Maneələrə baxmayaraq, sufilik meylinə – ilahi eşqinə sədaqətindən dönmürdü:

...Ölməyincə, bu sevdadan
Çətin dönəm, usanam.
Həqiqətdən dərs almışam,
Təriqətdən söz qanam;
Şahi-mərdan sayəsində
Elm içində ümmanam,
Dəryaların qaydasıdır
Ümmana baş endirir.

"Elm içində ümmanam" – Allah eşqi "elmini" ifadə edir. Bu elmə qovuşan, Allahın – dünya ruhunun – ümmanın bir qətrəsini öz ruhunda daşıyır. Deməli, eyni zamanda ümmanı daşıyır – qətrədə ümman yaşayır. Bu fikirlə bağlı Yunus Əmrənin bir kəlamını gətirək:

Bənəm ol eşq bəhrisi, dənizlər heyran bana,
Dəryalar bənim qətrəmdir, zərrələr ümman bana.

Nəsimi isə anılan mənanı bu cür ifadə edirdi:

Könlüm gəmisin qərq edə gör eşq dənizinə,
Kim bu dənizin bəhrini ümman bilir ancaq.

Aşıq Ələsgərin sufi görüşlərindən söhbətimizi bir qədər sonra davam etdirəcəyik. İndi isə bu cəhətdən ona imkan yaratmış, öz dövrünün məlumatlı ziyalısı Mirzə Bəylərdən (1827-1919) danışaq. O, Göyçənin Zod kəndindən olub, Aşıq Ələsgərlə səmimi dostluq edib; sənətini sevib. Onlar bir-birinə şeir həsr edib, bir-birini vəsf ediblər. Mirzə Bəylər şeirinin bir yerində onun haqqında yazır:

Bu Azərbaycanda türk arasında
Sənin kimi şair hanı, Ələsgər?!

Onu məşhur fars şairi Hafiz Şiraziyə bərabər sayır.

Aşıq Ələsgərsə Mirzə Bəylərin geniş şöhrətindən, səxavətindən ilhamla söhbət açırdı. Bununla birlikdə, onun zəngin savad sahibi olduğunu xüsusi tərif edirdi:

... Neçə padişahlar orda olub cəm,
İki dərviş yahu deyir dəmadəm,
Səddə İsgəndərdi, səxadə Hatəm,
Var evində xan busatı Bəylərin.

Coş edən dərya tək moc verir təbi,
Məddahi mövladı, budu səbəbi,
Firəng, rusi, farsi, türki, ərəbi –
Beş dil ilə var savadı Bəylərin...

Bizi bu şeirdə iki ifadə daha çox maraqlandırdı:

"İki dərviş yahu deyir dəmadəm..."

"Məddahi mövladı budu səbəbi."

Dərvişlər orta əsrlərdən davam edən ənənəyə görə, sufiliyi təbliğ etməklə məşğul idilər. Mirzə Bəylərin onlara ehtiram etməsi onun "məddahi mövla" olmasından (yəni Allah eşqindən) irəli gəlirdi. Dərvişlərdən sufilik xüsusunda öyrəndiyi biliklərdən, görünür, aşıq Ələsgəri agah edirdi. Yaxud aşığın özü Türkiyədən gəlmiş bu dərvişləri dinləyirdi. Buna görə onun sufiliyində Yunus Əmrəyə, Nəsimiyə yaxın cəhətlər açıq əksini tapırdı.

Yunus Əmrə dərvişlərə "batini elm" əhli kimi pərəstiş etdiklərini yazırdı:

Eşidin, ey yarənlər, evə dərvişlər gəldi,
Can şükranə verəlim, evə dərvişlər gəldi,
Hər kim gördü yüzini, endirir kəndözünü,
Elmi batindən ötər, evə dərvişlər gəldi...

Aşıq Ələsgər sufi inamını eyni zamanda aşıqlıq mədəniyyəti haqqında tövsiyələrinə tətbiq edirdi. Onun bu tövsiyələri məşhurdur; aşıqlar onu əzbərdən deyirlər. Ancaq onu sadəcə əzbərləmək üçün deyil, aşıqların fəaliyyət qaydaları baxımından sistemli canlandırıb. Aşıq Ələsgər əslində burda sufiliklə dünyəviliyi daxilən birləşdirmişdi. Buna görə bu ibrətli əxlaqi təlimin mənalarına dərindən varmaq lazımdır:

Aşıq olub tərki-vətən olanın
Əzəl başdan pür kamalı gərəkdi.
Oturub-durmaqda ədəbin bilə,
Mərifət elmində dolu gərəkdi.

"Mərifət elmi" əslində sufiliyin icad etdiyi, onun məqsədini şərtləndirən termindir. Bilik, idrak mənasını daşıyan "mərifət" kəlməsinə "elm" sözünü artırmaqla yaradılıb. Bu isə əsas niyyətinə görə özünüdərketmək haqqında elmdir. Sufilik təbiətən, insanın öz batini mahiyyətini dərk etməsi üzərində qurulan vahid sistemdir. Yunus Əmrənin bu yöndə nəsihətamiz bir şeiri ilə fikrimizi tamamlayaq:

Elm-elm bilməgdür, elm kəndin bilməgdür,
Sən kəndini bilməzsin, ya necə oqumaqdır?!

Oqumaqdan məni (məna) nə, kişi Həqqi bilməgdür,
Çün oqıdun bilməzsin, ha bir quru əməkdir.

Tövsiyələrin ikinci bəndi əvvəlcə həqiqəti təbliğ etmək nəsihəti ilə başlayır. Sufilik Allahı – ali həqiqət olaraq dərk etməyə əsaslanır. Ruhun öz mahiyyətini dərk etməsi bu məqsədə yönəlib.

Ancaq nəfs, tamah – insan varlığını mənən saxtalaşdıran bu şeytan, batini idraka əksdir. Bədənin tələblərinə uyan bu şər başlanğıca qarşı mübarizə etmək – sufinin müqəddəs vəzifəsidir. Təmiz hisslərinə hakim olmaq onu el gözündə ucaldır:

Xalqı həqiqətdən mətləb qandıra,
Şeytanı öldürə, nəfsin yandıra,
El içində pak otura, pak dura
Dalısınca xoş sədalı gərəkdi.

Burda Qurandan bir iqtibas edək: "Nəfsin insana nə vəsvəsələr verdiyini də bilirik. Çünki biz ona şah damarından daha yaxınıq." İnsanı nəfsdən, tamahdan, ötəri dünya malına güvənməkdən çəkindirmək – Qurana xas olan keyfiyyətdir. "Dünya həyatı isə aldadıcı mənfəətdən başqa bir şey deyil." (Nisa (qadın) surəsi).

Yunus Əmrənin bu xüsusda bəzi şeirlərinə müraciət edək:

"Nəfs düşmənin öldürəsin, nəfs həmişə ölmək gərək,
Var qənaət darində nəfsi boğazından as."

"Düşmən bənim nəfsimdürür, təmə (tamah) ilə hissimdürür,
Təmə ilə hissə uyan könüllərdə yer eyləməz."

Tövsiyələrin üçüncü bəndini – aşiqin "şeiri – müəmması ay nədən oldu?" sualının cavabında incələdik. Qısa cavablandırmışdıq: Sufi əslində mənanı rəmzlərlə ifadə etdiyi üçün, sözü müəmmalı olur. Həmin bəndi indi öz növbəsində gətirib, açıqlamağı bir qədər genişləndirək.

Danışanda sözün qiymətin bilə,
Kəlməsindən ləlü-gövhər süzülə,
Məcazı danışa, məcazı gülə,
Tamam sözü müəmmalı gərəkdi.

Yəni aşıq söz əhli olmalıdır; hikmətli söhbəti ilə dinləyicini düşündürməlidir. Sözün müəmmalı (düşündürücü) olması üçün rəmzlərdən, məcazlardan ustadanə istifadə etməlidir. Aşıq Ələsgər əslində bu mənada sufilikdə batini ruhu təcəssüm etdirən sözdən danışır.

Dördüncü bənddə əvvəlcə yenə aşığın söz hissinin həssas olmasını vurğulayır. Eyhamları duymaq, ondan nəticə çıxarmaq qabiliyyətini zəruri sayır. Onun utancaq, ədəbli təbiətə, davranışa malik olmasını üstün keyfiyyət olaraq tövsiyə edir. Onda səmimi, daxilən haqsevər meylin vacibliyini qeyd edirdi. Haqsevərlik meyli aşığın könül dünyasını, fəaliyyət tərzini doğru yola istiqamətləndirir:

Arif ola, eyham ilə söz qana,
Naməhrəmdən şərm eyləyə, utana,
Saat kimi meyli haqqa dolana,
Doğru yolu, doğru qəlbi gərəkdi.

Beşinci (sonuncu) bəndin məzmununda iki əsas cəhəti aydınlaşdıraq. Haqq aşiqi kimi, sufi ilahi gerçəyi isbata yetirməlidir. Yəni Allah qarşısında daşıdığı müqəddəs vəzifəni təcrübədə gerçəkləşdirməlidir: – Dünyaya qəlbin gözüylə baxıb, hər yanda vəhdətin təcəssüm etdiyini görməlidir.

Ələsgər, haqq sözün isbatın verə,
Əməlin mələklər yaza dəftərə,
Hər yanı istəsə baxanda görə,
Təriqətdə bu sevdalı gərəkdi.

Aşıq Ələsgər açıqlanan həmin tövsiyələri əslində özünün nümunəsinə uyarlı düşünüb. Aşığın ruhi keyfiyyətlərinin könül saflığı ilə birliyini nəsihətində diqqətə çarpdırıb. Ədəblilik, əfəndilik ona ehtiram oyadır, eldə mötəbər edirdi:

Yaxşı hörmətinən, təmiz adınan
Mən dolandım bu Qafqazın elini.
Pirə-ata dedim, cavana – qardaş,
Ana-bacı bildim qızı, gəlini.

Aşıq Ələsgər həqiqətən insan sərrafı idi; insanın zahiri görkəminə görə ruhi durumunu təyin edirdi. Belə bir istedad isə dərin intuisiyaya

malik olmaq demək idi. Zahirən olduqca sadə görünən bu şeirə fikir verək:

Hansı dağın maralısan,
Hayıf bizdən aralısan,
Sən də yardan yaralısan,
Duruşundan qanıram mən.

Rəssamlar portret çəkəndə duruşu canlı əks etdirməyə çalışırlar. Hegel "Ruh fəlsəfəsi"ndə bunun mənasını bu cür anladır: "İnsanın mənəvi cəhəti xüsusən duruşda özünü göstərir. Bu sonuncu, – yeri gəlmişkən deyək, qədim rəssamların diqqətini yaratdıqları surətlərdə xüsusilə cəlb edirdi, çünki onlar ruhu onun cismani ifadəsində əyani seyrin obyekti edirdilər."

Aşıq Ələsgər insanın zahiri görünüşündən batini ruhunu duymağı xüsusi bir elm sayırdı:

Ələsgərəm, hər elmdən halıyam,
Gözəl, sən dərdlisən, mən yaralıyam,
Dedi nişanlıyam, özgə malıyam,
Sındı qol-qanadım yanıma düşdü.

Həqiqətən, Şərq (eyni zamanda Qərb) tarixində belə elm mövcud olub. Nizaminin "İsgəndərnamə"sində Nuşabənin İsgəndəri qarşıladığı səhnədə bu xüsusda söylədiyi ibrətli söhbətini xatırlayaq. İsgəndər özünü hökmdar kimi deyil, onun elçisi kimi təqdim edir; beləliklə, Nuşabəni çaşdırmağa çalışır. Nuşabə ölkələrə göndərdiyi "fərasətli" rəssamların ipək parçalarda rəsm etdikləri hökmdarlardan İskəndərin surətini göstərməyi buyurur. Sonra hekayət edir: görmədiyi hökmdarların rəsmlərinə "fərasətlə" baxıb xarakterlərini "görür". Bunların sırasında İsgəndərə ədalətli xarakterinə görə üstünlük verdiyini bəyan edir. Burdan göründüyü kimi, Nizami batini ruhu duymaq qabiliyyətini "fərasət" – yəni intuisiya adlandırır.

Füzulinin bu mənada eynilə ibrətli bir fikrini səsləndirək:

Can görünməz desələr təndə inanmam, nişə kim,
Lütfdən hər necə baxsan tənینə can görünür.

Yəni insana xeyirxah daxili gözlə baxanda, tənینə yayılmış canı görərsən.

Füzulinin həmin fikri ilə Hegelin eyni mahiyyətli müddəasını yanaşı göstərək: "İnsanın gözlərində, üzündə, əzələlərində, dərisində, insanın bütün görünüşündə ruh, qəlb işıqlanır və burda məna bilavasitə gerçəklikdə olduğundan tamamilə bambaşqadır."

Göründüyü kimi, biz bu əsərdə "Aşıq Ələsgər irsində sufilik" mövzusunu ətraflı araşdırdıq. Onun bu yöndə mənəvi axtarışlarının xarakterini, müxtəlif qaynaqlarını gerçəkdən, dərin maraqla izlədik. Sufilik sistemində işlədilən terminləri, rəmzləri bir təsəvvüf əhli kimi tətbiq etdiyini gördük. Bu cəhətdən onun görüşlərini əslində sufiliyin axarında oxucuya təqdim etdik. Nəticə etibarilə onun dünyagörüşü xüsusunda təsəvvürləri əsaslı surətdə yeniləşdirən, genişləndirən sistemli tədqiqat əsəri yazdıq. Biz bu tədqiqatla Aşıq Ələsgərin ölməz ruhu qarşısında müqəddəs borcumuzu böyük istəklə yerinə yetirdik. Bu isə bizə həqiqətən batini zövq, məmnunluq bağışladı.

Aşıq Ələsgərin hikmətli şeir sənəti hər zaman öyrənilməyə, geniş təbliğ edilməyə layiqdir. Folklorçu alimlər, ustad aşıqlar onu (nəinki onu!) yeni nəsillərə həvəslə tanıtmağa borcludurlar. Aşıq Ələsgər xalqın yaddaşında yaşayacağına haqlı olaraq dərin inam bəsləyirdi:

Ələsgər dönmədi öz ilqarınnan,
Biri xilaf deyil, yüz ilqarınnan,
Sazınnan, sözünnən, düz ilqarınnan
Ellərdə söhbəti qaldı ki, qaldı.

Sonda məlum nisgilli bir nöqtəyə toxunmağa ehtiyac var: Aşıq Ələsgərin, aşıq Şəmşirin qəbirləri bu gün əsirlikdədir. Bu dahilərin narahat ruhları Göyçənin, Kəlbəcərin göylərində dolaşır; bizi onları tezliklə əsirlikdən qurtarmağa çağırır.

Musa NƏBİOĞLU
musa58@bk.ru

ZƏLİMXAN YAQUBUN YARADICILIĞINDA AŞIQ SƏNƏTİ VƏ USTAD AŞIQLAR

Zəlimxan sazla şeirin ruhunu, mayasını birləşdirən şairdir. Bu iki sənət dünyasının vəhdəti Zəlimxan şəxsiyyətində Azərbaycanı təmsil edir.

Kamal TALIBZADƏ
Akademik

Milətimi saz anladar, saz anlar,
Saza baxsın tariximi yazanlar.

- deyən Zəlimxan Yaqubun yaradıcılığında çox mühüm yer tutan bir qol da aşıq yaradıcılığına, bütövlükdə ozan-aşıq sənətinə və bu sənətin daşıyıcılarına bağlılıqdır. Bu barədə onun özü belə deyir: "Təkcə mənim dillərdə gəzən lirik şeirlərim deyil, irihəcmli əsərlərimin hamısı saz üstündə bəstələnib, havacat üstə deyilib, sonradan vərəqlərə köçürülüb".

Hələ 1978-ci ildə Xalq şairi Osman Sarıvəlli yazırdı: "Zəlimxanın şeirləri, əsasən, xalqımızın həyat, məişət ənənələrindən, onun yaradıcılığından, şeir dilindən qidalanır. Müəllifin xalq yaradıcılığına böyük məhəbbəti, dil, ifadə, ruh yaxınlığı, forma yaxınlığı folklorun, aşıq şeirinin əsla kor-koranə təqlid və təkrarı deyildir. İstedadlı gənc şairin əsərləri mövzuları, fikir və mülahizələri, arzu və diləkləri etibarilə tamamilə orijinaldır". Xalq şairi Hüseyn Arif isə belə deyib: "Zəlimxanın mayası sazla yoğrulub. Sazın bağrından qopan odu-alovu, simlərdən süzülən zümzüməni onun şeirlərində eşitmək olar. Sazla Zəlimxan baş-başa verib pıçılda-

şanda, mənə elə gəlir ki, iki şeir-sənət vurğunu bir-biri ilə dərdləşir, bir-birinin hoyuna çatır, dadına yetir".

AMEA-nın müxbir üzvü Səlahəddin Xəlilov yazır: "Zəlimxan Yaqub Dədə Şəmşirdən Dədə Qorquda doğru gedir. Gedir və geri qayıdanda artıq öz saldığı yolla – tarixlə müasirliyin vəhdəti ilə işıqlanan yeni bir yolla qayıdır".

Zəlimxan Yaqub özü isə yazır: "Mənim şeirlərimin hamısında musiqinin sehirli qanadları var. Nəğmələrim nə qədər uzağa uçur uçsun, heç vaxt yorulmaq bilmir. Müxtəlif ölkələrdə, müxtəlif qitələrdə şeirlərimi əzbər oxuyan yüzlərlə poeziya vurğunu görmüşəm. Sərhədləri aşan şeirlərim öz qırılmaz qanadları ilə gedib dünyanın o başından öz həvəskarlarını, öz oxucusunu tapır. Bu uzaq uçuşların bir hünəri şeirin gücüdürsə, bir hünəri də o şeirin canındakı saz musiqisinin gücüdür".

Bəli, Zəlimxan Yaqub şeirinin gücü, qüdrəti bir tərəfdən onun fitri istedadı ilə bağlıdırsa, digər tərəfdən saza bağlılığındadır. Təsadüfi deyil ki, Z.Yaqub "Saza Allah demədim, ancaq onu Allahı sevən kimi sevdim", mən sazdan doğulmuşam, "sarıldığım sazdı mənim", – deyir:

Əl açıb göylərə çox yalvarmışam,
Qoy bu gün saz olsun Allahım mənim.
İstəyim Tanrının xətrinə dəysə,
Gərək bağışlana günahım mənim.

13 cildlik "Əsərləri" külliyyatının birinci cildinə yazdığı geniş müqəddimədə şair özünün aşıq sənətinə bağlılığı və bunun yaradıcılığına təsiri haqda belə yazır: "Ömrümün körpəlik və uşaqlıq çağlarından böyük sənətkarların danışdığı dastanları yaddaşıma köçürməyim, mənim o dastanların qəhrəmanlarına bənzəmək həvəsim sonralar mənə o imkanı verdi ki, "Saz", "Yunus Əmrə", "Ələsgər", "Aşıq Hüseyn Saraçlı", "Əbədiyyət", "Peyğəmbər" kimi lirik-epik əsərlər, dastanlar yaratdım. Əgər vax-

tilə çox böyük təsir gücünə, dil gözəlliyinə malik olan dastanları qəlbimə, ruhuma köçürməsəydim, məndə zərrə qədər şübhə yoxdur ki, yuxarıda adını çəkdiyim əsərlərin heç biri dünyaya gəlməzdi".

Və Zəlimxan Yaqub deyir ki, "mənim şeirlərimin dili çaldığım sazın dilidir". Bu səbəbdəndir ki, onun poeziya dili "heç vaxt pəltək olmur, dolaşmır, dolaşdırmır, əllaməçilik eləmir, nə varsa, necə varsa, xalq necə yaradıbsa, o şəkildə çatdırır". Bu şeirlərin dili təmiz, duru, təbii, gözəl, aydın və səlis, rəvan və axıcıdır, elə buna görə də yaddaqalandır, seviləndir. Çünki:

Büdrəməz köhləni, yorulmaz atı,
Nağıldı, dastandı ömrü, həyatı.
Zəlimxan nə yazsa qoşma, bayatı,
Zəlimxan nə desə saz dilindədi.

Ədəbiyyat adlı böyük bir yolda ilk addımlarını atdığı gündən saza bağlanıb, "mən havacat Məcnunuyam", – deyib, saz onun "əbədi Leylisi" olub. Aşağıdakı misraları yazanda şair 23 yaşlı bir gənc idi:

Az yandırsan, dərdim azmı?
Heç bilmirəm qışmı, yazmı?
Saz aşığı tanımazmı,
Zəlimxanam, ay "Sarıtel".

Sonrakı illərdə yazdığı bir şeirdə isə, məni başqa yerdə axtarmağa gərək yoxdur, ünvanımı sazdan soruşun deyir:

Əl atmaq nə lazım kağız qələmə,
Heç kəsə demərəm yaz ünvanımı.
Kimə gərək olsa sözüm, söhbətim,
Ona göstərəcək saz ünvanımı.

Sarıldığım sazdı mənim, – deyib, sazın dili kimi dillənib, teli kimi danışıb, zili kimi yüksəlib, onu ana kimi əzizləyib, sona kimi sığallayıb. Həqiqəti, doğrusu da saz olub, məşəqqəti, ağrısı da. Bəzən Qərib olub – saz onun qürbətinə çevrilib, Məcnuna dönüb – saz həsrəti olub, Kərəm kimi yanıb – sazı hicrəti sayıb. Sazı Tanrının şah vergisi bilir, Qorqud quran bir yuvada Yunusdan qalan havanı dərk etməyənləri binəva hesab edir, "Zəlimxan sazdan doğulub", – deyir:

Çiçəklər yazdan doğulub,
Gözəllər nazdan doğulub,
Zəlimxan sazdan doğulub,
Sarıldığım sazdı mənim.
("Sarıldığım sazdı mənim")

"Qorqudam, Abbasam, Ələsgərəm mən, könlüm çalmasınmı saz havasını", – deyən Zəlimxan Yaqub sazın-sözün beşiyi olan Borçalıda dünyaya gəlib, XX əsr aşıq sənətinin nəhənglərindən olan Əmrah Gülməmmədov, Hüseyn Saraçlı, Kamandar Əfəndiyev və digər ustad aşıqların əhatəsində böyüyüb, aralarındakı yaş fərqinə baxmayraq onların hər biri ilə dostluq münasibətində olub. Şeirləri mətbuata yol açmamış bu böyük ustadların dilində eldən elə yayılıb. Z.Yaqub yazır ki: "Ozan-aşıq dünyasıyla bağlı mətləblərin çoxunu oxuduğum kitablardan daha çox Borçalı aşıq məktəbinin çox ünlü şəxsiyyətlərindən – Əmrah Gülməmmədovdan, Kamandar Əfəndiyevdən və Hüseyn Saraçlıdan öyrəndim. Onlar böyük ustadlar kimi eyni vaxtda məni Tanrının üç müqəddəsliyi ilə qovuşdurdular. Göylər aləmindən enib gələn, torpaqda ilahi ucalıq yaradıb yenidən uca göylərə qalxan səslə, sözlə və sazla tanış etdilər. Onların çaldığı havalar, oxuduğu sözlər, danışdığı dastanlar mənə elə bir xəzinə, sərvət bağışladı ki, onu dünyanın heç bir maddi xəzinəsi ilə almaq olmaz! Ömrümün ən coşqun vaxtında üç böyük ozanın taleyimə yazılması, beşiyimin başında durması mənim üçün Allahın ən böyük lütfü, hədiyyəsidir.

Onlar bütövlükdə şərqin müqəddəs üçlüyü kimi mənim varlığıma köçdü, məndə yaşamaq, məni yaşatmaq üçün".

Bakı ədəbi mühitində əhatə dairəsi daha da genişlənən, Osman Sarıvəlli, Hüseyn Arif, Süleyman Rəhimov, Xəlil Rza, Tofiq Bayram və digər böyük şair və yazıçılarla sıx ünsiyyətdə olan Zəlimxan Yaqub eyni zamanda Dədə Şəmşir, Mikayıl Azaflı, İmran Həsənov, Əkbər Cəfərov, Xanlar Məhərrəmov, Ədalət Nəsibov, Aydın Çobanoğlu və digərləri kimi ustad sənətkarlarla da tez-tez təmasda olub. Ustadlar da həmişə onu özlərinə doğma sanıb, yeri gələndə ürəklərini ona boşaldıblar. Aşıq Şəmşirə, Mikayıl Azaflıya, Hüseyn Saraçlıya, Əmrah Gülməmmədova, Aşıq Kamandara, Xanlar Məhərrəmova və digər ustadlara onlarla şeir ithaf edib.

"Könlümdə yaşadıb könül varını, sazımı eşqinlə çalmışam, ustad", – dediyi ustadlar ustadı Aşıq Ələsgərin yurdu ulu Göyçəni qarış-qarış gəzib ona həsr etdiyi "Göyçədən gələn səslər" poeması vaxtilə həm də səhnələşdirilib. "Saz", "Yunus Əmrə", "Ozan evi – saz evi" poemalarını, "Hüseyn Saraçlı dastanı"nı yazıb, Hüseyn Bozalqanlıya poema həsr edib.

Aşıq sənətinə və ustad aşıqlarımıza aid onlarla məqalənin müəllifidir, ustad aşıqlardan bir çoxunun kitabı məhz onun xeyir-duası, məsləhəti və redaktorluğu ilə işıq üzü görüb.

Zəlimxan Yaqubun aşıq sənətinə dərindən bələdliyi ilə yanaşı ustad aşıqlarla dostluq münasibəti, yaradıcılıq əlaqələri onun yaradıcılığında da öz əksini tapıb. XX əsrdə yaşayıb-yaratmış ustad sənətkarlara şeir həsr etməklə bərabər, onlar haqqında bir sıra publisistik məqalələr, xatirə yazıları yazıb.

Onun Dədə Şəmşirlə olan doğmalığı hər ikisinin yaradıcılığında da ifadə olunur, bu gün şirin bir xatirə kimi yaddaşlarda yaşamaqdadır.

"Allah Kəlbəcəri Şəmşirə, Şəmşiri də Kəlbəcərə xəncərə gümüş kimi yaraşdırmışdı", – deyən şair "Şəmşirli, Şəmsirsiz günlərim" adlı məqaləsində XX əsr Azərbaycan aşıq sənətinin inkişafında özünəməxsus yeri və rolu olan Dədə Şəmşir haqqında yazır: "Kəlbəcər və Şəmşir sözləri mənim üçün suyla torpaq kimi, közlə ocaq kimi, sözlə dodaq kimi bir-birinə yaxın və doğma sözlərdir. Çünki Allah-Təala Kəlbəcəri xəlq edəndən bu günə kimi Kəlbəcər heç bir aşığın, şairin, ziyalının dilində Aşıq Şəmşirin dilində olan qədər poetik yüksəkliyə, mənəvi ucalığa qalxıb, poeziyanın mənəvi sərvətinə çevrilməyib".

Bir bağın var, bayatılı, qoşmalı,
Xəzan görməz, talan olmaz, ay ustad.
Götürəndə Ələsgərin sazını,
Çaldığın tək çalan olmaz, ay ustad.

– deyə müraciət edib bu böyük ustada. Yeni şeir yazanlara üzünü tutaraq deyib ki, çox da öz döşünə döymə, "yeri, öz borcunu ödə Şəmşirə".

Aşıq Ələsgərdən sonra sözün-söhbətin naxışının, xalının getməsindən narahatlığın ifadəsi kimi, böyük ustada "Dədələr azalır, ay Dədə Şəmşir", – deyə xitab edəndə, ustad da ona belə cavab verib:

Fikir ver Şəmşirin çəkdiyi aha,
Söz ağır getməsin qadir Allaha.
Vurğunu çağırmaq çətindir daha,
Qövr edir sinəmdə yara, Zəlimxan.

XX əsr Azərbaycan aşıq sənətinin görkəmli nümayəndələrindən olan Mikayıl Azaflını "sənət dağlarının qoca qartalı", "Füzulinin "Şikayətnamə"sindən sonra ən böyük şikayətnamələr müəllifi", "həqiqət carcısı", "həsrət-hicran nəğməkarı", "dərd dağı, qəm dəryası", "xalqın dərd daşı-

yan qocası” olan Haqq aşığı adlandıran Z.Yaqub “Azaflı çinarı” adlı məqaləsində yazır:

“Mikayıl Azaflı sənəti, onun şəxsiyyəti və şəxsi keyfiyyətləri öyrənilməyə və öyrədilməyə layiq olan bir məktəbdir. O məktəbin şagirdi, tələbəsi nə qədər çox olsa, bir o qədər xalqın, millətin, sənətin, ruhun, yaddaşın və gələcəyin xeyrinədir”.

Aşıq Əkbər Cəfərovun sənətinə məhəbbətini, səsinə vurğunluğunu, şəxsiyyətinə hörmətini belə ifadə edir:

Əkbər əmi, ucalsa da göylərə,
Səsin, yerə məhəbbətin səsidir.
Oxuyursan, bulaq düşür yadıma,
Bu zümzümə təbiətin səsidir.

Çiçək kimi qoxladıqca ətrini,
Zəlimxan da əziz tutur xətrini.
Ellər bilir qiymətini, qədrini,
Bu qəhqəhə o qiymətin səsidir.

Dövrümüzün böyük ustadlarından olan əvəzedilməz sənətkar, “zili, bəmi bir-birindən təzə-tər” olan Ədalət Nəsibov sənətinə vurğunluğunu “Ədaləti dinlədim” adlı şeirində tərənnüm edir

Aşıq Xanlar Məhərrəmova da şeirlər ithaf edən Z.Yaqub onun haqqında “Göynərtili xatirə” və “Onun yaşadığı ömür” adlı məqalələr də yazıb və haqlı olaraq deyir ki: “Aşıq Əmrah və Aşıq Ədalət kimi saz tanrılarından sonra o yüksəkliyə ucalmaq, özünəməxsus yol seçmək, seçilmək, əzizlənmək, xalq sevgisi, el məhəbbəti qazanmaq hər oğulun yox, ər oğulun işidir. Bu misilsiz işi Xanlar bacardı, özü də yaxşı bacardı”.

O, deyir ki, “Xanların üçcə havasına qulaq asmaq kifayət idi ki, dumduru durulub dağ çeşməsinə dönəsən”. Xanlar iddialı adam deyildi, dünya malında gözü yox idi, özünün və sözünün yerini bilirdi. Sazını da, sözünü də urvatdan salmaz, baha satardı.

“Havacatdan zəri, saz adlı səngəri, dağ kimi ləngəri olan” aşıq Xanlar Məhərrəmovun ölüm xəbəri şairi sarsıdır, qəlbini göynədir:

Həyat yalan, ölüm doğru,
Zəlimxanın yandı bağrı.
Canımdakı nisgil, ağrı,
Saçımdakı dən Xanlarım.
Şimşək vuran, sel aparan,
Əlimdən gedən Xanlarım.

Özünü "aşıqlı, şairli, ağbirçəkli, sərkərdəli, ozanlı, dədəli Borçalı dünyasının" bir parçası sayan Xalq şairi sazın müqəddəs beşiklərindən olan Borçalı aşıqları haqqında belə deyir: "Borçalı aşıqları ifadəsi mənim üçün həyat sözü, tale sözü, Tanrı sözü, ozan sözü qədər əziz, şirin və müqəddəsdir".

Və yazır: "Bəxtim onda gətirib ki, üç böyük sənətkarın – Aşıq Əmrahın, Aşıq Kamandarın və Aşıq Hüseyn Saraçlının tərlan kimi qıy vuran vaxtı mənim dəliqanlı gənclik illərimə təsadüf edib. Onların üçünün də balını arı çiçəkdən şirə çəkən kimi çəkmişəm".

Sənətdə ilk addımlarını Borçalıda atıb sonradan bütün Türk dünyasının ünlü sənətkarlarına çevrilən bu və digər ustadlar haqqında sillsilə şeirlər, dastan və məqalələr yazıb.

Onlardan XX əsr Azərbaycan aşıq sənətinin çox böyük simalarından olan Əmrah Gülməmmədovdan danışanda deyir ki, Əmrah əsrlərdən gələn səs, "tel gücünü sel gücünə döndərən" sənətkardır, yerin yeddi qatından şirə çəkib mayalanan kökümüzdür. Əmrahın hər barmağının bir cür xalı varıydı, hər xalında bir Borçalı varıydı: "Özünün saz dünyası ilə havalara yenilik gətirən, Azərbaycan tarixində ilk dəfə olaraq sazı püxtələşdirən, kamilləşdirən, on bir telli saz şəklinə salan, onu Tanrı dərgahına qaldıran şəksiz və şəriksiz, müdaxiləsiz və müdafiəsiz, tərəddüdsüz Aşıq Əmrah Gülməmmədov olub".

Əmrah kimi ölməzlərin önündə "gəlib dizə çökənləri" də görən şair onu yurdun dədələşən övladı adlandırır, "Əmrah ömrü ömürlərə paylanan bir danılmaz həqiqətin ömrüdür", onun ayrılığı dağdan ağır yükümüzdür, "onun səsi qulağımda qalmasa, mənim səsim yer üzünə yayılmaz", – deyir, mən aşığam deyib, sənətdən xəbərsiz naşılara məsləhət görür ki:

Əlli il taxtaya, simə döyüncə,
Bircə gün sazını çal Əmrah kimi.

Şair deyir ki, Dədə Qorqud zirvəsiylə tən duran aşıq Əmrah zirvəsi elə bir zirvədir ki, çox boylara öz boyundan boy verəcək. Onun sənətini Haqqın vergizi adlandırır:

Min ömür uzadıb, ömür üzməyib,
Yersiz oynamayıb, yersiz süzməyib.
Usta bağlamayıb, zərgər düzməyib,
Sənə Haqdan gəlib saz, Əmrah dayı.

("Əmrah dayı")

Çox ustadlar görən Zəlimxan Yaqub deyir ki, Aşıq Əmrah pərdə-pərdə, xana-xana ruha hopdu, qana keçdi, yana-yana ocaq oldu, təbi daşqın Araz oldu, telli sazın meydanında şir gəldi, şir getdi, pir gəldi, pir getdi, bir gəldi, bir getdi:

Başımıza gəldi nələr,
Ay Zəlimxan, qaldıq mələr.
Açıldı çox möcüzələr,
Əmrah sirr gəldi, sirr getdi.
("Aşıq Əmrah")

Hüseyn Saraçlıdan bəhs edəndə Zəlimxan Yaqub deyir ki, "O, mənim Şəmsim oldu, mən onun Mövlanası". Həyatının mənası "ozan ömrü, saz ömrü" olan, sazdan yaranıb, sözdən doğulan, sazının laylasında neçə aşıq, könüllərdə sənət adlı sönməz işıq böyüdən Hüseyn Saraçlı yurd-mahal aşığıydı, "millətimin dili bal aşığıydı", meydanda Koroğluydu, Rüstəm-Zalıydı.

Hüseyn Saraçlıya dastan da həsr edən Z.Yaqub məqalələrinin birində bu böyük ustad haqda belə yazır: "Aşıq Hüseyn Saraçlını Allah əsl ozan kimi yaratmışdı. Ona baxanda elə bilirdin Yunus Əmrə də budur, Dadaloğlu da budur, Aşıq Veysəl də budur, Xəstə Qasım da budur. Yerişi, duruşu, gəzişi, danışığı, əlini bığına çəkməsi, nəmli dəsmalla aradabir alnının tərini silməsi – hamısı o qədər ölçülü-biçili, nizamlı, səliqəli, insanı heyrətə gətirən bir gözəllik mücəssəməsi idi".

Hüseyn Saraçlının ölümündən təsirlənən şair yazır:

Yüz dəfə çək, yersiz ahdan nə çıxar,
Qəlbi yasda saxlamaqdan nə çıxar.
Ay Zəlimxan, ağlamaqdan nə çıxar,
Az sızılda, az inildə, az ağla!
Saraçlının taleyindən əsər yaz,
Saraçlının dastanını yaz, ağla!

Şeirlərindən da göründüyü kimi, 1987-ci ilin baharında Borçalıda XX əsr Azərbaycan aşıq sənətinin iki ünlü simasının – Əmrah Gülməmmədov və Hüseyn Saraçlının dünyasını dəyişməsi onu təsirləndirir, "sözü ürəkdə, sazı köynəkdə" qalan "bir mahalın mahal boyda dərdi var", – deyir. Haqlı olaraq deyir ki, analar bir də Xan Əmrahı doğmaz, Saraçlını zaman bir də yetirməz, bu ustadların həyatdan köçməsi bütövlükdə Azərbaycanın itkisi olsa da, onların varlığından sazın ömrü qazandı:

Nə qazandı sazın ömrü qazandı,
Nə itirdi, Azərbaycan itirdi.

Bu iki böyük ustadın dünyasını dəyişməsindən hədsiz təsirlənən, qəlbi göynəyən, Əmrah Gülməmmədovun ölüm günü yazdığı şeirdə "Aman ellər, xan Əmrahı itirdik, sənət mülkü Kamandarsız qalmasın", – deyən Zəlimxan Yaqub Aşıq Kamandar Əfəndiyevlə də sıx dostluq münasibətində olub, onun sənətini hər zaman yüksək dəyərləndirib:

Ruhunla Qorqudtək qocalardasan,
Ahınla tüstülü bacalardasan.
Bəndə dərgahından ucalardasan,
Tanrı dərgahını haxla, Kamandar.

Aşıq Kamandar sənətini ovsun, tilsim, sehir, cazibə, cazibədarlıq dünyası adlandıran Z.Yaqub yazır: "Aşıq Kamandar təzənəni tellərə yox, ürəklərə çəkirdi. Aşıq Kamandarın səsi boğazdan yox, ürəkdən gəlirdi. Aşıq Kamandar dərsini kitablardan yox, qırxlar pirindən, ələst aləmindən, ərənlər məclisindən almışdı. Boyu-buxunu da, yerişi-duruşu da, durumu-qırımı da, səs diapazonunun genişliyi də, nəfəs mənzilinin uzaqlığı da, avazı-laylası da, on bir telli, uzunqollu, gen sinəli tavar sazı da bəndənin yox, Allahın əsəridi.

...Kamandarın ömrü sazın, saz üstündə köklənən sözün ömrüdür. Qurbanidən Dədə Şəmşirə və bu günə qədər gələn ozan-aşıq dünyasında olan böyük sənətkarların hamısının birgə yaşadıqları ömürdür".

Məqalələrinin birində şair yazır: "Saz mənim üçün Türk ruhunun şəksiz və şəriksiz, tək və müqəddəs alətidir. Saz mənim üçün ana laylası, beşikdən məzara qədər ömür yolunda yol yoldaşım, könül sirdaşım, həyatım, varlığımdır".

Sazın "ruhundan qopan", sazın "ruhuna hopan", sazı "özündə tapan", özünün təbirincə desək, dili söz tutub, ağlı kəsəndən Ələsgər çağırırb, Ələsgər deyən, "el məclisi görməsə, şair könlü saz olmaz", "sənsiz mənim bir məclisim, bir şənliyim olarmı heç", – deyən şairin qəlbi kövrələndə, tənha qalanda həmişə ümid yeri, pənahı saz olub, dərd-ələm üstünə yeriyəndə "Cəngi", "Misri" onun silahına çevrilib, özü "havacat Məcnunu", saz isə əbədi Leylisi olub, varlığını sazda görüb, sazın gücünə, sehrinə inanıb, ona güvənib:

Sən varsan, həyatda mən varam demək,
Səsimi hər yana yetir, ay sazım.

Saz adlı, sənət adlı bir yola könül verən Zəlimxan Yaqub deyir ki, bu yol məni duru və diri saxladı, "baxışımda haqq odunu, qəlbimdə nuru saxladı". Bəli, bu yol onun gözünü yaşdan, yazını qışdan qoruyub, külündə qoru saxlayıb:

Haqdan, nahaqdan ölmüşdüm,
Qılıncdan, oxdan ölmüşdüm.
Vallah, mən çoxdan ölmüşdüm,
Saz məni diri saxladı.
("Saxladı")

Bəşəri qanunlardan fərqli olaraq sazın müqəddəs qanunları dəyişməzdir. Saz duyanları uca göylərə qaldırır, duyğusuzlara divan eyləyir, insana öz ilkini, kökünü, tarixini tanıdır.

Ədəbiyyatşünas alim Azər Turan yazır: "Eiraf etməliyik ki, Azərbaycanda muğamın dərki müstəvisində ədəbiyyatın timsalında Bəxtiyar Vahabzadənin "Muğam" poeması hansı işi görübsə, Zəlimxan Yaqubun "Saz" poeması da saz havalarının dərki müstəvisində eyni işi görüb".

"El havası" – "Qaraçı"yla ellərimizi gəzib dolanan, "Sarıtel" çalınanda Qul Abbası, Xəstə Qasımı xatırlayan, "Mansırı" nakam aşiqlərin sorağı, könülləri göynədən qəmli bir dastanın varağıdır deyən, "Divani"ni dənizə bənzədən şair "Təcnis" söz meydanında sınaqdı, imtahandı – cinas yarışıdı, söz imtahanıdı deyir. "Yanıq Kərəmi"dən söz açanda deyir ki, Kərəmi yandıran təkcə keşiş deyil, həm də dağılan, bölünən torpağımızdı, Vətənimizdi. "Ənəlhəq" deyən Nəsiminin dərisi soyulanda, Babəkin qolları kəsiləndə "ağrıdan göynədi tellərin səsi":

Məni dilləndirmək Dədə Qorqudun,
Yandırmaq Kərəmin bəxtinə düşdü!

"Dübeyti" havasından söz açanda şair deyir ki, bu hava "bir az dərddi, bir az dəva", bu, dağılan yurddu, uçan yuvadı, nisgil, ağrı, həsrət, qərib, qürbət havasıdı. Havaların sultanı "Ruhani" çalınanda isə saz ürəkləri kitab kimi varaqlayır."Dilqəmi" elin dərdidi, elin qəmidi. Ocaqdan, alovdan, qılıncdan yaranan, ildırımdan od alan "Misri" mənim özümə sığmazlığım, döyüşüm, mübarizəmdir, bu dünyaya alovlu gəlib, ər kimi yaşamağım, kişi kimi ölməyimdir deyir:

"Misri" mənim nəyimdir?
Kamalda bitkinliyim,
Sınaqlarda dözümüm,
Döyüşdə yetkinliyim!
Mən onu çala-çala,
Qeyrətimi qorudum,
Mərdliyimi yaşatdım!
İnadımı qorudum,
Sərtliyimi yaşatdım!

Sənətdə varisliyə böyük əhəmiyyət verən şair deyir ki, dünəni, keçmişi bilməyən aşıq sabaha üzüağ gedə bilməz. Dədə Şəmşir, Mikayıl Azaflı, İmran Həsənov, Əkbər Cəfərov, Əmrah Gülməmmədov, Hüseyn Saraçlı, Kamandar Əfəndiyev, Ədalət Nəsibov, Aydın Çobanoğlu, Xanlar Məhərrəmov və digərləri kimi böyük ustadlarla daim sıx ünsiyyətdə olub onların ifalarını dinləməkdən doymayan Zəlimxan Yaqub aşıqlara qarşı olduqca tələbkardır:

Zəlimxan sevəndi kamil ustadı,
Kamil ki, deyilsən, batırma adı.
Yoxdu sözlərinin ləzzəti, dadı,
Gözünə qatmağa duz qəhətdimi?
("Qəhətdimi")

"Hər pərdənin ahəngində bir ölümsüz halallıq" olan, telləri susmaq nədir, lallıq nədir bilməyən, "yerli-yersiz zərbələrə tuş gəlsə də", heç zaman sınmayan saza biganə olanlara, onu bəyənməyənlərə "sən mənim sazımla oynama, bala" – deyərək özünəməxsus qətiyyət və inamla cavab verir:

Çör-çöp deyil küləklərə yem ola,
Yerin-göyün görkəmidi, görküdü,
Təbiətin sevgisidi, ərkidi.
Yaxşılığa dəvətidi dünyanın,
Yamanlığın birdəfəlik tərkidi.
Dodağında Türk adlanan millətin
Şirin səsdi, xoş avazdı, türküdü.
Bəndəsindən Allahına yol gedər,
Yaranmışın yaradanı dərkidi,
Mənim sazım sındırılan saz deyil.
("Mənim sazım sındırılan saz deyil")

X.B.BƏŞİRLİ
AMEA N.Gəncəvi adına
Ədəbiyyat Muzeyi,
Filologiya elmləri doktoru,
bashirli58@mail.ru

ƏDƏBİ QAYNAQLAR

XX əsrin əvvəllərində nəşr edilmiş aşıq kitablarına dair

Açar sözlər: aşıq sənəti, əski çap kitabları, muzey fondu, klassik irs, deyişmə.

2014-cü ilin payızında Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin yaradılmasının 75 illiyi tamam olur. 1939-cu ildə dahi şair, filosof Nizaminin anadan olmasının 800 illiyinə həsr olunmuş ev-muzeyinin təsis edilməsi və daimi sərgi şəklində təşkili haqqında Azərbaycan SSR Xalq Komissarları Soveti Sərəncam verir. Muzeyin, Bakının simvollarından birinə çevrilən və şəhərin ən unikal arxitekturalı abidələrindən sayılan – inqilabdan əvvəlki "Metropol" mehmanxanasının binasında yaradılması qərara alınır.

Fiziki yaşı, günümüzdə bir insan ömrünə bərabər olan elm və sənət məbədi, gerçəkdə üç min, beş min illərin, eraların mənəvi-ruhani-mədəni hadisələrini, tarixi-ədəbi şəxsiyyətlərini, maddi abidələrini özündə yaşatmaqla, sərgiləməklə ən qədim dövrlərdən çağımıza qədərki Azərbaycan ədəbiyyatını, mədəniyyətini nəsildən-nəslə ötürür. Xalqımıza məxsus irsi toplamaq, mühafizə etmək, ən müxtəlif dillərdə təbliğatı ilə məşğul olmaq, elmi baxımdan araşdırmaq, kitab, kataloq, buklet halına salıb dünyaya yaymaq, tanıtdırmaq Muzey işinin şah damarıdır.

Nizami muzeyində "Mədəni irs və mənbəşünaslıq" şöbəsi birbaşa ədəbiyyatla, mədəniyyətlə bağlı mirası toplayıb mühafizə etməklə məşğuldur. Şöbə bir neçə fondu özündə birləşdirir: Yazıçı və şairlərin Əlyazmaları, Xatirə əşyalar, Əski çap kitabları, Arxeologiya, İncəsənət əsərləri, Xalçalar, Orijinal foto və s. Fondlar öz unikallığı, qədimliyi, bir çox halda orijinallığı ilə fərqlənir.

Muzeyin ekspozisiya və fondları zəngindir, burada nələri görməzsiniz?! Nizami Gəncəvinin məzarından tapılmış ipək parça, klassiklərin sonrakı əsrlərdə üzü çıxarılmış əlyazmaları, divanları, XVIII əsr Qarabağ xanlığının Dövlət fərmanlarının orijinal nüsxələri, Qarabağ xanı Pənah xana məxsus hesab edilən, üzərində Quran ayələri yazıldığından

gülləkeçirməz sayılan çox qiymətli "Qələmkar köynək", Şamaxı, Pirsaat çayı boyundan gətirilmiş xanəgah, bu abidə firuzə kaşı, digər qiymətli daşlardan müsəlman Şərqinin arxitekturası əsasında hazırlanmışdır.

Xan qızı Natəvan, M.F.Axundzadə, həyat yoldaşı Tubu xanım, C.Məmmədquluzadə, Həmidə xanım, Ə.Haqverdiyev, N.Nərimanov, Ü.Hacıbəyli, S.Vurğun və b. məxsus xatirə əşyaları, əlyazmaları, fotolar ekspozisiyanın ən dəyərli incilərindəndir. Muzey hər zaman yeni-yeni xatirə əşyaları, dəyərli tarixi eksponatlarla daima zənginləşir. Məs. Ümummilli Lider Heydər Əliyevin Paris yaxınlığında Sen-Klu məzarlığında dəfn edilən ADR hökümətinin yaradıcılarından biri, onun Xarici İşlər Naziri olmuş Əlimərdan bəy Topçubaşovun qəbrini ziyarət etməsi fotoları və prezident İlham Əliyevin qərarı ilə M.Topçubaşovun köhnə qəbir daşı yenilənmiş, əvvəlki baş daşı isə ölkə başçısının qərarı ilə Azərbaycana gətirilmiş, muzeyin direktoru, millət vəkili, akademik Rafael Hüseynovun təşəbbüsü ilə Nizami Muzeyinin eksponatına çevrilməklə nümayiş olunmaqdadır. Bu nəcib iş ədəbi-elmi ictimaiyyətin dərin marağına, minnətdarlığına səbəb olur.

Əlbəttə, muzeyin dəyərli, tarixi, baxımlı eksponatları haqqında yazmaq bir ayrı mövzudur, biz isə bu yazıda fondun "Əski çap kitabları" bölməsində qorunan aşıq sənəti, el şairləri, ayrı-ayrı aşıqların əsərləri toplanmış kitablardan bəhs edəcəyik. XX əsrin əvvəlləri, 30-cu illər də daxil olmaqla Bakıda nəşr olunmuş aşıqlardan bəhs olunan mənbələri təqdim etməyə ehtiyac duyduq. Bu mənbələr elmi ictimaiyyətə, uyğun ixtisas sahiblərinə tanışdır, lakin geniş ədəbi ictimaiyyət, aşıq sənəti ilə bu və ya başqa şəkildə maraqlanan, onu yeni-yeni öyrənməyə, araşdırmağa başlayanlar üçün vacib göstərici ola bilər. "Aşıqlar", "Azərbaycan aşıqları", "Aşıq qoşmaları", "Azərbaycan xalq ədəbiyyatı" seriyasından "El şairləri" və ayrı-ayrı aşıqlara həsr edilmiş kitablar da həmin dövrdə işıq üzü görmüşdür: "Aşıq Pəri", "Aşıq Qərib", "Aşıq Ələsgər", "Aşıq Hüseyn Bozalqanlı", "Aşıq Alı" və b.

Bu sırada böyük folklorşünas, Azərbaycan xalq ədəbiyyatı nümunələrinin yorulmaz toplayıcısı, onların tərtib olunub çapına ömür sərf etmiş fədakar alim Hümmət Əlizadənin xidmətləri, topladığı nümuələr əsasında çap olunmuş kitablar ön sıradadır. Onun tərtibçisi olduğu "El ədəbiyyatı nümunələri" başlığı altında çap olunmuş, iki hissədən ibarət "Azərbaycan aşıqları" kitabı hər yönü ilə dəyərlidir.

Cildlər 1930-cu ildə Bakıda "Azərnəşr"də nəşr edilib. Deməli, kitabın yaşı hazırda 84-dür. Ancaq fondumuzda aşıq sənəti ilə bağlı "ən yaşlı kitab" 1911-ci ildə Bakıda dərc edilmiş "Gözəl-Namə"dir, həm də bu, kitabın təkrar II nəşridir.

"Gözəl-Namə" təbii ki, ərəb qrafikalı əski Azərbaycan əlifbasındadır. Şeirlər gözəlləmə, nəsihətnamə başlığı altında toplanmışdır. Mündəricatda Xəstə Qasımla bağlı materiallar diqqəti çəkir. Kitabda Xəstə Qasımın Ləzgi Əhmədlə deyişməsi (s.29-33) və başına gələn baməzə əhvalatlar nəql edilir. Əhvalatda göstərilir ki, Xəstə Qasım bir gün dəllək dükanına gəlir və ustaya deyir ki, üzümü qırx. Dəllək də işinə başlayır. Sən demə, ülgücün başı küt imiş, aşığın üzünü bir neçə yerdən yaralayır... Xəstə Qasım dəlləyin qolundan tutub soruşur:

– Ay usta, sizin yerdə üzü qırxanda nə verirlər? Usta cavab verir ki, şeir.

Aşıq başlayır şeir deməyə:

Gəldim bir usta dükanına,
Bir usta var, zul çıxardır.
Elə ki, tutar başımın tükündən,
Arpa kimi gül çıxardır.
***
Ülgücünün ağzı pasdadır,
Hələ bir gözü tasdadır.
Gör necə yaxşı ustadır,
Dağıstanə yol çıxardır.
***
Xəstə Qasımın başından,
Aləm gülər havasından.
Ülgüclərin suvaşından
Hər kəs olsa, pul çıxardır.

Ani baxışdan da görünür ki, şeir parçasında qafiyə pozulub, dil, üslub daha çox dialektə əsaslanıb. Biz həm də şeirin imlasına ona görə toxunmadıq ki, aşıq şeir dilini araşdıran tədqiqatçılara, dövrün dilini öyrənməkdə də vasitə ola bilər.

Adıçəkilən kitabda (1911-ci il nəşri) Xəstə Qasımla Ləzgi Əhmədin üz-üzə gəlməsi, eyni rədif üstündə şeirləşmələri də diqqəti çəkir.

Ləzgi Əhməd:

O nədir ki, üzü var, səri yox?
O nədir ki, ildə doğar, əri yox?
O nədir ki, qanadı var, pəri yox?
O nədir ki, qanadında xalı var.

Xəstə Qasım:

Soğulcandır: üzü var, səri yox,
O ağacdır, ildə doğar, əri yox.
Yarasadır, qanadı var, pəri yox,
Kəpənəkdir, qanadında xalı var...

1927-ci ildə "Azərbaycanı Öyrənən Cəmiyyət" "El aşıqları" adlı nadir kitablardan birini Bakıda çap etdirir. Kitabdakı materialları Azərbaycan folklorunun toplanması, təbliği, çap olunmasında xüsusi xidmətləri olan folklorçu Vəli Xuluflu toplayıb. Burada əsasən Aşıq Hüseyn, Hidayət (bəzən Mirzə Hidayət və ya Hidayət bəy kimi də təqdim edilir – X.B.), Dədə Yediyar, Qurbani haqqında o dövr üçün əldə olunan qısa xülasələr və şeirlərindən nümunələr verilmişdir. Əsərləri ilk dəfə təqdim edilən aşığın adını dürüst oxuya bilmədik, bəlli oldu ki, qonşu xalqa məxsus aşıq olub. Onun "Erməni-müsəlman davası", "Osmanlı torpağı" adlı şeirləri erməni-türk, erməni-azərbaycanlı tarixi olayları məcrasında bu gün aktual ola bilər və yüz il öncə bir qonşu aşığının "düşüncələri" maraq doğurmaya bilməz. Məslən, müəllif "Osmanlı torpağı" şeirində Osmanlıdakı ermənilərdən danışır, onların çox fərqli olub Azərbaycandakı ermənilərə bənzəmədiyini söyləyir və s. və i... Bəli, bir tarixçi, siyasətçi üçün tanış olmağa dəyər...

"El aşıqları"nda Vəli Xuluflu Aşıq Hüseynə geniş yer ayırmışdır: aşığın bioqrafiyası xatırlanır, Gəncə qəzasının Qapanlı kəndindən olması, XIX əsrin sonlarınacan ömür sürməsi, özündən sonra oğlunun aşıqlıq edib, dövrünün sayılıb-seçilən sənətkarı kimi tanınmasını qeyd edir. V.Xuluflu öz dövründə Reyhan adlı aşığın şöhrətindən bəhs edir, onun Aşıq Hüseynlə deyişməsini xatırladır (s.74-75). Reyhan Naxçıvanlıdır, keşiş qızıdır, şakəri aşıqlarla deyişib, onları bağlamaq imiş. Elə olur ki, Aşıq Hüseynin şagirdi Şəhrini də bir məclisdə məğlub edir – bağlayır. Naxçıvanlı Kalvalı xana məktub yazıb Şəmkirli aşıq Hüseyni köməyə çağırtdırırlar ki, onları Reyhanın "əsirliyindən" xilas etsin. "Reyhan-Aşıq Hüseyn" deyişməsindən kiçik bir örnəyi diqqətinizə yetirək:

Reyhan:

Kim oldu hündür, kim oldu alçaq,
Çoxların salmışam meydandan qaçaq.
Yoxdur məni tək bir qəndi qoçaq,
Gəldiyi yolları azarlar bir-bir.

Hüseyn:

Sona kimi sığal verib telinə,
Qənd-şəkər əzilibdir dilinə.
Düşməyibsən məntək arif əlinə,
Çəkdirəyim səni cazana bir-bir.

"El aşıqları" kitabında Aşıq Hüseynin "Bek çoban" adlı aşıqla da deyişməsi, Qurbaninin həyat və yaradıcılığından məlumat verilməklə bahəm, onun Dədə Yediyarla şeirləşməsi də diqqətə çatdırılır. Bir faktı da nəzərə çatdırım ki, "El aşıqları"nda aşıqların üz-üzə gəlməsi, sual-cavablaşması "deyişmə", həm də "şeirləşmə" adı ilə təqdim edilir. Aşıq Hüseyn-Dəmirçi, Aşıq Hüseyn-Heydər, Aşıq Hüseyn-Qara, Aşıq Hüseyn-Xasay şeir yarışları-qarşılaşmaları, "şeirləşmə", Aşıq Hüseyn-Reyhan, Aşıq Hüseyn Bekçoban qabaqlaşması "Deyişmə" kimi verilir.

Folklorçu Vəli Xuluflunun tərtib etdiyi kitabda şair Hidayət bəzən Mirzə Hidayət, bəzən də Hidayət bəy şəklində oxuculara tanıdılır, onun həyatı haqqında əldə olan cüzi bilgi və "Evlənmək" şeiri təqdim edilir. Şair Hidayətin "Hürafat" şeiri yazı texnikasına görə seçilir, yəni şeirdə hər misra əlifba sırasına uyğun müvafiq hərflə başlayır, müəllifin "Ərz", "Huruf ədədi", "Dodaqdəyməz" və s. şeirləri də məzmun və formasına görə seçilir. Şairin "Qıj-qıj" rədifli beş bəndlik dodaqdəyməzindən kiçicik bir örnək:

Sataşanda eynin yarın eyninə,
Allanarsan hərcayinin dininə.
Atlaz, xara yar əyninə geyinə,
Edər xalqa nazı haraya qıj-qıj.

Aşıq ədəbiyyatı, sənəti ilə bağlı sizi tanış etmək istədiyimiz əsərlər sırasında 1928-ci ildə Bakıda, "Azərnəşr"də çap olunmuş "Ədəbiyyat dərsləri" adlı kitab həm adı ilə, həm də mündəricatı ilə maraq doğurur. Öz dövrünün ədəbi-bədii-təhsil sistemini, ruhunu, ovqatını öyrənmək yönündən tədqiqatçılar üçün mənbə də ola bilər. Öncədən qeyd edim ki, iki fərqli kitab bir cilddə – "Ədəbiyyat dərsləri"ndə birləşmişdir: I kitab Aşıq Pəri, II kitab "Ədəbiyyat dərsləri" adlanır.

Cildin "Aşıq Pəri" hissəsi 120 səhifəyə yaxındır. Aşıq Pərinin həyatı, yaradıcılığı, yaradıcılığından örnəklər, aşığın Mirzəcanla yazışmaları, şeirləşmələri, eyni zamanda Mirzəcan haqqında da əldə olan biliklər və yaradıcılığından parçalar mündəricatda ayrı-ayrı başlıqlarda yer almışdır.

Bu hissədə oxucular, Aşıq Pərinin Cəfərqulu Ağa Nəva ilə deyişməsi və Cəfərqulu Ağa Nəvanın ömür tarixçəsindən bəzi səhifələrilə də tanış ola bilərlər. Aşıq Pərinin Arif, Cəfər xan, Məhəmməd bəy Aşiq, Mir Həsənlə də maraqlı sənət deyişmələri, yarışmaları kitabı daha dəyərli etmişdir. Yeri gəlmişkən qeyd etməliyəm ki, Aşıq Pərinin tərəf-müqabili Cəfərqulu Ağa Nəva kitabın müxtəlif səhifələrində bəzən Cəfərqulu xan Nəva kimi də təqdim edilir. "Ədəbiyyat dərsləri"nin I hissəsinin ən qiymətli, maraqlı cəhəti Aşıq Pərinin dövrünün tanınmış ustad aşıqları ilə deyişməsi, şeirləşməsi, məktublaması, ən azından onları tanıyıb şeir ithaf etməsi məqamıdır. Şərq mühitində – Azərbaycan gerçəkliyində bir xanımın bu miqyasda ziyalılığı, savadı, təhsili, azadəliyi, hazırcavablığı yalnız və yalnız qürur hissi doğurur.

Kitabın II hissəsi dərslik kimi nəzərdə tutularaq hazırlanmışdır. Bu hissəni hətta müntəxabat da adlandırmaq tam mümkündür. Şifahi xalq ədəbiyyatı, klassik ədəbiyyat, orta əsrlər və XVIII-XIX, XX əsrin əvvəlləri də daxil olmaqla yazılı, şifahi ədəbi nümunələr, onların müəllifləri haqqında ensiklopedik bilgilər müəyyən sisemlə qruplaşdırılmışdır. Dərsliyin maraqlı tərtibatı, yəni kitabdan istifadə qaydaları və müəllimlərə metodik izahatın verilməsi bu gün üçün də gərəkli və keçərli ola bilər. Müntəxabata milli ədəbi nümunələr, müəlliflərlə yanaşı, türk, rus, dünya ədəbiyyatından da nümunələr daxil edilmişdir. Toxunduğumuz mövzu açışından bu hissədə diqqətimizi əlbəttə ki, Ağız ədəbiyyatı (s.32-133), "Bağlama və deyişmələr" (s.135), "Xəstə Qasım-Ləzgi Əhmədin deyişməsi" (s.136), bayatı (s.139), Ağı (s.140), Dağ və Aranın deyişməsi (s.142-143), dastalar (s.144), "Koroğlu" dastanı (s.145) və s. bu qəbildən başlıqlar cəlb etdi. Bu günkü araşdırmacılar folklorşünaslar üçün, təbii ki, 1928-ci ildə çap olunmuş materialların dəyəri tarixi baxımdan əvəzsizdir.

Təqdim etdiyimiz digər nəşrlərdə olduğu kimi, bu kitabda da aşıq sənətində geniş yayılmış bağlama, deyişmə, şeirləşmə nümunələrinə geniş meydan verilmişdir. Bir məqamı vurğulamaq vacibdir ki, XX əsrin əvvəllərində xalq ədəbiyyatı ilə bağlı nəşrlərin demək olar ki, əksəriyyətində hətta Nizami Muzeyinin fondundakı kitablar əsasında bu mülahizəni söyləmək mümkündür. Xəstə Qasımla Ləzgi Əhmədin deyişməsi, sənət meydanında üz-üzə gəlməsi əhvalatı xatırlanır. Təbii ki, bu göstəri Xəstə Qasımın haqq aşığı olmasını, istedadının qüdrətinin, şöhrətinin solmazlığından irəli gəlirdisə, digər tərəfdən həmin hadisənin gerçək olması, yaddaşlarda yaşaması, canlı qalması və xalqın öz aşığı ilə qürrələnməsi ilə bağlanır. Belə rəvayət olunur ki, Nadir şah Əfşarın məğlubedilməz ordusunu döyüşlərdə, səfərərində həm də aşıqlar müşayiət edərmiş... Dağıstan səfərində Şahın aşıqları ilə Dağıstan aşıqları üz-üzə gəlir və yenə

də rəvayətə görə, Nadir şahın aşıqları yenilir, sənət yarışmasında məğlub olurlar... Meydana Xəstə Qasım gətirilir, o, yerli aşıqların hamısını, başda dövrünün ustad aşığı, şan-şöhrətli Ləzgi Əhmədi də asanlıqla məğlub edir – bağlayır.

Nümunə kimi xatırlanan bu rəvayət və digər XX əsrin əvvəlləri xalq ədəbiyyatı ilə bağlı kitablara sıx-sıx salınmasının bir özəlliyi də deyişmədə aşığın biliyi, mədəniyyəti, əxlaqı, meydanda rəftarı, islam mədəniyyətini, dünyəvi bilikləri mənimsəməsi, meydangirliyi və hazırcavablığının bir arada ustalıqla birləşməsinin göstəricisidir. Yəni aşığın sənətkarlığı, ustad olması həm də bu məqamla da açılardı, bilinərdi.

Xalq yaradıcılığı, aşıq sənəti ilə bağlı imkan daxilində sərgilənən kitablarda qadın şair və aşıqlarına xüsusi yer ayrılması diqqət çəkir. Bir çox xalqlardan fərqli olaraq milli ədəbiyyatımızda rübai ustası Məhsətinin tərəf müqabilləri ilə şeirləşməsindən Aşıq Pəriyə, aşıq Nabata qədər və təqdim etdiyimiz əsərlərdə adları keçən onlarla xanımların yaradıcılığına müraciət maraq doğurur. Bizim sənətkar xanımların zəkası, istedadı, dünyagörüşü, sərbəstliyi həmin örnəklərdən boylanmaqdadır: Ağca qızın şeirləri, Molla Cümənin qız ilə deyişməsi, Cahan xanım, Aşıq Əli (Tovuzlu), onun Gülüstanla deyişməsi, Dilşadın şair Vəli ilə deyişməsi, Aşıq Mina, Pərzad, Sədəf, Gövhər, Mələk və Süleyman, Əsmə Xatun və Lətif deyişməsi, Aşıq Hüseyn-Reyhan, Aşıq Pərinin müasirləri ilə onlarla deyişmələri, şeirləşmələri və s...

"Ədəbiyyat dərsləri" dərslik-müntəxabatında "Bağlama və deyişmələr" adlı (s.135) xüsusi mövzu verilmişdir. Deyişmələr iki aşıq, tərəflər arasında necə keçirilərmiş? – sualına belə aydınlıq gətirilir: "Bağlama, deyişmələr çox zaman el yığnaqlarında, toylarda saz aşıqları tərəfindən bir-birinə qarşı düzələn ədəbi parçalardır. Bunların içində anlaşılmaz, çətin olan qisimləri və hətta din, mövhumat ilə dolu olanları da vardır ki, bunların hamısı xalqın nələr ilə yaşadığı və nə kimi etiqadda olduqlarını da göstərmiş olur. Bağlamalar əksəriyyətilə suallı-cavablı olur və hər tərəf bu dördlük ilə öz fikrini ifadəyə çalışır. Sualın cavabını tapmayan aşıq və ya şair məğlub sayılır".

Təfərrüatla, illər öncə deyişmə, bağlamalara verilən tərif, əlbəttə, çağdaş elmi biliklər bucağından bir qədər "bəsit, natamam" və öz dövrünün ideolojisindən xali olmaya bilər. Bununla belə, aşıq sənətində mürəkkəb, bilik, savad, dünyagörüş çeviklik tələb edən deyişmə şəklinə gerçək qiymət verilmiş xalq həyatındakı yeri, aşığın məharəti düzgün qiymətləndirilmişdir.

Nizami Muzeyinin "Əski çap kitabları" fondunda mühafizə edilən "Azərbaycan aşıqları" kitabına bir daha müraciət etməli olduq, buradakı

materialların toplayıcısı fədakar folklorçu Hümmət Əlizadədir. Ümumilikdə bu əsərdə 85 aşığın yaradıcılığından söhbət açılır, onların bədii əsərlərindən örnəklər verilir. Tərtibçi hansı aşığın həyatı ilə bağlı məlumat əld edə bilmişdirsə, onları da oxucularına 1-2 cümlə ilə olsa da çatdırmışdır. Örnəklər – aşıqların şeirləri sıra ilə nömrələnmişdir. Kitabın "Bir neçə söz" adlı ön sözündə əsərin quruluşu, tərtib qaydaları açıqlanmaqla, toplayıcı kimi H.Əlizadənin təmənnasız, böyük əməyi yüksək qiymətləndirilmişdir. Tərtib etdiyi kitabda H.Əlizadə özü də el şairi kimi yer almış və şeirləri "Ülkər" təxəllüsü ilə tanıdılmışdır. Onun həyatının bəzi məqamlar da burada Bakıda təhsil alması, Azərbaycanda Sovet hakimiyyəti qurulandan sonra yeni dövrü alqışlayan şeirlər yazması, "Azərbaycanı Öyrənən Cəmiyyət"ə üzv seçilməsi kimi xəbərlər yer almışdır.

Fikrimizcə, "El ədəbiyyatı nümunələri seriyasından", "Azərbaycan aşıqları" kitabı bir sıra cəhətlərinə görə, xalq incilərini toplam bir çox aşıqlar, onların yaradıcılığından nümunələrin təqdimi baxımından ilk təşəbbüs, tanıtım, əsərlərə qiymət vermək cəhdləri yönündən dəyərlidir, elmi baxımdan ilk mənbələr kimi qiymətlidir.

Nizami Muzeyində aşıq sənəti, aşıq yaradıcılığı, el şairləri ilə bağlı XX əsrin 50-ci illərinə qədərki ədəbi mühiti çevərləyən kitablar, toplular, məcmuələr, jurnallar mövcuddur. Onların bir qisminin toplayıcısı məhz H.Əlizadədir: "Aşıqlar" (1925, red. M.Arif), "El aşıqları" (1927, toplayanı V.Xuluflu), "Azərbaycan xalq ədəbiyyatından. Bayatılar. 1926. "Aşıqlar" türk dilində (red. H.Mehdi, toplayanı H.Əlizadə, "Aşıq Qərib". 4 məclis, 8 şəkildə. Opera. Bakı, 1918. "Aşıq Ələsgər", 1937, "Aşıqlar", 1937, toplayanı H.Əlizadə, red. M.Arif (bu kitabda 20-yə yaxın aşıqdan söhbət gedir), Aşıq Hüseyn, 1938, toplayanı H.Əlizadə və s. və i...

Həmin illərdə aşıqlardan bəhs edən kitabların böyük əksəriyyəti eyni tərtibatda hazırlanmışdır. Aşığın bioqrafiyası və əsərləri aşağıdakı bölgülər üzrə təqdim edilərdi: Revolyusiyadan əvvəl deyilmiş qoşmalar. Gözəlləmələr. Təcnislər... Müxtəlif qoşmalar...

II. Revolyusiyadan sonra deyilmiş qoşmalar. Dövrün konyukturasına uyğun olaraq Stalin, Moskva, Rəhbərə, qurultay, kolxoz hərəkatı... kimi .... "mövzular" mütləq şəkildə kitablarda yer almışdır.

Beləliklə, XX əsrin əvvəllərində aşıq yaradıcılığı, onun tanınan, az tanınan nümayəndələri ilə bağlı nəşrlər unikallığı ilə seçilir və dünəndən bu günə etibarlı ədəbi-mənəvi körpü rolunu oynayır. Ədəbi ictiamiyyət, el sənəti ilə məşğul olanlar, xüsusilə gənc tədqiqatçılara bu kitablar o dövrün nəbzini tutmaqda əvəsiz mənbə, qaynaqlardır.

QAYNAQLAR

1. **Gözəl Namə.** Orucov qardaşları. Bakı. 1911
2. **Aşıq Qərib.** Orucov qardaşları. Bakı, 1918.
3. **Aşıqlar.** I hissə. II çap. Bakı, 1925.
4. **Azərbaycan xalq ədəbiyyatından. Bayatılar**. Azərbaycan ədəbiyyat cəmiyyəti. Bakı, 1926.
5. **El aşıqları**. Azərbaycanı öyrənmə cəmiyyət. Bakı, 1927.
6. **Aşıq Pəri. Ədəbiyyat dərsləri**. Bakı, 1928.
7. **Azərbaycan aşıqları.** II hissə, Bakı, 1930.
8. **Aşıqlar**. Toplayanı H.Əlizadə, red. H.Mehdi. Bakı, 1935.
9. **Aşıq qoşmaları.** Azərnəşr, Bakı, 1938.

Хатира Баширли

Р Е З Ю М Е

В секторе «Древние письменные источники» музея Низами имеется много образцов ашугского мастерства и творчества известных ашугов. В статье (на материалах вышеупомянутого фонда) автор повествует о редких материалах об избранных ашугах, которые нашли отражение в публикациях начала XX века – 1910-20, 30-х годов.

Ключевые слова: ашугское мастерство, музейный фонд, классическое наследие, состязание в импровизации стихов и в пении (у ашугов).

Khatira Bashirli

S U M M A R Y

There are many patterns of the ashygs' craftsmanship and creative activity of the famous ashygs in the sector “The ancient printed books” of Museum named after Nizami. The given article (leaning on the materials of the above-mentioned fund) touches upon the rare materials about the chosen ashygs which have been reflected in the publications at the beginning of the XX century, namely in 1910-1930.

Key words: ashyg craftsmanship, the fund of the museum, classical heritage, the competition on the improvisation of the verses and in singing of ashygs.

Qalib SAYILOV
AMEA Folklor İnstitutu
Filologiya üzrə fəlsəfə doktoru
qalibsayilov@mail.ru

AZƏRBAYCAN AŞIQ SƏNƏTİNDƏ DİNİ VƏ İRFANİ GÖRÜŞLƏR

Özət: Məqalədə ilk dəfə olaraq aşıq sənətində dini inanclar sistemi öyrənilir. İndiyə qədər bu sənətdə irfani görüşlər bir neçə aspektdən öyrənilmişdir və yanlış olaraq irfani görüşləri dinlə qarışdırmışdılar. Tədqiqat nəticəsində dini inanclar irfani görüşlərdən ayrı olaraq öyrənilmişdir. Əslində dini inanclar ən çox aşıq yaradıcılığında özünü göstərməkdədir.

Bu faktor aşıq şeirində, rəvayət və dastanlarda daha çox nəzərə çarpır.

Açar sözlər: din, aşıq, Şirvan, peyğəmbər, teoloq, qam, şaman, İslam, Allah, janr.

Azərbaycan müstəqillik qazandıqdan sonra digər sektorlarda olduğu kimi, ideoloji sahədə də müəyyən boşluqlar yarandı. Lakin ateist sovet imperiyasının təbliğatının süqutundan sonra xalqımız yenidən öz dini inanclarına qayıtdı. Dünya sosioloqları, antropoloqları və teoloqları bir fikirdə yekdildirlər: – belə ki, dünyada dinsiz heç bir qövm olmamışdır. Hər bir toplum da öz mədəniyyətində dini və əxlaqını, onun saflığını tərənnüm etmişdir. Dini baxışlar və inanclar xalqımızın erkən çağlardan bu günə kimi qoruyub saxladığı ən müqəddəs dəyərlərdir. Bu dəyərlər insanların erkən dünyagörüşlərində, mifologiyasında, ilkin şifahi yaradıcılığında özünü büruzə verdi, daha sonra inkişaf edərək xalqın poetik təfəkküründə cilalanaraq daha dərin estetik dəyər qazandı.

Əlvan janr çevrəsinə və çeşidli yaradıcılıq ənənəsinə malik olan xalqımızın ilkin ədəbiyyatı "yüksək mənəvi əxlaqi dəyərləri, etik və estetik düşüncənin ən aparıcı meyl və istiqamətlərini özündə əks etdirən yaradıcılıq sahəsidir (1). Xalqımız öz comərdliyini, saf əxlaqını, vətənpərvərliyini, ana və el məhəbbətini, müqəddəs hisslərini, həzin könül duyğularını ilkin epik lövhələrdə canlandırmışdır. İbtidai mədəniyyətin formalaşma dönəmindən başlayaraq inkişafın qlobal mədəniyyətədək olan zaman kəsimində xalqın istək və arzuları, lirik duyğuları laylalardan, oxşamalardan, əmək nəğmələrindən, alqış və qarğışlardan tutmuş epos və dastanlara qədər bütün poetik yaradıcılığında əks olunmuşdur. İnsanların

dini inancları yaratdıqları şifahi ədəbiyyatın əbədi mövzusu olmuşdur. İnancla bağlı motivlərə beşik nəğmələrində, sayalarda, əmək nəğmələrində olduğu kimi, aşıq sənətində də rast gəlirik. Dini inanclar aşıq rəvayətlərində və dastanlarında sistem halında mövcuddur. Dastanda qəhrəmanın doğuluşu, mücadilə və mübarizəsi məhz qəzavü-qədərə bağlanır. Dünyaya gələcək uşağı yuxuda görürlər, dərviş və ya hadisə başqa sakral mahiyyətli vəsilə nəticəsində baş verir.

Dastan qəhrəmanları xeyirxah ilahi qüvvə tərəfindən müşayiət olunur. Qəhrəmana əks qüvvələr olan mənfi obrazlar da "izlənilir". Çox vaxt onların şər əməlləri gözəgörünməz qüvvələr tərəfindən qabaqlanır, qarşısı alınır. Ələvilik dönəminə qədər bu ilahi qüvvə Xızır və başqa mələklərlə kodlaşır. Zaman keçdikdən sonra insanlar bəzi əməlisalehlərə, yəni insanlara sakral mahiyyət verir, qəhrəmanın qoruyucusu kimi onları təqdim edir. Belə olaylar dastanlarda bəzən Hz. Əlinin adıyla bağlanır. Mifoloji dönəmdə və eləcə də İslamın ilkin dönəmlərində bu qoruyucu mələk qaraçuxa adlanır. Qaraçuxa obrazı bir çox aşıq dastanlarında insanları bəd və arzuolunmaz situasiyalardan qoruyur. Qeyd edək ki, Qaraçuxa obrazı milli folklorumuzda özünə əsaslı yer alıb. Qaraçuxa ilə bağlı Azərbaycanın bütün bölgələrində müxtəlif rəvayətlər mövcuddur. Xalq özünə hami kimi yaratdığı bu obrazı daha da sakrallaşdıraraq, baba ünvanını da artıraraq Qaraçuxa baba demişlər. Hətta Şirvanda Qaraçuxa baba ziyarətgahı da var. Əslində bu, dindən kənar, lakin dinə müncər edilmiş inanclardandır. Folklorumuzda belə dinə uyğunlaşdırılmış inanclar sisteminin sayı çoxdur. Bu, ənənəvi dindən fərqli olaraq xalqın yaratdığı dindir. Din çox vaxt ilahiyyatçıların sferasından çıxıb xalq yaradıcılığına inteqrasiya edir. Elə bu zaman da din folklorlaşır. Yəni dinlə bağlı hadisələr müxtəlif variantlarda yaranır və yaşanır. Bəzən bunlar yad təsirlərin nəticəsində baş verir ki, bu da müqəddəs dinimiz islamın mahiyyətindən uzaqlaşma meylləri törədir. Təriqətlər, sektalar və məzhəblər özlərinin beyət prinsiplərini ortaya qoyur. Nəticədə bu təşkilatların nümayəndələri islamı mahiyyətindən кənar öz "yaradıcılıqları" rakursundan bəyan edirlər. Lakin xalq yaradıcılığında dinin ən düzgün təbliği və mühafizəsi də aşıq sənətilə bağlı olmuşdur. Aşıq sözü öz-özlüyündə bu doğruluğu ehtiva edir. Yəni bu, eşq sözündən törəmişdir ki, mənası da Allah eşqi olanların toplumda bir zümrə kimi tanınmasıdır. Düzdür, müəyyən dövrlərdə aşıq yaradıcılığında da dini inanclar öz doğru məhvərindən çıxmış, bir çox yanlışlıqlar zərərli təsirini buraxmışdır.

Aşıqlığın genezisi, mənşə və kodu Qam/Şamanlara qədər gedib çıxır. Aşıqların gələnəkdə, geneoloji bağlılığı ehtiva olunan "ən əski türk şairləri – Tonguzların Şaman, Moğol və bayatların Bo və bugul, yaqut-

ların Oyun, Altay türklərinin Qam, Samoitlərin Tadibli, Finovların Tiltojlo, yəni bakıcı, qırğızların baksı/bakşı, oğuzların ozan dedikləri şairlərdir. Sehrbazlıq, rəqqaslıq, musiqişünaslıq, həkimlik, bir çox vəsfləri özlərində toplayan bu adamların xalq arasında böyük bir yeri və əhəmiyyətləri var" (2). Qam/Şaman, daha sonra Ozan mərhələsini keçmiş müasir aşıqlar hər dövrün səciyyəsini yaradıcılıq süzgəcindən keçirmiş, epoxal mədəniyyətə öz töhfələrini vermişlər. Orta çağdan, sonra dərvişlik mərhələsini keçən aşıqlar dövrün, zamanın biliciləri və ən funksional zümrəsi olmuşlar. Bugünkü mədəniyyət daşıyıcıları – aşıqların ənənəvi kodunda maraqlı nüanslar gizlənir. Funksionallığı ilə dünya kulturoloqlarını cəlb edən aşıq hadisəsinin alt bazisində möhtəşəm laylar mövcuddur ki, onları öyrənməklə dünya mədəniyyətinin bir çox gizli kodları aşkarlanır. İslam tarixçilərinin, eləcə də Avropa alimlərinin qənaətinə görə moğollar zamanında qamlar böyük nüfuza malik olmuşlar. F.Köprülü bu mövzuya toxunaraq yazır: "Ulduzları seyr edər, günəş tutulmalarını xəbər verər, günlərin xeyirlimi, yoxsa şərlimi olacağını əvvəlcədən bildirərlərdi. Qamlar sarayda istifadə olunacaq hər şeyi, hətta xaqana verilən hədiyyələri belə odla təmizləyərdilər. Əsasən saraya təqdim edilən hədiyyələrin bir qismi onlara verilirdi. Uşaqlar doğularkən talelərini bildirmək, insan xəstələndikdə onu sağaltmaq üçün Qamlar çağrılırdı. Onlar birini məhv etmək qəsdində oldularmı gəlmiş və gələcək fəlakətlərin bir çox səbəbkarı həmin şəxsin olduğunu söyləmələri yetərli idi. Bunlar davullarını çalıb cinləri dəvət edərlər və sərsəmləşincəyə qədər zikr edərlərdi. Qamlar ins və cindən havadis və məlumat aldıqlarını söyləyərək bunların Tanrı tərəfindən ilham olunduğunu iddia edərlərdi. Qamların bir qismi və zümrənin rəisi münəccimlik ilə ulduzların şəklini və olduğu yeri göstərən cədvəllər tərtibi ilə iştiğal edər və hər şey üçün hansı zamanın daha uğurlu olduğunu arardı. Çingiz xan Öng xanla nə zaman müharibə etmək lazım olduğunu münəccimlərdən soruşaraq ona görə hərəkət etmişdi (2).

Aşığın islamaqədərki dövrdə, yəni tanrıçılıq dönəmində də xüsusi yeri olmuşdur. Tanrıçılıq inanclarına görə dini törənləri təşkil edən din adamı, dövrünün bilgilərinə sahib çıxan bilgin "xalqı sosial həyata hazırlayan öyrətmən, dini öyrətiləri çeşidli qissələrlə süsləyən və bu öyrətiləri axtararkən çeşidli təqlidlər edən anlatıcı-oyunçu, dini-mərasimi oyunlar sərgiləyən rəqqas, Tanrıdan aldığı ilhamla doğmaca şeir söyləyən xalq şairi (göftəci) şeirlərini deyərkən sözün daha ötkəm olması üçün qopuz adı verilən sazı çalan çalğıçı – musiqişünas, şeirlərinə uyğun ritmi icra edən bəstəçi, şeirlərini avazla səsləndirən səs sənətçisi qeybdən xəbər verən baxıcı – falçı, bəzi hərəkət və sözlərlə bədəni pis ruhlardan "arındıran büyücü" ruhi xəstələri dini təlqin və musiqi ilə tədavi edən ruh

həkimi, "ruh sağlığı" konusunda da bilgi donanımına sahib olub çeşitli xəstəlikləri sağaltdığına inanılanı xalq həkimi" (3), müxtəlif xəstəliklərin müalicəsində istifadə olunan bitkilərdən məlhəm hazırlayan əczaçı, bilgisi və məharəti ilə dövlət adamlarına yol göstərən alim, "yönətiçilərə qarşı xalqın sözçüsü durumundakı elçi" (3) bir çox qaranlıq mətləbləri aydınlaşdıran vicdan hakimi, dini təlqinlərlə zəngin ilhamverici sözlərlə və qopuzun müşayiəti ilə ifa etdiyi qəhrəmanlıq nəğmələriylə əsgərləri coşduran əsgər, gəzib-gördüyü yerlər haqqında xalqı məlumatlandıran xəbərçi olaraq cəmiyyətdə mötəbər yer tutmuşdur. Mənsub olduqları çevrə böyüdükcə və geniş coğrafiyalara yayıldıqca "bu din adamı – sanatçılar da bazı alanlarda uzmanlaşaraq görev dağılımı yapmışlardır. Beləliklə, çox sayda yetenen görevi təkbaşına yüklenen din adamı-sanatçı kişilərin yerinə, zamanla bu sayılanlardan bazı özellikleri taşıyan, uzman sanatçılar ortaya çıkmaya başladılar" (3).

İslam öncəsi bugünkü aşıqların (o zamanın təbirincə el sənətkarlar) xüsusi yeri olmuşdur. Gələnəkdəki sələflər xələflərindən fərqli olaraq nəinki şad və təntənəli günlərdə, həmçinin matəm mərasimlərində də iştirak etmişlər. "Onlar Atillanın ölüm merasiminde de önemli görevler almışlardır" (2).

Tanrıçılıqdan sonra türklər İslam dinini qəbul edərək müsəlmanlaşdılar. Yeni dinin təsiri ilə mədəni və sosial ehtiyaclarda aşınmalar meydana gəldi. İslamın mədəniyyətə daxil olması nəticəsində Ozançılıq ənənəsindən ayrılaraq dini-didaktik şeirlər söyləyən təkkə şairləri formalaşmağa başladı. Dini ilahilər söyləyən şairlərlə yanaşı keçmiş ənənəni mühafizə edib saxlayan konservant ozan davamçıları hələ də mövcudluğunu itirməmişlər.

"Türk-Oğuz kaynağından geldiği ileri sürülen Ozan kelimesinin hem beste ve güfteyi, hem çalınan musiki aletini, hem de bunu çalıp söyleyen halk musikişinasını ifade ettiği anlaşılmaktadır. XV asır sonlarından itibaren ozan sözü eski anlam ve değerini kaybederek "geveze, ağzına geleni söyleyen" anlamlarında kullanılır. Sözgelimi; Lami Nefsül-Emir-namesinde "geveze, herze söyleyen", Edimeli Nazmi de "geveze, ağzına geleni söyleyen" anlamlarında bu kelimeyi kullanmaktadır. Türkiyede Cumhuriyet döneminde, ozan tekrar olumlu anlam kazanarak önce şair, zamanla da milliyetçi halk şairi karşılığında kullanılır. Sözgelimi; Ozan Arif, Ozan Hilmi Şahballı, Ozan Yusuf Polatoğlu gibi sazları eşliğinde şiirler söyleyen milliyetçi halk şairleri kendilerini ozan olarak takdim ederler" (2).

Ozan və yeni yaranmış aşiqlər (aşığın dərviş dövrü) XVI əsrə qədər Anadolu, Azərbaycan və Rumeli də fəaliyyət göstərmişlər.

"İslamiyet'ten önceki türk devletlerinde olduğu gibi, İslamiyet'ten sonraki Türk devletlerinden Gazneliler'de, Selçuklular'da, Harezmşahlar'da ve en nihayet Osmanlı İmparatorluğu'nda askeri muzıkanın bulunması, o devirlerde halk şair-musikişinaslarının bulunduğuna en kuvvetli bir delildir". Köprülü'nün belirttiğine göre; "XIII asırda Anadolu Selçukluları'nın ordularında gördüğümüz ozan'ları, Mısır Memlekleri devletinde hükümdarların tantanalı alaylarında, Türkleşmiş bir Moğol hanedanı olan Celayirliler'de hatta XV asırda Anadolu Beyleri'nin saraylarında da görüyoruz". Clavijo'nun seyahetnamesinde de, XV asrın ilk yıllarında, Andolu'da, ellerinde sazlarla ilahiler okuyan derviş-şairlerin bulunduğu" belirtilmektedir" (3).

Aşıq sənəti XVI əsrdə İslam mədəniyyəti daxilində inkişaf etmiş, lakin təşəkkülünü tamamlamamışdır. 1700-cü ilin ortalarından başlayaraq dərgah və zavələrdə bir-birinə zidd mədəniyyətlərin yaxınlaşması nəzərə çarpır. Yazılı və şifahi şeirin yaxınlaşması təkcə ənənələrini və ozan ənənələrini də yaxınlaşdıraraq aşıq sənətinin yaranması və inkişafına təkan verdi.

"Zamanla, ozan yerine Azerbaycan'da ve Türkiye'de aşık, Türkmenistan'da da bahşı kelimesi kullanılmaya başlanır (2).

Aşıq sənəti türklərin milli mədəniyyətində böyük rol oynamış, əsrlər boyu aktuallığını qoruyub saxlamışdır. Aşıqlar mədəniyyətin bir çox tiplərini yaşatmış və yaymışlar. Belə mədəni laylardan biri də dinlə bağlı olmuşdur. Hələ şamançılıq dönəmində bugünkü aşıqların kod əcdadı qamlar və şamanlar şamançılığı təbliğ etmişlər. Şamanlıq məlum olduğu kimi, türk tayfalarının ilk dinlərindən olmuşdur. Təbiət hadisələrinə inamı əks edən tanrıçı dində "tanrıya qurbanlar verməklə bərabər tanrı üçün dualar oxumaq, ilahilər söyləmək ayin hesab olunurdu. Bu ayinləri icra edənlər şaman adlanırdı (5).

Dini təbliğ aşıq sənətində onun ilk rüşeymlərindən görünür. Əslində, müasir aşıq sənətinin geneologiyası ilə bağlı olan sənətlərdə də bu tendensiya özünü göstərir. Əcdaddan gələn ənənə bu gün də uğurla davam etməkdədir. İlkin dinlərin şifahi ənənədə təbliği – orta çağ sənətində və eləcə də müasir sənət sferasında davam etməkdədir.

İslamın aşıq sənətində yeri və mövqeyi həmişə uca və möhtəşəm olaraq sənətin poetikasını zənginləşdirmişdir. İslamiyyətə keçiddən bu günə kimi bütün sənət daşıyıcıları müqəddəs mövzuya toxunmuş, bir növ sənətdə belə öz itaətkarlıqlarını göstərmişlər. Bayatlı Abbas "Bismillah" şeirində yazır:

Qaşına yazılmış sətri-bismillah,
Cəbimin sereyi Nəsru-minallah,
Üzün görən deyər əlhəmdü-lillah,
Adı kafir isə imana gəlir (6).

Bu bir bənd şeirdə "Allah sizə hər kəsdən yaxındır" hədisi bədii cəhətdən təsvir olunur. Allahın "əsmaül-hüsna" deyilən sifətləri sadalanır. Qaşında bismillah, alnında Nəsriminallah surəti, üzündə isə təbəssümü görən Allaha həmd edər, kafir olsa belə, sifətləri görən imana gələr.

Ehraqlı Rəcəbin "Nə bilsin" qoşması dini-irfani görüşləri təbliğ etməklə əxlaqın saflaşmasına xidmət edir:

Bir kimsə ki, şəhadəti bilməyə,
Qdənzur əbbinası nə bilsin?
Oruc tutub, ibadəti qılmayan,
Haqq Allahı, həqqənnası nə bilsin? (6).

Şair poetik dillə anladır ki, müsəlmanlığın, imanın ilk şərti olan kəlmeyi-şəhadəti bilməyən daha dərin və xeyirli surəni Qdənzinəbbünası bilməz. Oruc tutmayan, namaz qılmayan Haqqı bilməz.

Şirvan aşıq sənətinin azman ustadlar şəcərəsinə mənsub olan Dəllək Murad da Allah (c.c.)-yə dua və müraciətini lirik ricətlərlə edir:

Qadir Allah, budur səndən diləgim,
Sən mərdi namərdə möhtac eləmə.
Qeyb xəzinəndən yetir ruzisin,
Sən mərdi namərdə möhtac eləmə (7).

Aşıq Uca Rəbbindən dilək diləyir. Sanki dua edir, xeyirli olanı təkcə özü üçün deyil, hamı, bütün bəşər üçün istəyir.

Allah (c.c.) və mələklərinin aşıq şeirində təsviri çoxfunksiyalılığı ilə seçilir. Ərəşli Çevrinin təcnisi bu mövzunu çox uğurlu formada təqdim edir:

İki mələk xəttat xəttin yazanda
Adını məshətdə yazmış yasinə.
Əlif qəddin, cim camalın, mim ağzın,
Dişin bənzər hərf içində yasinə (6).

Bu aşıq da Allah (c.c.)-ın insana vəkil olunmuş iki mələklərindən, onların yazdığı xətdən, əlif, cim, mim kimi Quranda sirri açılmayan hərflərdən və "Yasin" surəsindən bəhs edir. Və eyni zamanda bunların poetik formada çatdırılması daha cazibədar görsənir.

Şirvanlı Aşıq Seyfulla isə islam dininin dərin laylarından gələn hikməti çox dolğun və məzmunlu şəkildə şeir diliylə, poeziya çələngi ilə oxucunun, dinləyicinin qəlbinə yönəldir:

Alim, səndən izn ver xəbər alım,
Cənnətin çırağı nə içindədir?
Nədən piltə tutdu, nədən yağlandı?
Kim almış dəstinə, nə içindədir?

Bilirsənmi peyğəmbərin yaşını,
Hansı gün qırxıbdır o başını?
Hansı gündə şəhid etdi dişini,
Nəyə çulğalandı, nə içindədir?

Nə eşq ilən yaradıbdır insanı,
Nədən ötrü göyə çəkdi İsanı?
Neçə kərə dindiribdi Musanı,
Məskəni nə yerdir, nə içindədir? (7).

Haputlu Molla Kazımın islami şeirləri öz üslubuna görə fərqlənir. O, ərəb əlifbasında olan 28 hərfi nəzmə çəkir. Müqəddəs Quran hərflərini şeir vasitəsiylə öyrədir. Hədisdə deyildiyi kimi, bir hərf bir savab, on hərf on savabdır. Molla Kazım aşıq deyil, amma aşıqlığa çox yaxın olmuş, bir çox nağılların bilicisi olmuş, xalq şeiri şəklində yazıb-yaratmışdır.

"Əlif-bey" şeiri İslamın təbliği sahəsində önəmli material sayıla bilər.

Əlif – Allah ilə yad etdim mən Allahü Əkbəri,
Bi – bəqayiləm yəzəldir fani olmaqdan bəri,
Te – təala Allahdır hərdəm bu könlümün əzbəri,
Si – sənayi haqqdır bəhri dəhanın gövhəri,
Cim – camalın nəşəsi xurudimahi ənvəri.

Ha – həmdi bihədi təşbihi la əhsa sənə,
Xa – xalqı cümlə aləm vəsfinə eylər səna,
Daldır – gahkədə yoxdur mən ey bari xuda,
Re – rəhimsən yarlıq mən asiyə damən təri.

Ze – zəbanim qərar et həmdinə zülmnən,
Sun – sübhandır sifatın töhməti hər eybdən,
Şin – şəhadətləfzi Məllahdır könlüm sevən,
Sad – sidqi zövq ilə təşbihi təhlilin qılan,
Zad – zəfi din olub çəkməz o hal məhşəri.

Ti – tərife məsiyət səyyahım Leylü nəhar,
Za – zellasa siyərrurim qapında şərmsar,
Eyn – üqbadə məgər yar alə lütfi-kiriftar,
Gün qəffar-əz-zunub-ələsmin sən biqərar,
Fal fəğfarlı əya elsani lütfün məzhəri.

Qaf – qıl zikri ilahi birlə sən ikna könül,
Kafi – küllü şeytanədir ol deyil əsla könül,
Lami – ləbin zikri ola təsbihilaəhsa könül,
Mimi – meydanı fənayə çıxma, ey şeyda könül,
Nun – nirəngin eliyib şeytan qurmuş çənbəri.

Hi – hüveyda aləm içrə həstu müqim,
Va – vəli dərmandədirlər günəhin üçün ya kərim.
Laf – əlif la laşəriklədir ol həya qədim,
Yai – yəzdan fəzlidin Kazım ümidin kəsmə kim,
Əksi rəyi əqldir etmək xəyali əbtəri (6).

Məlum olduğu kimi, “vücudnamələr” də aşıq poeziyasında məzmun və məna yükünə görə çətin və mötəbər mövzulardan bəhs edir. İnsanın doğuluşundan ölümünə qədər olan ömrü nəzmə çəkmək eyni zamanda İslam kontekstində ifadə etmək sənətkardan dərin zəka və fəhm tələb edir. Məlikballı Qurbanın vücudnaməsi İslam dinini aşıq poeziyasında təbliğ edən möhtəşəm əsərlərdəndir:

Ərbəəyi-ənasir şeş cihatdan,
Xalq elədi məni qadiri-qəffar.
Bir qətrə atadan yendin anayə,
Misalimdə qırx gün elədim qərar.

İki qırx olanda himrayə döndüm,
Üç qırxda bir mələk gördüm, səksəndim,
Dört qırxda düzəldim, beşdə tərpəndim,
Altı qırxda oldum xeyli giranbar.

Yeddi qırx olanda gəldim cahana,
Şad oldu bu işdən həm ata, ana.
Cismim xak, xunda düşdüm fəqana,
Qundaqdan bəşigə elədim səvar.

Ana pustanından nuş elədim zad,
Yığılıb gəldilər qohum, qardaş, yad.
Cəddim silsisləsi qoydular bir ad,
Dedilər fənada qalsın yadigar.

Bir yaşımda öz anamdan şir aldım,
İki yaşda əklü-sübrə yönəldim,
Üç yaşda danışdım, oynadım, güldüm,
Qəddü-qamət dörtdə elədim izhar (6).

Bütün varlıqların yaradıcısı Allah (c.c.)-dır. Biz də yalnız əməl və ibadətimizlə xoşbəxt ola bilərik. Azərbaycan mədəniyyətində mədəni hadisə olan aşıq sənətində, aşıq poeziyasında Uca Rəbbimizin və Müqəddəs Quranın təsvirlərinə müraciət etdik. Aşıq da, şair də onun istedadının məhz Allah (c.c.) tərəfindən verildiyini unutmamalı, hər an ona həmdsəna etməlidir. Vaxt gələcək hamı Allah qarşısında dayanacaq. Bu, ən dəhşətli və əzəmətli səhnə, mənzərədir. İnsan bu anın qorxusunu təsəvvür edə bilməz. Düşün ki, məhşər meydanında sorğu-suala çəkiləcəyin anı gözlədiyində nida gələr və ey filankəs, səni çağırırlar. Bu gün çox çətin gündür deyəcəksən. Həmin çətin günə bu dünyada hazırlaşmaq lazımdır. Bu möhtəşəm hazırlıq müraciət etdiyimiz sənətkarların da yaradıcılığında özünü büruzə verir.

QAYNAQLAR:

1. A.Nəbiyev. Azərbaycan xalq ədəbiyyatı. Bakı, Çıraq, 2009, səh. 2.
2. Köprülü M.Fuad. Türk Saz şairləri. C1, Ankara: Milli Kültür yayınları, 1962. s.171.
3. B.Durbilmez. Aşık Edebiyyatı Araştırmaları Ürün yayınları. Ankara, 2008. s.67-69.
4. S.K.Karaalıoğlu. Türk ədəbiyyatı tarixi. I c., İstanbul, 1973, s.79.
5. A.Nəbiyev. Azərbaycan aşıq məktəbləri. Bakı, Elm, 2009, 81s.
6. S.Mümtaz. E1 şairləri. Bakı, 1935, s.123.
7. A.Mirzə. Şirvan aşıq yaradıcılığı: təşəkkülü və inkişaf tarixindən. Bakı, Elm, 2007, 300s.

Галиб Сайылов

РЕЛИГИОЗНЫЕ И ИРФАНИ ВЗГЛЯДЫ В АЗЕРБАЙДЖАНСКОЙ АШЫГСКОЙ ТВОРЧЕСТВА

Резюме: В статье впервые изучается система религиозного вероисповедования. В этой сфере суфические взгляды до сих пор были изучены по нескольким аспектам и по ошибке совмешены суфические взгляды с религией. А в этой статье суфические и религиозные взгляды взяты отдельно. На самым деле религиозные вероисповедание больше всего, показывает себя в ашыгском творчестве. Этот фактор в ашыгском искусстве более встречается ашыгских ском стихах, легендах и дастанах.

Ключевые слова: религия, ашук, Ширван, пророк, теолог, гам, шаман, ислам, Аллах, жанр.

Galib Sayilov

RELIGION AND IRPHANI OPINIONS IN THE ART OF ASHUG OF AZERBAIJAN

Summary: In the article for the first time the religious beliefs in the ashug art are learned. The mystic views in this art were learned from some aspects and the mystic views were mixed with religion by mistake. As a result of investigation religious beliefs were learned separately from mystic views. In fact religious beliefs are found out mostly in ashug creativity. These facts are striked mostly in ashug poem, legends-and eposes.

Key words: religion, ashug, Shirvan, prophet, theologian, gam, shaman, Islam, God, genre.

Nailə ƏSKƏR
AMEA Folklor İnstitutu
Filologiya üzrə fəlsəfə doktoru
qaracantali@live.com

AŞIQ NƏSİB HAQQINDA İKİ RƏVAYƏT

ÖZƏT

Ağbaba-Çıldır aşıq mühitinin görkəmli simalarından biri də Aşıq Nəsib olmuşdur. Onunla bağlı biblioqrafik məlumatları haqqında yaranmış rəvayətlərdən alırıq. Araşdırmalarımıza əsasən deyə bilərik ki, Aşıq Nəsib haqqında yaranmış bu rəvayətlər tarixi əsaslara dayanır. Aşıq haqqında "Nəsibin Göləli İbrahimlə görüşü və onun Göləyə getməyi", "Aşıq Şenliyin Nəsiblə görüşməsi, Nəsibin ona şəyird olması", "Aşıq Ələsgərlə Aşıq Nəsibin qabaqlaşması", "Çıldırlı Aşıq Veysinin Güllübulaq səfəri", "Bala Məhəmmədlə Aşıq Nəsibin görüşü", "Aşıq Nəsibin Tacir Söyünnən görüşməsi", "Aşıq Nəsibin Qulanıs səfəri" və s. kimi otuza yaxın rəvayət vardır. Bu rəvayətlər aşığın həyat və yaradıcılığının müxtəlif mərhələlərini işıqlandırır.

Məqaləmizdə aşıq Nəsibin məhz şəyirdlik illəri ilə bağlı rəvayətləri tədqiqata cəlb olunacaq, rəvayətlərin tarixi gerçəkliyi ilə bağlı mülahizələr yürüdüləcəkdir.

Açar sözlər: *Aşıq ədəbiyyatı, aşıq mühiti, Aşıq Nəsib, şəyird, ustad, rəvayət, tarixilik.*

Giriş

Azərbaycan aşıq sənətinin görkəmli nümayəndələrindən biri, Ağbaba-Çıldır aşıq mühitinin yetirməsi olan Aşıq Nəsibin müqtədir bir sənətkar kimi yetişməsində onun müasirləri və ustadları mühüm rol oynamışlar. Çünki ənənəyə görə, bu mürəkkəb sənətin sirlərini öyrənmək üçün hər gənc aşıq təcrübəli bir ustadın yanında şəyird olmalı idi.

Bu məqaləmizdə Aşıq Nəsibin şəyirdliklə bağlı ("Nəsibin Göləli İbrahimlə görüşü və onun Göləyə getməyi" və "Aşıq Şenliyin Nəsiblə görüşməsi, Nəsibin ona şəyird olması") iki rəvayətindən bəhs etdiyimiz üçün ustad-şəyird münasibətləri haqqında bir neçə cümlə demək vacibdir.

Bəri başdan qeyd edək ki, ustad aşıq sayılmaq üçün təkcə yaş və təcrübə kifayət deyil. Yalnız o aşıq ustad hesab edilir ki, onun sənətdə öz məktəbi, ifaçılıqda və söz qoşmaqda parlaq istedadı olsun. Belə aşıqlar bu sənətin davam etməsi, nəsildən nəsilə ötürülməsi, öz

məktəbinin formalaşması, adının və əsərlərinin yaşadılması naminə özlərinə şəyird götürürlər. Ustad özünə şəyird seçərkən onun sənətə marağını, həvəsini, səsini, hafizəsini, öyrənmə qabiliyyətini, saz çalma bacarığını və fiziki kamilliyini, yəni boy-buxununu, çöhrəsini, nəhayət, əxlaqını, tərbiyəsini və vətənpərvərliyini nəzərə alır. Gənc aşıq ustad sənətkarın yanında bir müddət qalır, ailənin bir üzvü kimi ustadın evində yaşayır, ona hər işdə kömək edir.

Şəyirdlik müddəti gənc aşığın istedadından, ustanın nəzərdə tutduğu təlim proqramını öyrənmə dərəcəsindən asılıdır. Şəyird ustaddan ən birinci ədəb-ərkanı, havacatı və ümumi repertuarı, ustadın bütün şeirlərini, qoşduğu dastanları, yaratdığı saz havalarını, onunla bağlı aşıq rəvayətlərini, fərdi üslubunu və tərzini, dil özəlliklərini, təhkiyəsini, qafiyələrini, üstəlik, aşıq şeiri janrlarını və texnikasını öyrənir, ustadla birlikdə məclislərə gedərək təcrübə toplayır, məclis aparma qaydalarını mənimsəyir. Türkiyə aşıqlıq ənənəsində «çıraqlıq», bizdə «şəyirdlik» adlanan birinci təlim mərhələsi müşahidə-təqlid-tətbiq sxemi üzrə həyata keçirilir. Bu mərhələ başa çatdıqdan sonra şəyirdin xəlifəlik dövrü başlanır (bu termin bizdə işlənmir). Ustad artıq yavaş-yavaş xəlifəni dinləyici qarşısına çıxarır, çox zaman məclisi açaraq sözü ona verir, xəlifə də öz növbəsində ustadının bir neçə divanisini, təcnisini və gözəlləməsini oxuyur. Bu mərhələdə ustad xəlifəni özü ilə səfərlərə də aparır, əvvəlcədən hazırlanan ssenari üzrə məclisi onunla birlikdə idarə edir. Xüsusilə, deyişməli aşıq rəvayətlərində deyişən tərəflərdən birinin rolunu ifa etməyi xəlifəyə tapşırır. Xəlifənin kifayət qədər yetkinləşdiyini və sənətin incəliklərinə tam bələd olduğunu görən ustad onu bir neçə dəfə sınayır, nəhayət, öz yetirməsinə təxəllüs seçir və sərbəst şəkildə aşıqlıq fəaliyyətinə başlamasına icazə verir. Buna "dəstur", "icazət" və ya "bərat" deyilir. Beləliklə, bir neçə şəyird tərbiyə edən ustadın öz məktəbi yaranır. Bu, Türkiyədə "aşıq qolu" termini ilə ifadə edilir (9, 143-154).

Aşıq rəvayətləri Azərbaycan aşıq yaradıcılığında mühüm yer tutur. R.Rüstəmzadə bu münasibətlə yazmışdır: "Rəvayətlərin böyük ictimai-siyasi, eləcə də tərbiyəvi əhəmiyyəti vardır. Çünki bunlarda qəhrəmanlıq, vətənpərvərlik, dostluq və s. kimi ideyalar xüsusi yer tutur. Tarixi və elmi əhəmiyyəti isə onunla izah olunur ki, klassik aşıq poeziyasının, xalq yaradıcılığının, xalq musiqisinin, ayrı-ayrı görkəmli el sənətkarlarının həyat və yaradıcılığının öyrənilməsində belə rəvayətlər misilsiz mənbədir" (5, 3-4).

Aşıq rəvayətləri janr etibarilə dastanlara yaxındır, lakin həcm baxımından daha kiçik, süjet baxımından daha sadədir. Burada dastanlara

xas olan bəzi bədii priyomlar, konflikt qurma, deyişmə, kulminasiya var, lakin bu rəvayətlərdə, bir qayda olaraq, baş qəhrəman aşığın özüdür, üstəlik, məzmun baxımından rəvayətlər daha çox məişət xarakterlidir, komik, gülməli, zarafatyana səciyyə daşıyır. Onların arasında sosial, siyasi məzmunlu rəvayətlər nisbətən az olur. Yeri gəlmişkən qeyd edək ki, başqa aşıqlardan fərqli olaraq Aşıq Nəsiblə əlaqədar rəvayətlər arasında sosial, siyasi məzmunlu rəvayətlərə də rast gəlmək mümkündür. Bu da aşığın üsyankar xarakteri ilə, yaşayıb-yaratdığı dövr və mühitlə, ermənilərə və sovet hökumətinə bəslədiyi dərin nifrətlə izah oluna bilər.

Aşıq Nəsiblə bağlı əlimizdə yazıya alınmış 29 aşıq rəvayəti, 11 rəvayətli ifadə var. Bu rəvayətlərin coğrfiyası çox genişdir. Burada ilk sırada Ağbaba coğrafiyası gəlir. Aşıq Nəsibin öz doğma kəndi Güllübulaqda, qonşu Hamasa, Balıqlı, Öysüz, Seldağılan, Qaranamaz, Düzkənd, Təzə İbiş, Təpəköy, Çivinni və digər kəndlərdə başına gələn maraqlı əhvalatlar bu rəvayətlərin əsasını təşkil edir. Çıldır və onun Çandra, Suxara, İrişdi, Qucen, Gölə, Ərginə kəndləri, Canbaz yaylası, Gümrü şəhəri və onun Qızıldaş kəndi, İrəvan, Axılkələyin Sağamoy və Qulanıs kəndləri və başqa yerlərə səfərləri sənətkarın gəzib-dolaşdığı, məclislər apardığı coğrafi məkanın, ərazinin genişliyini göstərir. Aşıq İskəndər Ağbabalının dediyinə görə, Aşıq Nəsibin yalnız Çıldırla bağlı iyirmidən çox aşıq rəvayəti vardır. Onu da nəzərə almaq lazımdır ki, gözləri kor olan Aşıq Nəsib hərəkət qabiliyyətinin məhdudluğu üzündən daha uzaq yerlərə gedə bilmirdi. Əks təqdirdə, o da Aşıq Ələsgər kimi bütün Qafqazı qarış-qarış dolaşardı.

"Nəsibin Göləli İbrahimlə görüşü və onun Göləyə getməyi" adlanan rəvayət aşığın sənəti və bioqrafiyası baxımdan əlamətdardır, çünki burada gənc Nəsibin ilk dəfə şəyird olması təsvir edilir.

1. "Nəsibin Göləli İbrahimlə görüşü və onun Göləyə getməyi"

Təbii ki, gənc Nəsib də bir ustad yanında təcrübə keçmək ehtiyacı hiss etmiş və əmisi Əmir kişi onu tanınmış aşıq Göləli İbrahimin yanına şəyirdliyə vermişdir. Bunu Aşıq İskəndər Ağbabalı da təsdiq edir: "Həyə, mənim ustadımın ilk ustadı Göləli İbrahim olmuşdu, əmbə o çox cavan öldüyünə görə, Nəsif yarımçıx qalmışdı" (4, 178).

"Nəsibin Göləli İbrahimlə görüşü və onun Göləyə getməyi" rəvayətinin qısa xülasəsi belədir: Güzəranını təmin etmək üçün həm də qalayçılıqla məşğul olan Göləli İbrahim bir gün Güllübulağa gəlmiş və təsadüfən Baharın atasının evində qalmışdır. Gecə qonşu evdən Nəsibin

şiddətli iniltisini, ah-naləsini eşitmiş, sabah onun yanına gələrək dərdini soruşmuşdur. Nəsib əvvəlcə onu acılamış, Göləli İbrahim olduğunu öyrənincə üzr istəmişdir. Nəsibin başına gələnləri öyrənən, nakam eşqi haqqında məlumat alan Göləli İbrahim Nəsibin istedadını görərək onu şəyirdliyə qəbul etmiş və özü ilə birlikdə Göləyə aparmışdır. Lakin Nəsibin sevinci uzun sürməmiş, çox keçmədən ustadı vəfat etmişdir.

Dövrün ustad aşıqlarından Göləli İbrahim saz-söz sənəti ilə yanaşı həm də qalayçılıqla məşğul olmuşdur. Bir gün onun yolu Güllübulağa düşmüş, təsadüfən Baharın (Aşıq Nəsibin nakam sevgisi) atası evində qonaq qalmışdır. Gecə qonşu evdən bir gəncin, yəni Nəsibin şiddətli iniltisini, sızıltısını duymuş, səhər olunca ev sahibindən bunun səbəbini soruşmuşdur:

Bu nə bəla, bu nə səsdi,
Bu nə işdi, agah elə.
Səni bu səs heç tərpətmir,
Bağrım şişdi, agah elə.

Baharın atası aşığı başından eləmək üçün qeyri-müəyyən cavab vermişdir:

Mən nə bilim, bir yetimdi,
Kor baxtına ağlar qalıb.
Gözü yoxdu, yoldaşı yox,
Sinəsində dağlar qalıb.

Göləli İbrahim bu işdə bir sirr olduğunu anlamış, ona görə də israrla bu ah-nalənin səbəbini öyrənmək istəmişdir:

Bu səsin yanğısı çoxdu,
O kimdi, arxası yoxdu?
Tərsinə çevrilib baxtı,
Yazı qışdı, agah elə.

Təbii ki, Baharın atası həqiqəti açıb söyləməmişdir, çünki Nəsiblə Baharın saf eşqinə qarşı çıxan, onları bir-birindən ayıran, sağalmaz dərdə salan elə onun özü idi. Odur ki, Göləli İbrahimə dəqiq bir şey deməmişdir:

Ah çəkməyi edib peşə,
Düşübdü bir olmaz işə,

Dərddən qəlbi şişə-şişə,
Özü, bir də ahlar qalıb (4, 161).

Çarəsiz qalan Göləli İbrahim səhər açılan kimi birbaşa Nəsibin yanına gələrək onunla tanış olmuş, dərdini soruşmuş, hər şeyi öyrənmişdir.

Bu aşıq rəvayəti dastan ənənəsinə uyğun şəkildə yaradılmışdır. Əvvəla, süjet xəttində şərtilik hiss olunur. Göləli İbrahimin Baharın atasıgildə "təsadüfən" qonaq olması və gecə qonşu evdən Nəsibin ah-naləsini eşitməsi epizodu quramadır, rəvayətin davamı üçün zəmin hazırlamaq məqsədilə düşünülmüşdür. Hətta aşığın həqiqətən Baharın atasıgildə qonaq qaldığını qəbul etsək belə, onun qonşu evdən Nəsibin inildisini eşitməsi qeyri-mümkündür. Bunun üçün Nəsib ah çəkməməli, var səsilə qışqırmalı idi. Üstəlik, Nəsiblə Bahargil arada geniş həyətlər olan qazma daxmalarda yaşamışlar. Əslində, əhvalat təxminən bu şəkildə cərəyan etmişdir: Güllübulağa gələn Göləli İbrahim burada aşıq olub-olmaması ilə maraqlanmış, ona Nəsib barədə, onun nakam məhəbbəti haqqında məlumat vermişlər.

Nəsiblə Göləli İbrahimin tanışlığı da dastanvari şəkildə təsvir olunmuşdur: "Sabahı gün… Göləli İrbaham gəldi Nəsifgilə. Qav-tavıyı qəleyliyənnən sonra Nəsivi yanına çağırdı, dedi:

– Dərtdi adama oxşuyursan, nə oluf?

– Nəyinə lazımdı, qavını qəleylə. Qəleyçi nə bilir söz nədi?

Əmə Göləli İrbaham onnan əl çəhmədi" (4, 162).

Burada məsələ daha da dramatikləşir, Nəsib üç bəndlik sərt bir qoşma deyərək "qəleyçini" əməlli-başlı təhqir edir. Bundan sonra ikisinin arasında deyişmə olur, axırda Nəsib möhürbənddən qarşısındakı adamın məşhur aşıq Göləli İbrahim olduğunu başa düşür, onun əlini öpərək üzr istəyir. Göləli İbrahim Nəsibin istedadını görüb təklif edir ki, yaxşı aşıq kimi yetişmək üçün onun şəyirdi olsun. Nəsib əmisi Əmir kişidən icazə alaraq razılıq verir. "Göləli İrbaham Nəsivi götürüf özüynən Göləyə apardı. Nəsif bir xeylax orda qalıf şəyirtdih elədi. Əmə qəza gəldi, Göləli İrbaham bafat elədi. Nəsif oydu ki, yarımçıx qayıtdı geri. Sonralar o, Aşıx Şenniyə irast oldu. Aşıx Şennih onu şəyirtdiyə götürdü. Bunnan sonra Nəsif Aşıx Nəsif kimi tanındı" (4, 165).

2. "Aşıq Şenliyin Nəsiblə görüşməsi, Nəsibin ona şəyird olması"

"Aşıq Şenliyin Nəsiblə görüşməsi, Nəsibin ona şəyird olması" adlanan aşıq rəvayəti "Nəsibin Göləli İbrahimlə görüşü və onun Göləyə getməyi" rəvayətin məntiqi davamı kimi görünür. Bu rəvayət özlüyündə xeyli bitkin, mənalı və maraqlı rəvayətlərdir, üstəlik, aşığın istedadlı sənətkar, müdrik və qeyrətli vətəndaş olduğunu göstərir. Burada Aşıq Nəsibin həyatının və sənətinin növbəti səhifəsi açılır. Aşıq İskəndər Ağbabalı tərəfindən söylənərək yazıya alınmış bu rəvayətdən anlaşıldığına görə, Aşıq Şenliklə Aşıq Nəsib Güllübulaqda bir toyda qarşılaşmış, deyişmişdir. Nəsibin saz çalmasını, səsini və şeirlərini bəyənən Şenlik onu özünə şəyird götürmüş, Nəsib bir müddət onun yanında qalaraq aşıqlıq sənətinin bütün incəliklərini öyrənmiş, kamil sənətkar kimi püxtələşmişdir.

Bu görüş vaxtı Aşıq Şenlik orta yaşlarında, təcrübəli ustad aşıq, Nəsib isə gənc və təcrübəsiz imiş. Məclisdəkilərdən birinin təklifi ilə Şenlik sözü Nəsibə vermişdir. Nəsibin yanıqlı səsi, gözəl saz çalması, bədahətən qoşduğu dərin məzmunlu, kamil şeirləri Aşıq Şenliyin çox xoşuna gəlmişdir. Nəsibin acı taleyi, yetimliyi, nakam məhəbbəti, ustadı Göləli İbrahimin ölümü, özünün ortada tək qalması barədə oxuduğu qoşma həssas qəlbli Aşıq Şenliyi xüsusilə riqqətə gətirmişdir. O, Nəsibin istedadını daha dərindən öyrənmək üçün onunla deyişməyi təklif etmişdir.

Dərdin nədir, oğul bala,
Eşqin ataşı səndədi,
Aparıblar üzüyünü,
Üzüyün qaşı səndədi (4, 85).

Bu misralarla ustad onun daşa dəyən eşqinə işarə vurmuşdur. Nəsib taleyindən şikayət edərək belə cavab vermişdir:

Ürəyim yaralı qalıb,
Allahım verdiyin alıb,
Qönçə gülü əğyar çalıb,
Qisasım alınmır mənim (4, 86).

Bu deyişmədən razı qalan, Nəsibin simasında gələcəyin məşhur sənətkarını görən, onun parlaq istedadını sezən Aşıq Şenlik Nəsibi özünə şəyird götürmüş və qərarını bu şəkildə bəyan etmişdir:

Şenlik səni çox bəyəndi,
Yerindədir misra-bəndin.
Bir dünyagörənsən kəndin,
Sözlərin başı səndədi (4, 86).

Məclisin sonunda isə Aşıq Şenlik gənc Nəsibə təsəlli vermiş və ustad nəsihətini söyləmişdir:

Dərd eləmə, cavan oğlan,
Hər gələn haqqdan gələr,
Günlər ötər bircə-bircə,
Qaradan-ağdan gələr.
Qovun-qarpız bostandandı,
Meyvələr bağdan gələr.
İsti-xəfə aran yerdən,
Sərinlik dağdan gələr.

Yetimliyin ayıf deyil,
Qəlbin olsun çox geniş,
Ərin yolu yoxuş olar,
Orda çox olmaz eniş.
Yüz kərə qəmə batarsan,
Şad olarsan bir dönüş,
Sözün safı, ən lətifi
Ürəyi sağdan gələr (4, 86-87).

"Aşıx Şennih elə o günnən Nəsivi şəyirtdiyə götürdü. Məclis başa çatannan sonra Aşıx Şennih Nəsivi aparıf Çıldıra yola tüşdü" (4, 87).

Qeyd etməliyik ki, Aşıq Nəsiblə Aşıq Şenlik arasında yalnız ustad-şəyird əlaqələri olmamış, onları çox dərin sevgi və mənəvi yaxınlıq birləşdirmişdir. Onlar birlikdə neçə-neçə məclislər aparmışlar. Aşıq Nəsib ustadı vəfat edənə qədər onunla sıx əlaqə saxlamış, həmişə özünü bu böyük insana borclu hesab etmişdir. Aşıq Nəsibin ustadına məhəbbəti o qədər çox imiş ki, ustadın ölümündən sonra Şenlik adı gələndə uşaq kimi kövrəlib ağlayar, sonra sazını sinəsinə basıb dərdli-dərdli oxuyarmış:

Bir vaxt bu yerlərdən keçib gedibdi,
Gəzir ağızlarda sözü Şenliyin.

Təbli adamların sinəsindədir,
Çeşməsi, bulağı, sözü Şenliyin.

Gündən-güzərandan sınır ürəyim,
Ay Nəsib, ustadı anır ürəyim.
Həsrətdən od tutub yanır ürəyim,
Yaloyu, ataşı, közü Şenliyin (4, 101).

Nəticə

Aşıq rəvayətləri hər bir aşığın qeyri-rəsmi bioqrafiyasının tərkib hissəsidir. Bu rəvayətlər onun aşıqlıq fəaliyyətinin bədiiləşmiş epizodları, başına gələn əhvalatların, düşdüyü çətin və ya komik vəziyyətlərin tarixçəsi kimi maraq doğurur. Aşığın bütün səfərləri, gəzdiyi yerlər, keçirdiyi məclislər, görüşdüyü tarixi şəxsiyyətlər, deyişdiyi aşıqlar, xalq həyatına dair səhnələr və digər məlumatlar məhz aşıq rəvayətlərində öz əksini tapır.

Haqqında bəhs etdiyimiz bu iki rəvayət Aşıq Nəsibin şəyirdliyə başladığı dövrü əhatə edir, eynu zamanda bu rəvayətlər deyişməli rəvayətlərdir. Bunlardan başqa yaranmış bir çox deyişməli aşıq rəvayətləri Aşıq Nəsibin artıq yetkinləşdiyi, püxtələşdiyi, məşhur olduğu dövrün məhsuludur. Bu rəvayətlərdə Aşıq Nəsib Göləli İbrahim və Aşıq Şenliklə deyişmişdir. Sonrakı dövrlərdə o, azman sənətkar Aşıq Ələsgərlə, tanınmış saz-söz ustaları Bala Məhəmmədlə, çıldırlı Aşıq Veysi ilə deyişmiş, Çorlu Məhəmmədlə və Aşıq Sultanəli ilə qarşılıqlı saz çalıb-oxumuş, milliyyətcə erməni olan aşıqlardan Usta Tatosla və Tacir Söyünlə yarışmışdır.

Yekun olaraq demək olar ki, Aşıq Nəsiblə bağlı aşıq rəvayətləri tamamilə tarixidir və onun yaradıcılığının müxtəlif cəhətlərini, bioqrafiyasının bəzi səhifələrini, xarakterinin bəzi cizgilərini açmaq baxımından olduqca mühüm əhəmiyyət daşıyır. Rəvayətlər Aşıq Nəsibin sənət portretini bütövləşdirir, tamamlayır.

Qaynaqlar:

1. Ağbaba A. Aşıq Nəsibin sənət dünyası. Bakı: Elm, 2008, 96 s.
2. Aslan F. Kars Yöresi Aşıklık Geleneğinin Usta-Çırak Geleneği Bakımından Değerlendirilmesi // Türk Dili ve Edebiyatı Dergisi, İstanbul: 2007, sayı XXXVI, s. 41-78.

3. Aşıq İskəndər Ağbabalı. Ayırdılar Ağbabadan. Bakı: Ozan, 1998, 184 s.
4. Aşıq Nəsib. Toplayıb tərtib edənlər: H.İsmayılov, T.Səmimi. Bakı: Səda, 2004, 200 s.
5. Aşıq rəvayətləri. Toplayanı və tərtib edəni R.Rüstəmzadə. Bakı: Gənclik, 1988, 156 s.
6. Ədəbiyyatşünaslıq terminləri lüğəti. Tərtib edəni: Ə.Mirəhmədov. Bakı: Maarif, 1978, 200 s.
7. Ələsgər İ. Ələsgər ocağı ilə bağlı yaradılmış dastan-rəvayətlər haqqında. Bakı: Nurlan, 2007, 188 s.
8. İsmayılov H. Göyçə dastanları: türk epik sistemində dastan informasiyasının fasiləsizliyi / Göyçə dastanları və aşıq rəvayətləri. Toplayanı, tərtib edəni, ön sözün, qeyd və izahların müəllifi H.Ismayılov. Bakı: Səda, 2001, s. 3-82.
9. Kaya D. Edebiyatımızda Aşık Kolları ve Şenlik Kolu / Aşık Şenlik Sempozyumu Bildirileri. 22-23 Mayıs 1997. Ankara: 2000, s. 143-154.

Two legends of Ashug Nasib

Naile Asker
NASA Institute of Folklore
qaracantali@live.com

ABSTRACT

Ashug Nasib was one of the outstanding figures of Aghbaba-Childir ashug environment. We get bibliographic information from established legends about him. According to our research we can say that, the legends have arisen about Ashug Nasib stands to historical bases. There are about thirty legends about ashug Nasib: “The meeting of Nasib with Goleli Abraham and his visit to Gole”, “The meeting of Ashug Shenlik with Nasib, Nasib's being a student to him”, “The meeting of ashug Nasib with ashug Alesger”, “The visit of Childirli Ashug Veysi to Gullubulaq”, “ The meeting of ashug Nasib with Bala Mohammed”, “ The meeting of ashug Nasib with merchant Soyun”, “ The visit of Ashug Nasib to Gulanis. These legends highlight the different stages of life and creativity of ashug.

The legends associated with the period of apprenticeship years of ashug Nasib will be investigated, historical reality of the legends will be advanced in our article.

Key words: *Ashug literature, ashug environment, Ashug Nasib, student, master, legend, historicity*

Две легенды про ашуга Насиба

к.ф.н.Наиля Аскер
NASA Института фольклора
garacantali@live.com

РЕЗЮМЕ

Ашуг Насиб был одним из выдающихся деятелей Агбаба-Чылдыр ашугское среды. Мы получаем библиографической информации от установленных легенды о нем. По данным нашего исследования можно сказать, что, легенды возникли об ашуге Насиба само собой историческую базу. Есть около тридцати легенды об ашуге Насиба: “Встреча Насиба с Голели Авраама и его поездка к Голе”, “Встреча Ашуг Шенлик с Насиба, Насиба бытия студента к нему”, “Встреча ашуга Насиба с ашуг Алескер”, “Поездка Чылдырлы Ашуг Вейси к Гуллубулаг”, “Встреча ашуг Насиба с Бала Мухаммеда”, “Встреча ашуг Насиба с купеч Сойун”, “Визит ашуга Насиба к Гуланис”. Эти легенды выделить различные этапы жизни и творчества ашуга.

Легенды, связанные с периодом ученичеством лет ашуга Насиба будут расследованы, историческую реальность легенды будут выдвигаться в нашей статье.

Ключевые слова: *ашугское литература, ашугское окружающей среды, Ашуг Насиб, студент, мастер, легенда, историчности.*

Ləman VAQİFQIZI
(SÜLEYMANOVA)
AMEA Folklor İnstitutu
Filologiya üzrə fəlsəfə doktoru, dosent
lemansuleymanova@rambler.ru

MOLLA CÜMƏNİN YARADICILIĞINDA BAYATI JANRI

Özət: Azərbaycan aşıqlarının bir çoxu bayatı janrından bacarıqla istifadə edərək həm musiqimizi, həm də şeir janrlarını zənginləşdirmişlər. Xüsusən cığalı təcnisləri bayatılarsız təsəvvür etmək çətindir. Molla Cümə də həm cığalı təcnislərində bayatılar yaratmış, həm də ayrıca bayatılar yazmışdır. Bunun bir səbəbini aşığın bu janra sevgisi ilə izah etmək mümkündürsə, digər bir səbəb də Molla Cümənin Zaqatala-Balakən bölgəsinə tez-tez səfər etməsi, toy məclisləri aparması və bu məclislərdə tənburla çalıb oxumasıdır. Tənburla ifa olunan mahnılar, adətən, bayatı üstündə oxunarmış. Molla Cümə bayatılarının bir qisminin aşığa aid olduğunu müşahidə etsək də, bir qisminin də xalq bayatıları olduğunu görürük. Aşığın bayatılarının az bir hissəsini də bayatı-tapmacalar təşkil edir. Amma təəssüf ki, bu bayatı-tapmacaların cavab hissəsi yoxdur.

Açar sözlər: Molla Cümə, bayatı, tənbur, bayatı-tapmaca, Zaqatala-Balakən.

Giriş. Dövrünün ən məşhur aşıq-şairlərindən biri olan Molla Cümənin yaradıcılığı elə indi də nəinki Şəki və ətraf rayonların camaatı arasında, eləcə də bütün Azərbaycanda sevilir. İndi də müxtəlif regionlarda folklor ezamiyyələrində olan folklor toplayıcıları digər mətnlərlə yanaşı, Molla Cümənin də yaradıcılığından nümunələr toplayırlar.

Onun yaşadığı dövr, Rusiyanın Qafqazda xristian dinlilər, xüsusən də ermənilər vasitəsilə at oynatdığı dövr idi.

Molla Cümənin yaradıcılığından danışarkən burada bir məsələnin üstündən sükutla keçmək olmaz. O, 1905, 1918-1919-cu illər erməni işğalçılarının Azərbaycanın müxtəlif ərazilərində qanlı soyqırımlar törətdiklərinin də şahidi olmuşdur. Yeri gəlmişkən qeyd edək ki, Şəkinin Babaratma piri adlanan ərazisindən 5-6 kilometr yuxarı hissədə yerləşən Səbətli kəndinin sakinləri olan ermənilər də boş oturmur, onlardan aşağıda yerləşən kəndləri atəş altında saxlayır, gəliş-gedişə mane olurdular. Bütün

bunlardan cana doyan Göynük mahalının əhalisi 1918-ci ildə Səbətli kəndini zərərsizləşdirməyə məcbur oldu. Zəngəzurda qırğına məruz qalan əhalini qorumaq üçün Şəkidən oraya göndərilən özünümüdafiə dəstələrinin başında Molla Cümənin və onun əmisi uşaqlarının durması haqqında yaşlı insanlar məlumat verirlər.

Molla Cümə yaradıcılığında bayatı. Molla Cümə yaradıcılığı öyrənilib, haqqında xeyli araşdırma aparılan sənəkarlarımızdandır. Həmçinin aşığın bayatıları toplanıb çap olunub, amma buna baxmayaraq, öyrənilməyib. Görünür, bu, tədqiqatçıların daha çox aşıq şeirinin forma və şəkillərini araşdırmaq meyli ilə bağlı olmuşdur.

Ümumiyyətlə, folklorumuzda özünəməxsus çəkiyə malik olan bayatı janrından istifadəyə aşıq ədəbiyyatında da rast gəlmək mümkündür. Aşıqların bir qisminin yaradıcılığında həmin janr bu və ya digər formada yer tutur. Aşıq şeirinin bütün forma və şəkillərindən istifadə etməklə yanaşı, sallama gəraylı (Əfəndiyev P., 1992; 44), divani-təcnis (Xudubəyli M, 1999; 57) kimi təzə formalar yaradan görkəmli el sənətkarı Molla Cümənin də yaradıcılığında bayatılarla üzləşirik. Yaşlı söyləyicilərin verdikləri məlumatlara görə, Molla Cümə tez-tez ətraf rayonlara, xüsusilə də Qax, Zaqatala, Balakənə, eləcə də Dağıstana gedər, toylar keçirərmiş. O, yalnız saz çalıb oxumaqla kifayətlənməz, tənburla da çalıb oxuyarmış. Nəzərə alsaq ki, tənburla oxunan mahnıların mətnlərini, adətən bayatılar təşkil edir, deməli, Molla Cümə həm də ifa zamanı bayatılar yaradırmış. Fikrimizi P.Əfəndiyevin müxtəlif nəşrlərdə verdiyi bayatılar ("Molla Cümə. Əsərləri" 61 bayatı (Molla Cümə, 1983; 173-182), "Molla Cümə. Əsərləri" 64 bayatı (Molla Cümə, 2006; 521-524)) da təsdiq edir, Müəllifin qeydinə görə, bu bayatıların hamısı Molla Cümənin əlyazmalarından götürülmüşdür (Molla Cümə, 2006; 173). Digər bir müəllif – M.Yarəhmədov da toplayıb tərtib etdiyi ("Molla Cümə. Əsərləri. I cild") kitaba Molla Cüməyə aid olduğu iddia edilən 37 bayatı salmışdır ki, onun da 36-sı "Aşiqəm" sözü ilə başlayır (Molla Cümə, 2006; 52-57). Qeyd edək ki, hər iki müəllifin nəşr etdirdiyi bayatıların bir qismi təkrar bayatılardır.

Ancaq burada incə bir məqam var. Bu gün Molla Cümənin əlyazmalarında verilən bütün bayatılar ona məxsusdur, yoxsa aşığın bayatıları xalq bayatılarına qarışıb? Yeri gəlmişkən, qeyd edək ki, tamamilə əksinə də ola bilər. Yəni bu gün Molla Cüməyə şamil olunan bayatıların bir qismi xalq tərəfindən yaradıla, ancaq zaman keçdikcə Molla Cüməyə aid oluna bilər. Bu, tamamilə, qanunauyğun prosesdir. Molla Cümənin əlyazmalarında verilmiş bayatıların bu gün xeyli variantlarına, bəzən də özünə rast gəlmək mümkündür. Məsələn:

Əzizim, yüz il məni,
Xalına düz ilməni.
Vəfalı dost yad olmaz,
Görməsə yüz il məni (Molla Cümə, 1983; 179).

Öncə onu qeyd edək ki, ikinci misrada verilmiş "xalına" kəlməsi məntiqi baxımdan doğru görünmür. Fikrimizcə, bu söz "xalıya" olmalı idi. Bu bayatının "Bayatılar" kitabının "Əmsileyi-müxtəlifə və müttərdə" başlığı altında verilən variantı isə belədir:

Aşiqəm, yüz il məni,
Düymələ (-gəl) yüz ilməni.
Vəfalı dost yad olmaz,
Görməsə yüz il məni (Bayatılar, 1977; 34).

Və yaxud:

Aparar tatar məni,
Qul eylər, satar məni.
Bir vəfalı dost olsa,
Axtarar tapar məni (Molla Cümə, 1983; 178)

- bayatısı adını çəkdiyimiz kitabda "Molla Musa Udulu 1880 (1298)" başlığı altında kiçik bir variant fərqi ilə gedib:

Apardı tatar bəni,
Qul edib satar bəni.
Bafalı yarım olsa,
Axdarar tapar bəni (Bayatılar, 1977; 55).

Misalların sayını istənilən qədər artırmaq olardı, amma bunlarla kifayətlənməyi məqsədəuyğun saydıq.

Aşıqlar, el şairləri bəzən yaddan çıxmaması üçün başqa aşıqların şeirlərini, dastanlardan parçaları, bayatıları və s. dəftərlərinə qeyd edirdilər. Odur ki, Molla Cümənin əlyazmalarında verilmiş bayatıların hamısının onun qələmindən çıxması bir qədər mübahisəli məsələdir.

Molla Cüməyə aid olunan bayatıların bir qismində aşığın adı çəkilir:

Ağlaram, bilən olmaz,
Göz yaşım silən olmaz.
Molla Cümə, ah çəhmə,
Haraya gələn olmaz (Molla Cümə, 1983; 176)

Ağlaram, tellər ağlar,
Yaş tökər, sellər ağlar.
Cümənin dərdin duysa,
Ölkələr, ellər ağlar (Molla Cümə, 1983; 176)

Ağlayan yaş ağlayar,
Gözünən qaş ağlayar.
Cümənin dərdin duysa,
Cigəri daş ağlayar (Molla Cümə, 1983; 175)

Cinaslı bayatılar. Aşığın bayatılarının bir qismi də cinaslı bayatılardır. Molla Cümənin incə, lirik hissləri necə sənətkarlıqla vermək bacarığı özünü cinas bayatılarda daha aydın göstərir:

Aşiqəm, bir dəm ara,
Nəştər vur bir dəmara.
Məni zülfün vurubdur,
Sən vurma, bir də mara (Molla Cümə, 1983; 177)

Birinci misrada işlənmiş bir dəm ara – "hərdənbir yada sal, axtar" mənasında, ikinci misrada dəmara – "damara" mənasında, üçüncü misrada işlənmiş bir də mara – "ilana" mənasında işlənib. Qeyd edək ki, son misrada vergül işarəsi səhv qoyulub.

Əlim ayrı, üz ayrı,
Doxsan ayrı, yüz ayrı.
Mən ki səndən dönmərəm,
İstərsən dön yüz ayrı (Molla Cümə, 1983; 181)

Birinci misrada işlənmiş yüz sözü üz, sifət mənasında, ikinci misradakı yüz say, ədəd mənasında, üçüncü misrada işlənmiş yüz sözü yenə də say mənasındadır.

Aşığın bəzi bayatılarındakı cinas sözlər artıq öz işləkliyini itirərək dildən çıxdığı üçün mənasını açıqlamaq çətinlik törədir. Aşağıdakı bayatıya nəzər salaq:

Aşiqəm mən, ac arı,
Yuyulmamış acarı.
Hər kim yara pis desə,
Dilin vursun ac arı (Molla Cümə, 1983; 181)

Bu bayatının birinci və sonuncu misralarında "ac arı" ifadəsinin mənası aydın olduğu halda, ikinci misrada işlənmiş "acarı" sözünün mənası anlaşılmır. Sadəcə, məzmundan aşığın hansısa əşyanı nəzərdə tutduğunu təxmin etmək olur.

Təcnis yaratmaq aşıqdan böyük məharət tələb edir. Bu zaman bəzi aşıqlar məzmundan çox formaya üstünlük verərdilər. Ancaq Molla Cümənin bayatıları həm forma, həm də məzmun cəhətdən diqqəti cəlb edir. Aşığın təcnislərinin bir qismi isə məzmunca gözəl olduğu kimi, formaca da maraq doğurur. Aşıq bu tip təcnislərində misradaxili rədiflər işlədərək dilin gözəlliklərindən ustalıqla faydalana bilmək bacarığını bir daha isbatlamışdır. Bu sənət inciləri onun yaradıcılıq qüdrətinə əyani sübutdur:

Dərd belə canda olu,
Cəsəddə, canda olu.
Yar gəlib seyr etməyə,
Açmışam canda yolu (Molla Cümə, 1983; 180)

Birinci və ikinci misralarda işlənmiş olu sözü "olmaq" feli mənasındadır. Sonuncu misrada işlənmiş yolu kəlməsi isə "yol" (nitq hissəsi kimi isim) mənasını verir.

Və yaxud:

Yox, dalım təzə yaydır,
Kamandır, təzə yaydır.
Yarım daldan çıxanda
Deyirlər, təzə aydır (Molla Cümə, 1983; 180)

Bu bayatının birinci misrasında yay fəsil, ikinci misrada "yay-ox", sonda isə "ay, təqvim" mənasında işlənmişdir.

Folklorşünas-alim E.Məmmədlinin "... Əsl təcnisləri – bədii siqləti, məna və mündəricəsi, estetik emosional təsiri, fəlsəfi yükü, məntiqi axarı qabarıq nəzərə çarpan sənət incilərini ancaq fitri istedada sahib olan kamil sənətkarlar yarada bilər" (Məmmədli E, 1998; 141) fikrini eynilə Molla Cüməyə şamil etmək olar.

Bayatı-tapmacalar. Aşığın bayatılarının bir neçəsi də bayatı-tapmacalardır. Ancaq bunların cavabının verilməməsi təəssüf doğurur. Bu hala yalnız Molla Cümənin yaradıcılığında deyil, bir sıra başqa aşıqların da yaradıcılığında rast gəlinir. Görkəmli alimimiz Qəzənfər Paşayev də Aşıq Şəmşirin bayatı-tapmacalarının cavabının olmamasını qeyd edir (Paşayev Q, 2003; 178-179). Bayatı-tapmacaların cavabının verilməsinin

vacibliyindən bəhs edən müəllif davam edir: "Halbuki, "bayatı-tapmaca"ların açmasının verilməsi həm insanı düşünüb-daşınmağa sövq etmək baxımından, həm ona təbiət və cəmiyyət hadisələri, xalqın həyat tərzi, məşğuliyyəti, fikri-düşüncəsi barədə məlumat vermək baxımından maraq doğurur, tədqiqatçılar üçün əvəzsiz xəzinəyə çevirir. Digər tərəfdən də vəzn və qafiyəsi yerli-yerində olan bu qiymətli parçaların açması məlum olduqda dillər əzbərinə çevrilir, daha geniş yayılır. Bəzən sadə, bəzən də yüksək poetik dillə yazılan, xalq təfəkkürünün məhsulu olan təşbeh və təsvirlərlə, obrazlı ifadələrlə dolu olan bu dördlüklər ağlı, zəkanı, düşüncə və mühakiməni inkişaf etdirmək baxımından xüsusi əhəmiyyət kəsb edir" (Paşayev Q, 2003; 179).

Aşiqəm mən bir ata,
Bir oğula, bir ata.
Səksən qatır, yüz dəvə
Yüklənibdir bir ata.

Onu da qeyd edək ki, bu bayatı-tapmaca kitabda bir az variant fərqi ilə iki dəfə verilib (Molla Cümə, 1983; 175, 180).

Və yaxud:

Mən aşiqəm bir yerdə,
Bir göydədir, bir yerdə.
Haq yaratdı, görmədi,
Mən görmüşəm bir yerdə (Molla Cümə, 1983; 175)

Tərtibçilər bəzən bayatı olmayan mətnləri də bayatıların içində veriblər. Aşağıdakı səkkizlik şeir parçası nümunəsi dediyimizə sübutdur:

Xuda çatmaz dada, Cümə,
Yetməzsən murada, Cümə.
Sirr vermə gəl yada, Cümə,
Cəfan gedər bada, Cümə. (Molla Cümə, 1983; 179)

Sonuc. Sonda təəssüflə qeyd edək ki, aşıq yaradıcılığında bayatı janrı tam və sistemli araşdırılmayıb. Halbuki bu məsələnin öyrənilməsi folklorumuzda müəllifli bayatıların öyrənilməsinə kömək olardı.

QAYNAQLAR:
1. Bayatılar (Tərtib edəni Məmmədova A.). Bakı, Elm, 1977.
2. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı: Ali məktəb tələbələri üçün dərslik. Bakı, Maarif, 1992.
3. Xudubəyli M. İsmi-pünhan sorağında // Mənim sazlı-sözlü dünyam. Bakı: Ulu, 1999, s.90-106
4. Məmmədli E. Təcnis sənətkarlığı. Bakı, NaftA-Press, 1998.
5. Molla Cümə. Seçilmiş əsərləri. (Toplayıb tərtib edənlər Əfəndiyev P., İdrisov Ş.). Bakı, Yazıçı, 1983.
6. Molla Cümə. Əsərləri (Toplayıb tərtib edən Əfəndiyev P.). Bakı, Sabah, 2006
7.Molla Cümə. Əsərləri. 3 cilddə. I cild (Toplayıb tərtib edən Yarəhmədov M.). Bakı, Örnək, 2000.
8. Paşayev Q. Kərkük folklorunun janrları. Bakı, Elm, 2003.

Leman Vagif kizi (Suleymanova)

THE GENRE OF BAYATI (QUATRAIN) IN THE CREATION OF MOLLA JUMA

Summary: The article is about the bayati (quatrain) creation of Molla Juma. Bayati genre is came across in some Azerbaijani ashugs poetics. In Molla Juma's heritage the bayatis are more. For one hand it is explained with the ashug's desire to this genre, from the other hand it is explained the frequent visit of Molla Juma to Zagatala-Balakan region, managing weddings and playing and performing tanbur in these meetings. The songs performing by tanbur usually were sang on bayati. In spite of some bayatis belonging to Molla Juma some of them is considered folk bayatis. The bayati-riddles consist of a few pieces of ashug's bayatis. It is a pity that, the answer part of these bayati-riddles were lost.

Key words: Molla Juma, bayati, tanbur, bayati-riddles, Zagatala-Balakan

Ляман Вагифгызы (Сулейманова)

ЖАНР БАЯТЫ В ТВОРЧЕСТВЕ МОЛЯЫ ДЖУМЫ

Резюме: В статье говорится о творчестве Молла Джуминского баяты. В поэзии некоторых Азербайджанских ашыгов можно встретить жанр баяты. В наследии Молла Джумы много баяты. Одной из причин этого является влечение ашыга к этому жанру, другой же причиной являются частые поездки Молла Джумы в Загатало-Балаканский регион, управление свадебными меджлисами (торжествами), игра и пение на тамбуре, на этих меджлисах. Песни, исполяемые на тамбуре, обычно исполялись в ритме баяты. Мы наблюдаем, что часть баяты, принадлежащих Молла Джуме, относится к ашыгам, а часть это народные баяты. Небольшую часть баяты ашыгов составляют баяты-загадки. Но к сожалению, разгадки на эти баяты-загадки утеряны.

Ключевые слова: Молла Джума, баяты, тамбур, баяты-загадки, Загатала-Балакен.

Osman ƏHMƏDOĞLU

SƏN ÜRƏYİMİZDƏSƏN

Sənnən ayrılalı sol tərəfim ağrıyır, Aydın!

Sənnən ayrılannan sol tərəfimin göynərtisi mana dinclik vermir. Bu, elə-belə ağrılardan döy. Bu, çox dərin bir yaranın ağrıalrıdı. Bu yara mənnən qiyamətə qədər gedəcək, deyəsən.

Mən hələ bu durumda göynərti görməmişəm.

Mən hələ bu durumda sızı görməmişəm.

Mən hələ bu qədər qan verən yara da görməmişəm.

Və bu boyda yaranın qabağında dizə çökməyən adam da görməmişəm. Amma bu yaranın qabağında dizə çökmək ən azınnan sana sayğısızlıq olar, deyə düşünürəm. Və ona görə də bu ağrıya ayaqüstə tab gətirməliydim.

Bilirsən, niyə?

Namərd görüb qürurlanmasın.

Axı, qürur sənin payınıydı.

Və mənə də o qürurdan pay düşürdü. Və mənə düşən həmən pay da məndə öz məqamında qərar tutmalıydı. Tutmuşdu da. O da mənim dadıma yetdi, hoyuma çatdı.

...İçim elə doluydu, elə doluydu ki, gəl görəsən. Və bu doluluq da karıma gəldi mənim.

Mənəviyyatın çox dərin qatlarında çözməsinə heç kəsin gücü çatmayan halaldan halal bir cövhər topası var. Və bu cövhər topası illərin birikiminnən zərrə-zərrə yığılıb öz həddi-buluğuna, yetkinlik və tamlıq məqamına çatıb.

Bu, yıxılmağa qoymadı sənin Nərgizini.

Bu, yıxılmağa qoymadı Aytəkini, Aytəni, Günayı, Aygünü, Səyyadı.

Bu, yıxılmağa qoymadı sazıyın, səsiyin və sözüyün həsrətində olanları.

Bu, yıxılmağa qoymadı məni.

Amma heç kəsin içində tüğyan eləyən ağrıları, acıları durdurmağa gücü çatmadı bu məqamın.

Hərənin içində öz ağrısı, öz acısı haykırırdı.

Hərənin ağrısının öz "dadı" varıydı, öz "tamı" varıydı.

Və hərə öz havasına "oynayırdı".

Və hərə öz tərəfinnən baxırdı, öz gözüylə görürdü öz ağrısını.

Mənim dərdim özümə bəsiydi...

Mənim azarım özümə bəsiydi...

Bu dərd doydururdu məni. Və bu dərd mənim boyuma ölçülüb-biçilmişdi. Və mənim canımın əyninə çox uyuşurdu bu dərd.

...Sənnən ayrılannan çox sular axdı, Aydın.

Çox durular bulandı.

Çox bulannıqlar duruldu.

Çox keçəllər yıxıldı, başlar açıldı.

Dost deyib yanında durannardan neçələri əridi, suya döndü, axıb sellərə qarışdı.

Süfrəndə duz-çörək kəsənnər unutqanlıq mərəzinə düçar oldular. Və hələ də canları "müalicə" qəbul eləmir.

Bir zamanlar sənin sənətinə güvənənnərin bəziləri bir az yekələnib. Dahilik azarına düşərək "Burda mən, Bağdadda kor xəlifə" xülyasıynan yaşayırlar.

Onbir telli sazıyın zilinin zil, bəminin bəm və sinən üstə müstəkəm olan zamanında yanında durmağı özünə şərəf sayannarın elələri oldu ki, sonralar "Çobanoğlu" kəlməsinnən hürkdülər. Və birdən-birə perik düşdülər haqqı-salamın ucalığınnan.

Adını saz məclislərində yaddan çıxarmağa çalışdılar.

Bilərəkdən unutdurmağa çalışdılar səni.

Bu, mümkün olmadı. Olmazdı da!

Axı, bu boyda cidanı çuvalda gizləmək olardımı, səncə?

Yoooxxx!

Sənin yoxluğun öncə Azərbaycan Aşıqlar Birliyində özünü göstərdi. Əlinlə qurduğun, zəhmətinlə yaratdığın, alın tərinlə yaşatdığın bu qurum sənnən sonra param-parça oldu, qardaş!

Halal bir qurğu haramzadaların səyiylə viran oldu.

Rəhmətlik Hüseyn Arifin sənə etibar elədiyi və sənin də bu etibarı ləyaqətlə doğrultduğun, illərlə irəliyə apardığın göz önündəydi. İlk saz

məktəbin – sazı notlaşdırma təşəbbüsün (Azərbaycanda ilk dəfə) də sənin ömrün kimi yarı-yarımçıq qaldı.

Evində yaratdığın "Günay" ailə ansamblın sən gedənnən sonra yaralı bir ömür yaşadı. Sənin yoxluğun bu ansamblın sarı siminə çöyrüldü. Sənin "Yaraladığın" bu beş körpə göyərçinin heç zaman sağalmayacaq yarası dağda dağı yaraladı, bağda bağı yaraladı. Yaxına dağ çəkdi, uzağı yaraladı.

Eh! Azar biriydimi, beşiydimi, on beşiydimi? Hamısı da bir-birinnən "öyməli", hamısı da bir-birinnən çəkilməli. Və çəkənnər çəkdi.

Çəkdiyi qədər çəkməyə çalışdı hərə bu dərdi.

Əslində, çəkilirdi bu dərd. Buna nə varıydı.

Çəkilməyən sənin yoxluğuna sevinənnərin dərdiydi.

Bax, buydu məni için-için alovlandıran.

Fəqət, sən bu həyatda olmaya-olmaya yenə onlara qalib gəlirdin. Yenə onları ağır məğlubiyyətə uğradırdın, Qardaş! Həyatda da, axirətdə də Aydınlığınla.

Və bu məğlubiyyətin altınnan qalxa bilməyənnər daha şərəfsiz bir yolun yolçusu olmağa çalışdılar.

Bu da böhtan yoluydu. Bu da şər yoluydu. Bundan da bir şey çıxara bilməyənnər öz içinnən çürüməyə məhkum oldular. Və burda da əlləri Haqdan və xalqdan üzülü qaldılar.

* * *

İlk dəfə sən bu sənətdə "Koroğluya qayıdaq" dedin və qayıtdın.

İlk dəfə "İncəgülü" aşıqlar ansamblı yaratdın.

İlk dəfə "Abşeron" ansamblı yaratdın.

İlk dəfə "Alıxan və Pəri" dastanını səhnələşdirdin. Bir gözəl folklor nümunəmizə səhnədə yeni həyat verdin.

Bir ozan və bir bəstəçi kimi neçə-neçə mahnılar bəstələdin. Gecəni gündüzə qatdın, gündüzü gecəyə qatdın. Yazdın, yaratdın. Civə kimiydin. Səni tutmaq çox çətiniydi. Hər yerdən səsin gəlirdi.

Uzun qış gecələrində Borçalıda Dəmirçi Əhmədin ocağında sabahları dirigözlü açdırırdın adamlara. Yarızarafat hədə-qorxu da gəlirdin: "Kim arvaddan qorxursa, qalxıb gedə bilər", – deyirdin. Kimsə səsini çıxara bilməzdi bu sözdən sonra. Sən də ki, yorulmaq bilməzdin. Danışdığın dastanları yaşayardın. Yaşadardın bizləri. Elə şirin, elə şəkər söhbətlərin varıydı... ay hayıf.

Almaniyada, Polşada, Hindistanda, İsveçdə, Orta Asiyada, Türkiyədə sazımızın işığına, nuruna yığdın insanları. Necə çatdırırdın, necə öhdəsindən gəlirdin bu boyda işin.

Dirigözülü dastanıydın, nağılıydın, əfsanəydin. Quşların qanad çala bilmədiyi məmləkətlərdən müjdələr gətirərdin.

Əllərimlə yola salardım səni. Geri dönüşündə özüm qarşılayardım.

Borçalılar səni özbəöz oğlu bilirdi, doğrudan.

Xındı Məmmədin 90 illik yubileyində (1996-cı il, 10 mayıs) çaldığın "Yanıq Kərəmi" bəlkə də bütün Kərəmlərin Kərəmiydi.

Aşıq Hüseyn Saraçlının 70 illyində nələr eləmədin.

Saz bayramlarında Borçalıyı qarış-qarış gəzib-dolaşdın. Qaçağanda adıbəlli el şairi Ağacanın anım günü. (Ora Türkiyədən öz arkadaşların şair və alim Zeynalabdin Makas və sonradan mənimlə də doğmalaşan Ənvər Araz da gəlmişdi).

Başkeçiddə qardaşımız Cahangirin yaylaqlarında, oylaqlarında, bulaqlarında keçirdiyin günlər unudularmı, ayə!

Harda istənilirdin, orda varıydın. Toyuydun. Bayramıydın. Saz sana yaraşardı, sən saza yaraşardın. Ulu Dədələrin ən müqəddəs əmanətiydin bizə.

Özün dediyin kimi:

Başına döndüyüm, qurban olduğum,
Ulu babalardan yadigaram mən.
Muradım, niyyətim toydu-düyündü,
Harda şadlıq varsa, orda varam mən.

Bax, bu da ağır gəlirdi nadürüstlərə. Amma rahatıydın. Qəlbi geniş-iydin. Ürəyi açığıydın. Ən ümdəsi, bağışlamağı bacaranıydın. Dərdini saza deyərdin. Ələmini sazla bölüşərdin. İddialı döyüldün. Böyüklə böyükdün, kiçiklə kiçik. Hamıyı özün kimi bilərdin.

Etibarda, sədaqətdə, vəfada örnəyiydin hər kəsə. İnsanları arxanca aparmağa qadiriydin. Yad meyllərə qarşıydın.

Bircə xatirə danışmaq istəyirəm:

...70-ci illərdə Bakı şəhərində yaz-yay aylarında sahil bağlarında gəncləri bayağı əyləncələrə çağırırdılar. Musiqi yad, davranış yad. Bəlkə də çoxları unutmayıb: həmən bu yadlaşmanın orkestr rəhbəri və aparıcısı hündürboylu bir ermənidi. (Mən bunu dəqiq bilirəm). Əksər bölgələr-dən, kənd yerlərindən şəhərə ya işə, ya da ali məktəblərdə qəbul imtahan-larına gələn oğlanları, qızları istər-istəməz öz havalrına alışdırmağa çalı-şırdılar. Müasir görünmək naminə yerişini-duruşunu, davranışını unu-danlar nəsli yetişdirməyə çalışırdılar.

Həmən anda sən öz qardaşın Osmanla bərabər Sahil bağında başqa bir ovqat yaradardın. Qara saz köynəyindən çıxar və aram-aram el

havaları dədələrin dədəsinnən bizə ərməğan olan ən əziz bir nemət kimi ətrafa lərzə salardı. Çox keşçməzdi, başını qaldırıb görərdin ki, çox da uzaxda olmayan o biri "məclisin" seyrçilərinin yüzdə yüzü sənin yanındadı.

Çalardın...

Çalardın...

Çalardın...

Ta gecələrin yarısına qədər sənnən əl çəkməzdilər. Mən köməyinə gələrdim. Güc-bəla bir "Müxəmməs"lə məclisi bitirərdik.

Yataqxana qapıçısı bizi içəri buraxmayanda onu da sazla "qılıxlıyardın".

* * *

Doğuluşundan bir Məcnunluq olub səndə.

Sən Məcnun olaraq gəlmişdin bu cahana.

Səni tanıyanlar qoy səni yaxşı-yaxşı xatırlasınlar. Boy-buxunun uzaqbaşı Məcnun boyundaydı. Üz oxşarlığın, sifət quruluşun elə Məcnunsayağıydı.

Sevdanda, məhəbbətində də Məcnundan özgə kimsə deyildin.

...Qarabuğdayı, suyuşirin bir qızıydı Nərgiz. Elə Məcnunun öz qarabuğdayı Leylisi kimi. Bu qız o qədər məsum, o qədər səmimiydi ki. Amma hər kəsin diqqətini çəkən döyüldü. Sənin ona sevdalılığın bugünkü kimi yadımdadı. Səni onnan uzaqlaşdırmaq istəyən də varıydı.

Döyüldün.

Söyüldün.

Fəqət sənin bir üzün varıydı. Sənin bir sevdan varıydı. Sənin bir Leylan – bir Nərgizin varıydı.

Hətta bir dəfə tam olaraq məcnunlaşmış anını görən Nərgizin də səni tanıya bilməmişdi. Amma sonra... sonra bu məcnuna yenə özü sahib çıxdı bu altun qəlbi olan qız.

Kaş o anıyın tək bir xatirə şəkli qalaydı bu günə qədər.

...Üzünü saqqal basmış,

Görkəmi divanələr kimi pəjmürdə.

Gözlərin yol çəkir,

Yönün Nərgizin iş yerinə tərəf.

Gəlib-gedənlərin baxışı məzəmmətli, yerişi biganə.

O nə iradəydi, a qardaş!

(Qardaşımız İbrahimin qulağı cingildəsin).

Və burda sənin sevdalandığın Nərgiziyin iradəsi də sənə yardımçıydı.

Sən Məcnunuydun.

Sazın Məcnunuydun.

Və bəlkə bu, məcnunluğa bənzəmirdi. Ayrı bir sevdaydı bu. Çünki sən ona qovuşmuş, təpədən dırnağa ona təslimiydin.

Sən sazı özünə təslim etməmişdin.

Sən özünü saza təslim etmişdin.

Çünki canın sazdaydı.

Çünki sən nəfəsini sazla alırdın. Hər yerdə saz sənin ləydi. Hər yerdə sən sazlaydın. Və mənə elə gəlirdi ki, siz (sazla sən) bir bütövün paralarısınız. Bir tamın ikiyə ayrılmış paylarısınız.

Gənəşəcək yerin sazıydı. Deyəcəyini də sazla deyəndə rahatlanardın.

Nəydisə bilmirəm, bu, mənim ağlımın kəsdiyinnən bir az o tərəfəydi. Bu, mənnik döyüldü. Gahdan bir havanı çalmaq üçün min at mənzili yol gedərdin. Azmı olub – "Göyçədə gedif bir "Urfanı" çalmağım gəlir",– dediyin. Azmı olub Saraçlı Hüseynin qəbri üstündə bir "Mansırı" çalmaq üçün bu boyda yol yorğunu olduğun. Azmı olub Dədə Kamandarı dinləmək üçün Bakıdan Kəpənəkçiyə gəldiyin.

Borçalıda Pir Sultan Dədəmizin qəbri var. Yağlıca yolunda, bir təpənin başında. Yanında da öləndə orda dəfn olunmaq istəyənlərin qəbri. Və sən hər ordan keçəndə bu Dədəmizin ruhuna dualar oxuyar, saz çalardın. Dodaqaltı şeirlərini oxuyardın.

"Pir Sultan Abdalam, sazım çalınar" misrasını da mən sənin ağzından götürmüşəm onda və orda.

Allah qismət eləsin, birda "Pir Sultan" saz şölənləri keçirək, – deyərdin.

Bu və buna bənzər misallar deyərəm, deyə bildikcə.

Bu, məcnunluq deyil, bəs nədi?!

Amma sənin məcnunluğuyun içində bir Kərəm yanğısı hönkürür. Və bu Kərəm deyəsən elə yanıq Kərəm kimi bir şeydir. Və həmən bu "Yanıq Kərəm" sənin içindəki və dışındakı məcnunluqla Kərəmliyin bir vəhdətini oluşdurur.

Sənin Kərəmliyin, mənə görə, içində oduna alışdığın, alolvuna büründüyün və cürə sazınla birlikdə cızır-cızır yandığın həmən o keşiyini çəkdiyin köşkdən başlayır.

Həmən o yandığın köşk bəlkə də sənin gələcəyini bəlirlədi. Və sən həmən o günnən sonra həmən o günə qədər olan Aydın olmadın.

Bir az havalı göründün.

Bir az dalğın.

Bir az çılğın.

Və bir az da qəmli-qüssəli.

Və həmən o günnən Kərəm olmağa doğru getdin və oldun.

* * *

Zaman məni də xəcil elədi, Aydın! İçimdə adın ömürlük həkk olunsa da, uzun müddət ayrı düşdüm sənin ocağından. Bəlkə də bu bir bəhanəyə bənzəyir. Fəqət olan oldu. Balalarıyın toyunda oynayammadım. Nərgiziyin muştuluqdan yaşaran hüznlü gözlərini görəmmədim. Amma eşitdim. Hər şeyi yerli-yataqlı öyrəndim. Və balalarıyın Osman əmilərinnən daha ürəkli, daha qeyrətli və daha cəsarətli olduğunu öyrəndim.

İçimə yeni bir təpər, yeni bir güc, yeni bir inam və iradə gəldi. Balalarıyın başına dolanmaq istədim. Cocuqluqlarında qucağımda və ocağımda böyüyən ərköyün balalarını bağrıma basmaq və doyunca hönkürmək istədim.

Gerçəkləşdi o gün!

Səyyad qızılquş kimi Mehdiabaddan Bakıya şığıdı. Necə ki, sən şığıyırdın. Aldı məni Mehdiabada. Necə ki, sən alardın. Getdim. Hər daşına, kərpicinə, qapısına-bacasına, ocağına-bucağına bağlı olduğum evinə. Qızlar töküldü başıma. Nəvələrin gəldi, balalarıyın o vaxtkı yaşında.

Ağladım, ağlaya bildikcə.

Hamı bir-birinə dəydi.

Sığındılar mənə...

Sığındılar bir quzu kimi.

Sığındılar mələk kimi.

İçim elə göynədi, elə göynədi!

Biləmmədim mutluluqdanmıydı, sənsizliyin hüznündənmiydi. Biləmmədim, doğrusu.

Bəlkə də bir ömür yaşadım həmən o qovuşduğum gün. Yaşadım – uşaqlığımdan ta qocalığıma qədər. Hər şey gəldi keçdi xəyalımdan.

Of, gidi dünya!

Beşgünlük ömür!

Səni də doyasıya yaşayammadıq. Hayıf.

Saatlar necə gəldi, dəqiqələr necə keçdi, anlar necə ötdü, biləmmədim. Yenə anam Nərgiz özü təsəlli verdi bizə.

Təzə gəlinimizi gördüm. Gözün aydın olsun.

Və Səyyad sənin sazını köklədi. Sənin köklədiyin kimi.

Hər kəs yerindəydi.

Bircə sən yoxuydun.

Sən ürəyimizdəydin.

Şəfa VƏLİYEVA
sefa.veliyeva@mail.ru

GƏNCƏNİN AŞIQ ZEYNALI...

Əzizim, aşıxlara,
Zülfü dolaşıxlara.
Dərtdən saz götürrəm,
Qoşullam aşıxlara.

Dərdi-qəmi, sevinci-şadlığı, zamana sığan və sığmayan bütün duyğuları xalqımız sazla ifadə etməyi bacarıb. Sazın ululuğuna, aliliyinə inanıb və bu inanca sadiq qalıb...

1937-ci ildə Aşıq İslam Yusifovun Gəncədə təşkil etdiyi 25 nəfərdən ibarət aşıqlar ansamblı da xalqımızın öz hissi, duyğusu ilə saza bağlılığının növbəti təzahürü idi. Bu ansambl 1938-ci ildə Moskvada keçirilən Azərbaycan ongünlüyündə iştrak edib. Aşıq Zeynal da məhz həmin ansamblın üzvü olub, bu kollektivin Moskavadakı çıxışında iştirak edib.

Zeynalabdin Muxtar oğlu Məmmədov 1924-cü il iyunun 10-da Gəncədə anadan olub. 7 saylı orta məktəbin cəmi 5 sinfini bitirib. Ustadı qohumu – bacısının qayınatası Qaraçı oğlu İbrahim olub. Ansambla daxil olanda Aşıq Zeynalın cəmi 13 yaşı olsa da, öz istedadı ilə fərqlənməyi bacarıb. Və tezliklə əsl ifaçı aşıq kimi şöhrət qazanıb.

Aşıq Zeynal saz havalarının hamısını mükəmməl bilib, çalıb-oxuyub. Onun çaldığı havalar insanların ruhuna hopub, ifa etdiyi havaları sevdirə bilib, və nəhayət, çaldığı, dərinliyinə inamla baş vurduğu havalarla öz adını könüllərə, yaddaşlara yaza bilib. İnsanın daxilindəki fırtınalardan tutmuş üzündəki sərin mehə bənzər təbəssümünə qədər ifadə edə bilən saz havalarını belə mükəmməl bilməsi onun öz sənətinin əsl vurğunu olduğunu bir daha təsdiq edir.

Goranboylu Şair Səfər şeirlərinin birində deyir:

Get Gəncəyə, Zeynalı gəz,
Abır-həya cəmdi, qərəz.
Yekəliyi qəti sevməz,
Uca səsli, el tanıyır.

Bəli, Aşıq Zeynal çox abır-həyalı, oturuşunu-duruşunu bilən, sözünü düşünüb-danışan adam olub. Qadın olan məclisə getməz, hər adamın yanında çalıb-oxumazdı. Oxuyanda üç gün sərasər oxusa, yenə yorulmazdı.

Tovuzlu Aşıq Əkbər dörd ildən çox onun yanında balabançılıq edib. Ustad aşığın sənətinin davamçısı kimi o da aşıqlıq sənətinə yiyələnib. Eyni zamanda balabançılardan Yolbasan Hüseyn, Fərhad və Binnət də (balabançı Elxan Məmmədov Binnətin oğludur) onunla birlikdə el şənliklərində, müxtəlif tədbirlərdə onunla birgə olublar.

İslam Yusifovun rəhbərlik etdiyi Gəncə aşıqlar ansamblı

Aşıq Zeynal bir çox aşıq və şairlərlə yaradıcılıq əlaqəsində olub. Çıxışlarında isə ən çox klassiklərə müraciət edib, Xəstə Qasımdan, Aşıq Ələsgərdən, Aşıq Şəmşirdən və başqalarından oxuyub. Müasiri olan bir çox şairlər isə ona şeir həsr ediblər.

O dövrün mətbuatı da Aşıq Zeynalın sənətkarlığı yüksək qiymətləndirilib. “Kirovabad kommunisti” qəzetinin 1978-ci il 3 iyun tarixli sayında A.Şərifov “Şəhərimizin aşıqlar ansamblı” məqaləsində yazır:

"...Mərkəzi Mədəniyyət və İstirahət Parkındakı yay teatrında ansamblın maraqlı proqramla çıxışı olmuşdur... Aşıq Zeynal Məmmədovun çıxışını səbirsizliklə gözləyən tamaşaçıları bu mahir sənətkar öz gözəl, təravətli və ipək zərifliyinə bənzər səsi ilə "Koroğlu", "Əsli və Kərəm" dastanlarından ifa etdiyi şeirlərlə sevindirmişdir. O, "Çoban bayatısı"nı elə ustalıqla ifa etmişdir ki, qulaq asanlar xeyli müddət o gözəl təsirdən ayrıla bilməmişlər".

Aşıq Zeynal İkinci Dünya müharibəsində iştirak edib, döyüşlərdə yaralanıb, sol əlinin iki barmağı hərəkət qabiliyyətini itirib.

1992-ci ildə həyat yoldaşı vəfat etdikdən sonra aşıq Zeynal bir daha əlinə saz almır. 1997-ci ildə aşıq özü də haqqın dərgahına yol alır.

***

Ədəbiyyat:

1. "Aşıq Ələsgər", Bakı, 1963
2. "Əzizinəm, Qarabağ". Bayatılar. Tərtib edəni İnqilab Quliyev. Bakı, 1993
3. "Kirovabad kommunisti" qəzetinin 1978-ci il 3 iyun tarixli sayı.
4. Alqayıt. "Yaralı qartal", Bakı, 2006

Cənubdan səslər

*Təbrizdən daimi oxucumuz **Səxavət İzzəti** redaksiyamıza göndərdiyi növbəti məktubunda XVII əsrdə Həmədana bağlı Bahar şəhərində yaşayıb yaratmış Aşıq Rza Baharlının bir neçə şeirini göndərib. S.İzzəti yazır ki, Aşıq Rza dövrünün qüdrətli aşıqlarından olub, ancaq təəssüf ki, aşıqların sazında yaşayaraq dillərdən-dillərə keçib bu günümüzədək gəlib çıxmış bəzi şeirlərindən başqa barəsində heç bir məlumat yoxdur. Aşıq Rza Baharlının bir neçə şeirini oxuculara təqdim edirik.*

AŞIQ RZA BAHARLI

BIR YORĞUN MARAL

Ey aqalar, gəlin tərif eyləyim,
Gəldi cavanlığın çağı sovuşdu.
Daha görməm oturduğum məclisi,
Məhbubların yığınağı sovuşdu.

Payız olar, dağlar tutar dumanı,
İmdada istərəm şahi-mərdanı.
Bülbül baxdı, xəzan gördü gülşanı,
Ağlaya- ağlaya bağı sovuşdu.

Diyarlarda dolanardım mahi-sal,
Bilməz idim, zavala yetişər kamal.
Yaylağından qalxdı bir yorğun maral,
Gözüm baxa-baxa dağı sovuşdu.

Zalım fələk quymaz mən tutam qərar,
İstəyirəm dünyadan eyləyəm fərar.
Rza deyər, namunasib ruzigar
Doldurub camıma ağı, sovuşdu.

HEYİF!

Ey ağalar, mövsüm gəldi yetişdi,
Dağıldı bülbüllər, gulzarım, heyif!
Alan aldı, satan satdı sovuşdu,
Bağlandı dukanım, bazarım, heyif!

Bircə baxın nəğmələrdə nəvaya,
Ah-naləm çulğaşıbdır havaya.
Heyif, dərdim yetirmədim davaya,
Heç təbib bilmədi azarım, heyif!

Gecə-gündüz artar mənim azarım,
Daha düşməz dost yoluna güzarım.
Hər kimə bağladım lütfi nəzərim,
Heç kimsə bilmədi nəzərim, heyif!

Baxın görün bu fələyin işini,
Heç qardaş tanımır öz qardaşını.
Kimsənəm yox yığa qəbrim daşını,
Rza deyər, itər məzarım, heyif!

YAĞIDIR FƏLƏK

Ey ağalar, heç kəs "mənəm" deməsin,
Şahların taxtını dağıdır fələk.
Mən fəqirə dadrəslıg etmədi,
Yan düşüb, mənimnən yağıdır fələk.

Bu yoxsulluq mənə yaman ad oldu,
Dost eşidib, düşmənlərim şad oldu.
Qohum-qardaş, el mənimnən yad oldu,
İndi himayətin çağıdır, fələk.

Mənzilim olubdu künci-viranə,
Tənələr bağrımı döndərib qanə.

Barmaqlara belə oldum nişanə,
Yediyim həlahil, ağıdır, fələk.

Gözəl ilham alar hüsnü əzəldən,
Aşiqlər Məcnunə dönər gözəldən,
İçərlər birbəbir camı əcəldən,
Əlində mey, hələ saqidir fələk.

Rza deyər: neçə dövran keçirtdim,
Hər düşən karvanı yurddan köçürtdüm.
Aşiqlərə qəm badəsin içirtdim,
Camımda mey, hələ baqidir fələk.

TANRI DƏRGAHI

Ey ağalar, dünya icad olanda,
"Adəm səfi", Allah, quşa yazıldı.
Qüdrət qələmini qaşa qoyanda,
Hər kimin qisməti qaşa yazıldı.

Biri sultan olub, biri sərkərdə,
Biri bəzirgandır, seyri-səfərdə,
Biri ömür boyu çulğaşar dərdə,
Birisi xan, biri paşa yazıldı.

Dağlar damanında yurd salar ellər,
Qaynayar bulaqlar, bulanar sellər.
Ördəyə göl yazıb, ceyrana çöllər,
Aslanın məskni meşə yazıldı.

Müşgüldə qalanda çağır Allahı,
Açıqdır həmişə Tanrı dərgahı.
Quranın zinəti o bismillahı,
Ayələr gələnədə başa yazıldı.

Rza deyər, bir gün kəsilər ruzum,
Əcəlim yetişər, bağlanar gözüm.
Düşər ağızlara qüssəli sözüm,
Deyərlər ki, adı daşa yazıldı.

İNŞALLAH

Ey ağalar, dəli gönlüm kamını
Bir gün bü dünyadan allam, inşallah.
Fələyin əlindən əcəl camını,
Alıb içib sərxoş ollam, inşallah.

Həzrəti Əzrayıl alanda canı,
Vaxt yetişər, tərk edərəm dünyanı.
Torpağa salaram cismi üryanı,
O dünya qapısın çallam, inşallah.

Mələkələr qapı açar üzümə,
Cənnət bağı xoş görünər gözümə.
Anam gələr, əlin qoyar dizimə,
Qullarım boynuna sallam, inşallah.

Kövsər qırağında görrəm ağamı,
Vurğünam, Mövlaya verrəm salamı.
Mübarək əlindən alaram camı,
Məst olub yanında qallam, inşallah.

Bu başıma gələn dərdi-bəlaya,
Əl götürrəm, şükr eylərəm xudaya.
Məhşərdə tuş gəlsəm Aşıq Rzaya,
Əlindən saz alıb çallam, inşallah.

Ozan dünyasından soraqlar

ŞAİR NƏBİ BORÇALI - 140

2014-cü il mart ayının 17-də R.Behbudov adına Dövlət Mahnı Teatrında Mədəniyyət və Turizm Nazirliyi və Azərbaycan Aşıqlar Birliyinin birgə təşkilatçılığı ilə şair Nəbi Borçalının 140 illik yubileyi "Sığındım Mövlaya" adlı şeirlər kitabının təqdimatına həsr olunmuş gecə keçirilib.

Gecəni giriş sözü ilə Xalq şairi Zəlimxan Yaqub açaraq şair Nəbinin yaradıcılığından, aşıq sənətinin inkişafındakı xidmətlərindən danışıb. Gecənin aparıcısı və Şair Nəbi irsinin tədqiqatçısı folklorşünas alim, Əməkdar Mədəniyyət işçisi Elxan Məmmədli yubilyar haqqında geniş məlumat verib. Sonra professor Məhərrəm Qasımlı, tədqiqatçılardan Fəxrəddin Salim və Həsən Hüseynov çıxış edərək Şair Nəbi Borçalı yaradıcılığının özünəməxsusluğundan söz açıblar.

Borçalının Faxralı kəndindən gəlmiş Adil Rəhimoğlu Şair Nəbinin ailəsi adından tədbirin təşkilatçılarına minnətdarlığını bildirib.

Aşıqlardan Cahangir Qulyev, Murad Kövrək, Altay Məmmədli, Əşrəf Təmirov, Telli Borçalı, Ədalət Dəlidağlı, Ağamurad İsrafilov, Şahbaz Göycəoğlu, Ramin Qarayev, Qabil Abdıyev, Bəhman Göyçəli və Firudin Göyçəlinin ifasında Şair Nəbinin sözləri tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

USTAD AŞIQ HÜSEYN SARAÇLININ XATİRƏSİ YAD EDİLMİŞDİR

Gürcüstan azərbaycanlılarının yığcam yaşadıqları Kvemo Kartli-Borçalı bölgəsinin Bolnisi rayonundakı Saraçlı kəndində məşhur aşıq **Hüseyn Saraçlının** ənənəvi 27-ci anım günü qeyd olunmuşdur.

Mərasim iştirakçıları kənd qəbiristanlığında aşığın məzarını ziyarət etmiş, ustadın 13-cü şagirdi **Kövrək Murad** ustad ləngərində layiqli ifaları ilə çıxış etmişdir. Sonra mərasim ustadın kəndin mərkəzindəki büstü önündə davam etdirilmişdir.

Gürcüstan Aşıqlar Birliyinin sədri **Osman Əhmədoğlu** ustadın ömür yolu barədə ətraflı danışmışdır.

Azərbaycan Aşıqlar Birliyinin katibi **Musa Nəbioğlu** qurumun rəhbəri, Xalq Şairi **Zəlimxan Yaqubun** xoş arzularını iştirakçılara çatdırmış, iki ildən sonra 100 illik yubileyi tamam olacaq, türk dünyasının azman sənətkarı Hüseyn Saraçlı irsinin gələcək nəslə çatdırılması üçün yeni nəşrlərin hazırlanması istiqamətində tədbirlər planının tərtib edilməsi təşəbbüsü ilə çıxış etmişdir.

Gürcüstanın "Şərəf" ordeni kavaleri şair **Nizami Saraçlı** aşıq Hüseynin bir kənd məkanından çıxaraq böyük bir türk eli məkanını belə aşdığını vurğulamış, onun yüksək peşəkarlığından danışmışdır.

Tədbirə öz arzusu ilə qoşulmuş Marneuli rayonundakı Sadaxlı 2 nömrəli məktəbin 4-cü sinif şagirdi **Canan Məmmədova,** Saraclı məktəbinin 7-ci sinif şagirdləri **Kənan Çobanov, Elnarə Musayeva, Göyçək Bayramova, Nahadə Çobanova** Hüseyn Saraclıya həsr olunmuş şeirləri səsləndirmişlər.

Qocaman şairlərdən **Bəhram Mehdi, Dünyamalı Kərəm,** Saraclı məktəbinin müəllimi **Osman Osmanov**, jurnalist-tədqiqatçı **Mirzə Məmmədoğlu,** Gürcüstan parlamentinin sabiq deputatı **Hidayət Hüseynli**, şairlərdən **Zahid Ələmpaşalı, Çoban Rəşid, Şövkət Dağlarqızı** və başqaları ustadla bağlı xatirələrindən danışmışlar. Məclis Aşıq **Aslan Kosalı, Məhəmməd Sadaxlı,** Xan Kamandarın yadigarı **Elşad Əfəndiyev**, ifaları insanları məftun etmiş **Şahbaz Göycəoğlu**, gənc aşıq **Məsim** və başqalarının çıxışları ilə davam etdirilmişdir.

Tədbir ustadın həmyerlisi **Süleyman Çobanovun** təşkilatçılığı ilə baş

tutmuş və o, 27 il öncə "Gürcüstan" qəzetinin baş redaktoru **Süleyman Əfəndinin** təşəbbüsü ilə başlanmış bu mərasimin indiyədək davam etməsindən məmnun olduğunu bildirmiş, Hüseyn Saraclının bir elin deyil, bir dünyanın sənətkarı olduğunu vurğulamışdır.

Ustadın yadigarı **Əli Hüseynoğlu** atasının xatirəsini əziz tutanlara ailəsi adından minnətdarlıq etmişdir.

İslam Əliyev
Tbilisi.

Ustad aşıqlarımızın repertuarından

ŞAİR AĞACANIN ƏRZURUM SƏFƏRİ

(Dastan ustad Aşıq Hüseyn Saraçlının dilindən yazıya alınıb)

İndi sizə kimnən, hardan xavar verim, Ərzurum şəərinnən. Ərzurumda Rüştü paşa əyləşmişdi. Rüştü paşanın vaxtında Dol şəərinnən Dollu Mustafa aşıxlıxda tanınırdı. Ərzurumda qavağına çıxan olmamışdı. Oydu ki, yanda da qırx şəyirdi ildə bir dəfə gəlif Rüştü paşadan yüz tümən pul, bir at, bir qat livsa, qızıl saat, nal-barat alıf gedərdi. Paşa elə bilirdi ki, bunnarın qavağına çıxan aşıx heç tapılmaz. Ona səvəf bunnara belə barat verməliydi.

Gəl gör ki, bu dönüş onnar gələn zaman naxçıvannı Kablayı xan da paşıya qonax olsun. Xan dedi:

– Paşam sağ olsun, bu nə hay-küydü, olmuya toy işin var?

Paşa dedi:

– Xan, toyum-zadım yoxdu, ancax bir aşıx Dol şəərinnəndi, ildə bir dəfə gəlif mənnən yüz tümən para, at, fəxri livas, saat, nal-barat alar, gedər, çünki bu zor yanşaxdı, bizdə də elə yanşax yoxdu ki, buna xasım ola. Nə yapım, iştə verməliyəm.

Kablayı xan dedi:

– Paşam sağ olsun, mənim bir şayır dostum var Şarayıl mahalında, gəlsən, onu gətirdəm, bunnarın quyruğunu düysün.

Paşa dedi:

– Əfəndim, elə bir işin varsa, sana böyük töhvə bağışdıyaram, o yanşax da bənim yanşağım olar.

Çünki Ağacan Kablayı xannan dostuydu. Özü də Ağacanın sərmayasını, qüvvəsini bilirdi. Götürüf Kablayı bir nama yazdı, qasidə verif, göndərdi Şarayıl mahalının Yenicə köyünə: "Ağacan, özünü tez Ərzuruma yetir. Bala meydana, mənim dar günümdü, başını orda isdat, burda qırxdırram. Yazan dostun Kablayı xandı, naxçıvannı". Nama gəlif Ağacana çatdı. Ağacan mat qaldı ki, Kablayı xanın nə işi olar? Atasına maslət ellədi. Cabbar kişi dedi:

– Oğul, yaqın, orda dosdugildədi, dosdunun xəstəsi zadı var, o da bilir ki, sən hər işdən halısan, noolar, get.

Ağacanın yanında bir şəirdi olurdu, Əziz addı. Şəirdi dedi:

– Usda, qoy mən də gedim, bərkə xeyir işi var. Ağacan dedi:

– Yox, xeyir işi olsa yazardı, yaqın, qağam demişkən, dəlisi zadı var, sağaltmax lazımdı, mən tək getməliyəm. Atını minif yola tüşdü.

O getməhdə olsun. Ərzurumda Rüştü paşa Dollu Mustafıya dedi:

– Sana xasım gəlir.

Mustafa özünü sındırmıyıf dedi:

– Çox yaxşı, onda elan vurdur ki, deyişmə gedəjəh. Paşa elan vurdurdu ki, yanşaxlar atışması gedəjəh, kim istiyirsə, seyrə gəlsin. Eloğlu da seyirdən doymaz. Xalx yığılmaxda olsun...

Ağacan bir-iki kitaf, özgə əməl-salahını həyvəsinə qoyuf Ərzurum şəərinə gəldi. Şəərə girəndə gördü bütün küçələrə elan vuruluf ki, deyişmə gedəjəh: Dollu Mustafıynan Şarayıllı şayır Ağacan deyişəjəh. Ağacan istədi geri qayıtsın. Sonra fikirrəşdi ki, doğan ana utansın. Daa keçif, nə çıxar-çıxar, onu dünyə tanıyır, məni heç yer tanımır, bağlansam da ayıvı yoxdu. Hası ünvana yazmışdılar – gəldi.

Bala meydanda, böyük bir salon ağzına qədər doluydu, düz gəlif orya çıxdı. Atını mehtərrər tutdu, özünü məclisə gətirdilər: içəri girəndə nə görsə yaxşıdı, gördü paşalar əyləşif, Kablayı xan da yannarında. Ağacan baş əydi, paşalar xoş gəldin deyif görüşdülər, yer görkəzdilər: Kablayı xan bığının altınnan qımışdı. Ağacan tufarrara göz gəzdirdi. Tufarrarda yer yoxuydu, tosvağa kimi sazın əlindən. Kablayı Ağacanı himlədi: olan, Mustafa şəərə gəzməyə çıxıf. Baş şəyirdi Aşıx Məhəmməd qalxıf sazını köhlüyüf meydana çıxdı, paşalara baş əyif dedi: icaza versəniz, Qafqazdan gələn şairə bir xoş gəldin dəərdik. Hamı bir yerdən: çox yaxşı olar, dedi. Ağacan yenijə oturmuşdu. Dedi:

– Balam, bir istəkan çay içməmiş, bir ajı qalyan çəkməmiş niyə tələsdin. Məhəmməd dedi:

– Canım, biz bir həftədi burduyux, getməliyih, meydana gəl, qurtarax.

Ağacan paşalara baş əyif, icazə istədi. Paşalar şad oldu ki, dəəsən kəndində var. Götürüf Ağacana da bir söz verdilər. Ağacan o vaxtı yaxşı saz çalırdı. Məhəmməd qavağa tüşüf, görəh Ağacana nejə xoş gəldin dedi. Ancax əfəndilər, söz sərrafları qıymat verməliydilər. Katiflər yazmalıydı. İndi görəh Məhəmməd "Şər-xatayı divanı" üstə nə dedi:

Bizə bir müsafir gəlmiş,
Əhli – Qafqaz mollası,
Sinəsinnən moj vermiş
Eşqinin tullaması,
Boynunnan, sağ tərəfdən
Hamayıl asmış durur,
Cadıgünlər əlaməti,
Qarılar boylaması.

Ağacan dedi.... Aşıx, ilk kəlmədən niyə lateyir başdadın?
Məhəmməd dedi:
– Tez cavavımı ver, oan-buan danışma.
Ağacının da lateyirdə yeddi kotanı əkirdi.

Ağacan:

Bizə yaqın oldu gənə,
Müsafir qoylaması,
Kəndini sürgün edəjək
Məclisin toylaması,
Haşa sizdən, ey ağalar,
Bəyzadalar, paşalar,
Eşşəyi qurda yedirdər
Qoduğun oynaması.

Kablayı dedi:
– Ağacan, bil, bu şəirdidi. Hələ dalı var.
Amma bu sözdə paşaların içinə bir şaqqıltı, gülüşmə tüşdü. Rüştü paşa Məhəmmədə dedi:
– Olan, yanşax ustanı mərkəf yafdı. Özünü qıvıx, nə günə durursan. Bir saat gülüşmə getdi. Hər tərəfdən Ağacana eyvAllah sözü gəldi.
Məhəmməd dedi:
– Hələ sənnən zarafat elliyirəm, yayını yoxluyuram, görüm nejə atır. İndi qulax as:

Məhəmməd:

Aşıxlarda qayda budu,
Öz kəndini öyən gərəh:
Qarşısınnan qaçmax olmaz,
Cavavını deyən gərəh:
Ağzını çox ayırır,
Bir öycə yüyən gərəh:
Minməyi hasand olajax,
Çətindi çullaması.

Ağacan:
Bir söz də qoy mən deyim,
Sənin sözünə dayır:

Şuvara şerrərini
Bütün ölküyə yayır:
Ustadı çox qojalıf,
Əəyfinnən axsıyır:
Şəyirdi nalbənd oluf,
Bir yaxşı nallaması.

Bu yerdə Məhəmmədin ustadı Mustafa əlində də hasası gəldi. Xeyli qojuydu, həm də bir az yelimsiyirdi. Onçü belə demişdi. Məhəmməd dedi ki, gəl ustanı işarat ver, bərkə qorxa.

Məhəmməd:

Məhəmmədəm, adım çıxıf
Şama, Dəməşqə, Hələbə:
Ustadım böyük alımdı
Mən ki, varam bir tələbə:
İndi səni çəkəjəh,
Farsıyata, ərəbə:
Sazını əlinnən alıf,
Qafqaza yollaması.

Götürdü Ağacan nə dedi:

Ağacanam, tanıyıram
Sən anayın ilkisən:
Əylənifsən Ərzrumda,
Zəbt edifsən mülkü sən:
Bədəninə qotur tüşüf,
Qırda gəzən tülküsən,
Dərdini dalınnan soyuf
Oyçuya yollaması.

Hər ikisi sözünü qurtardı. Usta Mustafa meydana girdi, paşalara baş əyif, sazını götürdü.

– Oğul, meydan kimindi?

– Usta, çoxdan meydani – Ərzrum sənindi, şimdi baxalım.

“Osmannı divanısı” üstə görəh Mustafa nə dedi:

Ay ağalar, ay paşalar,
Aşıxlıq əslindəndi.
Ağalıx, bəylik, paşalıx
Türklərin nəslindəndi.
Nejə zaman keçifdi
Rəsul aləmnən, de?
Ay dolanıf gərdiş eylər,
İl neçə fəslindəndi?

– Oğul, əvəl uşax əlinə keçifsən, kəndini topla ki, hələ ağzına beçə balı verrəm. İndi gör nejə zəhərriyəjəm.

Ağacan dedi:

– Usta, cücəni payızda sayallar, öyünməyinə hələ var, tələsimə, şimdi baxalım hünərinə.

Kablayı dedi:

– Ağacan, fikir elləmə, demə ki, təkəm, mən burdayam, qıypınma.

Ağacan ürəhlənif görəh nə dedi:

Ağacan:

Ay ağalar, ay paşalar,
Hər bir şey əslindəndi:
Ağ gül, sarı gül, bənöyşə....
Hər kəs öz nəslindəndi:
Min üç yüz otuz dörd il
O Rəsuli aləmdəndi:
Ay dolanıf gərdiş eylər,
İl çahar fəslindəndi.

Mustafa:

İçmişəm qəfə qalyanı,
Könlümü bulandırır:
Həqiqət biruza verif,
De, nəynən inandırır:
Ərəbə, farsa çəhməhdə
Bu məni dolandırır:
Kəməndini çin-çin edif
Canımın qəsdindədi.

Rüştü paşa dedi: – Oğlum, qısqanma, iştə bən burdayam, haqnan get. Ağacan daa da ürəhləndi, aldı görəh nə dedi:

Bir qətrə mayadan
Yaradan var insanı:
Hər yerinnən yetən aşıx
Dolanmasın meydanı:
Bu arıya gətirəlim
Ol qara göz Quranı,
Axtaralım, bir baxalım,
Hansı söz rasdındadı.

Hər tərəfdən afərin səsi gəldi. Paşa əmr ellədi ki, əfəndilər, Quranı açın, ayatdarı yoxluyun, cocuq düz deyir, heç kəs laf atmasın.

Mustafa:

Mərhəba olsun, əfəndim,
Yaxşı danışdın, əcəb:
Baxıram sənin sinəndə
İndi vardı başqa təb,
Quranın mənasınnan
Bilirəm ləvsi - ərəb,
Dörd tərəf cahar yarrar,
Mustafa üstündədi.

Ağacan:

Gəl tüşmə Ağacannan,
Bu söydadan dön geri:
Almışam qala bürcün,
Tutmuşam hər səngəri,
Ərşin-kürşün, salavatın,
Yerin-köyün ləngəri,
Allahın kəskin qılıncı,
Murtuza dəsdindədi.

Xalq əhsən deyif əl vurdu. Gənə Mustafa qavağa tüşdü. Dedi ə, gəl buna bir laf at, bəlkə dirənə.

Aldı Mustafa “ Oyşarı” havasında nə dedi:

Yay günü büdrədim aran buzunda,
Yıxıldım yerrərə, tutuldu köhsüm.
İstədim ki, duruf cavavın verim,
Ağzım açıx qalıf, gəlmir nəfəsim.

Paşalar dedi: olan, yanşax, şimdi laf yapyorsan.

Ağacan:

Mən də həlak oldum daş tüstüsünnən,
Camuş yumurtası tutufdu səsim.
Şöytəli yağıynan dodax yağladım,
Tutuldu boğazım, kəsildi səsim.

Hər tərəfdən afərin səsi gəldi.

Mustafa:

Ağrının başında əkdim yemişi,
Sarp qayada gördüm qarğı-qamışı,
Dəvənin buynuzu, saxsağan tişi,
Uzun saqqalınnan göndər bir xasım.

Ağacan:

Bir sürü qoyunum dərya üzündə,
Çovanım qızınır qamış közündə,
Erkəcim var əllisində, yüzündə,
Saqqalı uzundu, göndərrəm xasım.

Paşalar eyvAllah dedi.

Mustafa:

Dollu Mustafıyam, felinən fəntdə
Məni yenən olmaz, atsa kəmənt də:
Ələzin başında, ustaçıx kənddə,
Gəl, gedəh orada sözünü kəsim.

Ağacan:

Ağacan da hürufatdan asılmış,
Çar - ətrafı, hər bir yanı kəsilmiş,
Üstüaçıx kəndin yolu basılmış,
Yeddi oğlun oluf, kiçiyi Məsim.

Mustafa fikirrəşdi ki, ə, bu nə bildi mənim yeddi oğlum olduğunu? Kiçiyi də Məsim. Yaqın o dünyədən gəlif, görüçüdü. Dedi: gənə hərbəliyim, görəh nə çıxır. Aldı Mustafa "Şahsevəni" havasında nə dedi:

Meydanıma gələn şayır,
Ağasanmı, nökərsənmi?
Sazını əlinnən alsam,
Qəmli fəryad çəkərsənmi?

Ağacan:

İndi sana bir söz desəm,
Göz yaşını tökərsənmi?
Aşıxlığı tərk elliyif
Cüt, ya kotan əkərsənmi?

Mustafa:

Tuş olmuyufsan laçına,
Göndərrəm Çinə, Maçına.
Qataram quşdar içinə,
Qarğa kimi səkərsənmi?

Ağacan:

Yetifsənmi təriqətə,
Təriqətdə mərifətə,
İndi çəksəm həqiqətə,
Əlif qəddin pükərsənmi?

Mustafa:

Mustafa ilə Yasinə,
Əl atsam hiylə tasına,

Hürüfat desəm tərsinə,
Ona nöqdə tökərsənmi?

Ağacan:

Ağacanın elmi böyüh,
Cavav ver sözümə səhih,
Desəm dörd yüz qırx dört sümüh,
Hesafını çəkərsənmi?

Mustafa gördü ki, haana çəkir, arif çıxır. Dedi: paşam sağ olsun, indi qıfılbənd dəəjəm, qoy mollalar kitafları açsın, Qurannan danışajıyıx.
Aldı Mustafa görəh "Qaraçı" havasında nə dedi:

O kimiydi, getdi cənnət bağına,
Hürülər, pərilər dastan dedilər?
Kimiydi, getmədi səjdəgahına,
Tüşdü yer üzünə, böhtan dedilər?

– Oğul, ver indi cavavımı.
Ağacan dedi: – Baş üstə. Qulaq as, deyim.
Əfəndilər kitafları açıf baxdılar.

Ağacan:

Həzrət Adəm getdi cənnət bağına,
Hürülər, pərilər dastan dedilər.
Mələh touz ona səjdə etmədi,
Löhü-nəhlət keçdi, şeytan dedilər.

Hər tərəfdən əhsən səsi gəldi. Dedilər, çox düz açdı.

Mustafa:

Kimiydi ki, tutuf atdılar nara,
Kim onun qolunnan çəkdi kanara?
Kimiydi, ölüyə ellədi çara?
Ölmüyüf dirilməz, mehman dedilər.

Ağacan:

İrvahım Xəlili atdılar oda,
Əlinin nuruydu, yetirdi dada,
Loğman çara etdi, yetmədi nida,
Nə ölməz, dirilməz, mehman dedilər.

Əhsən səsi hər tərəfdən ucaldı.

Mustafa:

Mustafa urfatdı aradı, seçdi,
Kimiydi, yeddi il zindana tüşdü,
Kimiydi, gözəllik şərbəti içdi?
Kimə nida gəldi, sultan dedilər?

Ağacan:

Ayrı sözün varmı bu Ağacana?
Yusuf gözəlliyi tüşüf cahana:
Həzrəti Züleyxa getdi mehmana,
Axırda Misirə sultan dedilər.

Gənə Mustafa qavağa tüşdü, bir "Təcnis" havasl çaldı, bağlama dedi:

Mustafa:

Bir pəhlivan öz qalasın yeridir,
Nədən yaranıfdı qalası onun?
Gəzəndə tuş oldum, bir baxçıya mən,
Nə olmaz çiçəyi, lalası onun.

Ağacan:

Tısvağadı, öz qalasın yeridir,
Sümühdən yaranıf qalası onun.
Tuşunda gördüyün behişt bağıdı,
Nə olmaz çiçəyi, lalası onun.

Mustafa:

Hansı qala bir zərbiynən dağılmış?
O kimlərdi, həqiqəti yanılmış?
O nədi ki, cüt nəsldən doğulmuş?
Özü doğmaz, olmaz balası onun?

Ağacan:

Xeybər qalasıdır, belə dağılmış,
Yarımçıx alimlər şəryət yanılmış,
O qatırdı, cüt nəsldən doğulmuş,
Özü doğmaz, olmaz balası onun.

Hər tərəfdən əhsən səsi gəldi. Götürüf Mustafa daa nə dedi:

Mustafa da hürüfatı bilifdi,
Bu cahanda şad oluban, gülüfdü.
Yetmiş nəfər bir səhrada ölüfdü,
Nə səvəv yoxdu mollası onun?

Ağacan:

Ağacan çoxuna verirdi öyüd,
Səhrada mən gördüm səhsən min meyid,
Hərbidə ölürdü yetmiş min şəhid,
O səvəfdən çatmaz mollası onun.

Kablayı xan paşadan icazə istədi, dedi, paşam sağ olsun, elə hey Dollu Mustafa qavaxca gedir. Olarsa, indi də Ağacan qavağa tüşsün, görəh bu yanşax da cavaf verə bilərmi? Hamı eyvAllah dedi.

Sonra Kablayı xan işara verdi ki, aya Ağacan, dərinnən de, novat sənindi.

Aldı Ağacan görəh “ Keşişoğlu” havasında nə dedi:

Kimiydi əzəli getdi zülmata,
Onun getməsini nəyə yazdılar?
Neçə min kafəri getdi aradan,
Zərbə vurmasını nəyə yazdılar?

Mustafa:

Əzəl Əmrəlmömün getdi zülmata,
BismilAllah oxudu deyə yazdılar.
Səhsən min cinnini götdü aradan,
Təriqət kəlməsi deyə yazdılar.

Rüştü paşa Ağacana dedi:
– İşdə, yanşax, nə yapyorsan?

Ağacan:

Bə kimə enifdi ərşdən kalam,
Kimlər nala cəhdi, dağıldı qalam?
Bə hardan verildi doxsan min salam,
Onun salamını nəyə yazdılar?

Mustafa:

Şeytan nala çəkdi, dağıldı qalam,
Məhəmməd şaynına enifdi kalam,
Yeddi salavatdan verildi salam,
Onun salamını göyə yazdılar.

Ağacan:

Ağacan dilinnən olarmı xata?
Bə sonra kimiydi getdi zülmata?
Kimin şayanına gəldi ol ata?
Nəyin pərdəsində seyə yazdılar?

Mustafa:

Umud var, Mustafa etmiyə xata,
Sonra Xızır getdi o zülmata,
Murtuza şaynına gəldi ol ata,
Ərşin pərdəsində seyə yazdılar.

Hər yannan əhsən dedilər, Kablayı xan dedi:
– Ağacan, balam, neyliyirsən? Fırsantı fota vermə. Gör nağayrırsan.

Ağacan dedi:
– Savr ellə, ağam sur verif. İndi baxarsan. Aldı görəh nə dedi:

Ağacan:

Bir səhrada on beş qazı oturmuş,
Onnarın taxt üstə bir qararı var.
Hərəsində doxsan iki əl gördüm,
Cəsəd bir, gərdən üç, bir də səri var.

– Usta, cavaf ver.
– Oğul, mən qırx cöözə bir ağac atıram, dalını de!
Kablayı xan güldü, paşalar Ağacana əhsən dedi.

Gənə aldı Ağacan:

Doxsan min molladı, doxsan min seyid,
Doxsan min biyaban, doxsan min meyit,
Çəməngahda gördüm doxsan min şəhit,
Doxsan min şəhidin bir məzarı var.

– Usta, cavaf.
– Oğul, kişidə söz bir olar.
Rüştü paşa dedi:
– Olan, yanşax, dəəsən qalıyı aldırdın.
Mustafa dinmədi. Görəh Ağacanın axır sözü nooldu:

Ağacan oxuyar sana bir ayə,
Məhəmməd nə günü gəldi dünyəyə?
Əli də harada tüşdü söydaya?
Ya dəənlər kimdi, nə nəzəri var?

Paşalardan əhsən səsi göyə ucaldı. Dollu Mustafa oturuf kor-peşman qalyan çəkirdi. Paşalar əmr ellədi ki, sazları yığışdırın. Sazdar yığışmax-da olsun, ancax Kablayı Ağacana dedi:
– Bunun oturmağına da, bir sözün olarmı?
Ağacan dedi:
– Baş üstə, ona da dəərəm.
Götürüf bir “Şər-xatai bəhri-divanı” çalıf nə dedi:

Bir quş gördüm havalanmış,
Yuvası səngərdədi;
Bir gəmi dəryaya dalıf,
Çarxları ləngərdədi,
Onu ummana qarğ etdim,
İndi sahil bərdədi;
Günəşin şövqü alındı,
Bulut ona pərdədi.

Tanı qarşını kəsən,
Kimnən alıf dərsini;
Löhü-qələm salavatı,
Keçdi ərşi-kürşini;
Yeddi min ayə içində
Nişan verrəm birsini;
Uruhları ərş-ələda,
Cəsəti yerrərdədi.
Ağacanam, nişan verim
Mən də sana zatımı;
Yüz min yerə yolluyuram
Bir əlif hurfatımı;
Şin-şəərim tənəzzüldü,
Teydə-təriqatımı;
Ustadımdı şir-ajdaha,
Dillərdə əzbərdədi.

Söz tamam oldu.

Ancax Rüştü paşa dedi:

– Olan, yanşax, dəə bilərsənmi bunnar nejə yanşaxdılar?

– Baş üstə, paşam, dəərəm! Bu hərif yer gəzir qaçmağa, ancax sinəmə gənə bir söz gəldi.

Görəh “Müxəmməs” havasında genə aşığa nejə həcv dedi:

Eşitmişəm hər bir yanda
Həp-kopun vardı, aşıx!
Düşüncəli insannara
Lağ eyləmək ardı, aşıx!
Gəlif keçifsən cəngimə,
İşin ahı-zardı, aşıx,
Boylanırsan hey qaçmağa,
Yerin yaman dardı, aşıx!

Aşıxlıx bir dəryadı,
Hər yetən dalmıya gərəh.
"Divanı", "Təcnis" yerinə
"Gəraylı" çalmıya gərəh.
İnsan olan bir-birinə
Müxənnət olmuya gərəh.
Sözdərimi eşitmirsən,
Qulaxların kardı, aşıx?

Rüştü paşa dedi:

– Oğlum, yanşax, əsli-nəslini de, görüm kimsən, bunnan sonra bənim yanşağım sənsən, çoxlu qızıl, altun verəjəm.

Görəh Ağacan adını, kökünü nejə dedi:

Gəl sənə nişan verim,
Şahı-mərdandı usdadım;
Cəfərli soykökümdü,
Bil, Ağacandı öz adım;
Gejə-gündüz diqqətiynən
Dərsimi verif ustadım;
Al sazını, bir cavaf ver,
Yoxsa dilin laldı, aşıx?

Dollu Mustafa qalxdı getməyə, paşa dedi:

– Olan, anasını satdığım, xınzır oğlu, sənin ixdiyarın o şayırdadı, o ixdiyar verdimi ki, qaçmax istiyorsan?

Ağacan paşıya baş əyif ixdiyar aldı:

– Qoy getsin mahalına, öyünsün, sazdarını da ver, sənin adına yaxşı döyül. Qorxma, daa bu torpağa gəlməz.

Elə də Dollu Mustafa getdi. Sonra paşa böyük qonaxlıx düzəltdi. Ağacanı dünyə malınnan qanı elliyif, yola saldı, dedi:

– Oğlum, ildə iki-üç dəfə gəlif haqqını apararsan, bizə də çünbüş yaparsan. Sən kəndimi ucaltdın.

Burda söhbətimiz qurtarır, qalın salamat. Onnara rəhmət, siz də sağ olun.

MÜNDƏRİCAT

C.Mustafayev. Aşıq Ələsgər irsində sufilik..... 3
M.Nəbioğlu. Zəlimxan Yaqubun yaradıcılığında
aşıq sənəti və ustad aşıqlar..... 18
X.Bəşirli. Ədəbi qaynaqlar 29
Q.Sayılov. Azərbaycan aşıq sənətində dini və irfani görüşlər..... 38
N.Əskər. Aşıq Nəsib haqqında iki rəvayət 48
L.Vaqifqızı (Sülüymanova). Molla Cümənin yaradıcılığında
bayatı janrı..... 58
O.Əhmədoğlu. Sən ürəyimizdəsən 65
Ş.Vəliyeva. Gəncənin Aşıq Zeynalı..... 72
R.Baharlı. Şeirlər 75
E.Çobanlı. Ozan dünyasından soraqlar..... 77
Şair Ağacanın Ərzurum səfəri (dastan)..... 80

Yığılmağa verilmiş 14.04.2014
apa imzalanmış 29.04.2014
Şərti çap vərəqi 6. Sifariş № 382.
*Kağız formatı **70x100** 1/16. Tiraj 1000*

*Jurnal **«Nurlan»** nəşriyyat-poliqrafiya müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.*